QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 208 (8524) ŞƏNBƏ, 10 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İLHAM ƏLİYEV Hadrutu işğaldan azad etdi

## Şanlı Ordumuz daha 8 kənddə Azərbaycan bayrağını ucaltdı



## Qarabağa inamla, qələbəyə İLHAMla!

### Azərbaycan Ordusu bütün cəbhəboyu hərbi üstünlüyünü davam etdirir

**Biz bu günü çox gözləmişik...**
**Müharibənin açdığı, sarısaq da heç vaxt tam sağalmayan, zaman-zaman qanayan, bizi incidən yaralarımıza sığal çəkib, Qarabağa yenidən dönmək ümidi ilə ayaqda qalmışıq...**
**Erməni faşistləri tərəfindən vəhşicəsinə qətlə yetirilən, müqəddəs Vətən uğrunda canını fəda edən şəhidlərimizin qanını yerdə qoymamaq hissi ilə alışıb yanmışıq...**

Düşmən tapdağında inləyən torpaqlarımıza görə narahat qalan şəhid ruhları qarşısında vicdan borcumuzun olduğunu dərk edərək mənəvi rahatlıq tapmamışıq...

Doğma yurdundan qovulan, olmazın zillətlərə düçar edilən, 30 ilə yaxındır məcburi köçkün həyatı yaşayan nisgilli vətəndaşlarımızın yenidən öz isti ocaqlarına qayıdacaqları inamını içimizdə böyüdüb, ölməyə qoymamışıq...

İllərdir həsrətində olduğumuz, ürəyimizdə qübara çevrilən, xiffətini çəkdiyimiz ata-baba torpaqlarına böyük qayıdışın arzusu, xəyalı ilə yaşamışıq...

Budur, 30 ilə yaxındır gözlədiyimiz o möhtəşəm tarix yetişib. İllər öncə Qarabağdan nənəsinin, anasının qucağında, belində çıxan, qovulan oğullar bu gün öz evlərinə tank belində qayıdırlar...

*Ardı 8-ci səh.*

## “Düşməni sonadək qovacağıq!”

**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC dövlət başçısının müraciətini təqdim edir.**

### Prezident İlham Əliyevin xalqa müraciəti



- Əziz həmvətənlər.

Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.

*Ardı 2-ci səh.*

## “Biz ərazi bütövlüyümüzü bərpa edirik və biz haqlıyıq”

### Prezident İlham Əliyevin “CNN International” televiziya kanalının “The Connect World” verilişində müsahibəsi yayımlanıb

**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “CNN International” televiziya kanalının “Connect the World” verilişində müsahibəsi yayımlanıb. AZƏRTAC müsahibəni təqdim edir.**

**- Mən Ermənistan prezidenti ilə danışdım və o, mənə dedi ki, bu münaqişə əvvəlki toqquşmalardan kəskin şəkildə fərqlənir. Çünki Türkiyə Azərbaycana açıq şəkildə dəstək göstərir. Üstəlik, o, mənə dedi ki, Türkiyə öz zabitləri, generalları, muzdluları, terrorçu cihad döyüşçüləri ilə Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana minlərlə adam gətirib. Türkiyə öz hərbi gücü ilə, guya, müəyyən beynəlxalq logistik strukturları qorumaq üçün orada olduğunu deyir. Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?**

*Ardı 3-cü səh.*

## “Siz Paşinyandan soruşmalısınız onun əsgəri orada nə edir?”

### Prezident İlham Əliyev “Sky News” televiziya kanalına müsahibəsində jurnalisti ədalətli olmağa səslədi

**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Sky News” televiziya kanalında müsahibəsi yayımlanıb. AZƏRTAC müsahibəni təqdim edir.**

**- Skynews-a müsahibə verməyə razılaşdığınız üçün çox sağ olun Prezident Əliyev. Fransa prezidenti bu günlərdə atəşkəsin razılaşdırılacağına və Sizin danışıqları bərpa edəcəyinizə əmin kimi görünür. Bunun başvermə ehtimalı varmı və hansı şərtlər əsasında?**

- Bu, Ermənistanın mövqeyindən asılıdır. Azərbaycan həmişə danışıqlar prosesini dəstəkləmişdir. Səmimi söyləsəm, ATƏT-in Minsk qrupunun yaradılmasından bəri 28 il müddətində biz danışıqlarda iştirak edirik. Bizim ümidlərimiz var idi və indi də ümidlərimiz var ki, danışıqlar irəliləyişə və münaqişənin siyasi həllinə gətirib çıxaracaqdır. Lakin əfsuslar olsun ki, Ermənistanın mövqeyi əksinə idi.

*Ardı 2-ci səh.*

**Düşmənin ümumilikdə 16 komanda məntəqəsi, 196 tankı, 38 BM-21, bir “Uraqan”, 10 özüyeriyən artilleriya qurğusu, 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 “S-300” kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 “Kub” zenit-raket kompleksi və digər hərbi texnikası məhv edilib. 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 27 “İqla” kompleksi və digər avtonəqliyyat vasitələri qənimət götürülüb**

# “Düşməni sonadək qovacağıq!”



*Əvvəli 1-ci səh.*

Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir. Azərbaycan işğal altında olan torpaqları işğaldan azad edir. Demək olar ki, hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün bizim əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Eyni zamanda strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib olurlar. Beləliklə, əməliyyat planı tam icra edilir, əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu həm maddi-texniki təchizat baxımından, eyni zamanda döyüş hazırlığı baxımından bu gün döyüş meydanında tam üstünlüyə sahib olubdur.

Bu gün aparılan döyüşlərdə düşmənin hərbi texnikası böyük dərəcədə məhv edilmişdir və eyni zamanda hərbi qənimət götürülmüşdür. Deyə bilərəm ki, sentyabrın 27-dən bu günə qədər bütövlükdə Ermənistan Ordusuna çox böyük zərbə vuruldu. Mən, sadəcə olaraq, Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını sizin diqqətinizə çatdırmaq istərdim. Ermənistanın itkiləri ilə əlaqədar məlumat verirəm: 16 komanda məntəqəsi məhv edildi, 196 tank məhv edildi, 38 BM-21, 1 “Uraqan”, 10 özüyeriyən artilleriya qurğusu, - onlardan 8-i “Akasiya”, 2-si “Qvozdika”, - 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 “S-300” kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 “Repelend” radio-texniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolokasiya stansiyası, 1 “Kalçuqa” anteni.

Qənimət kimi götürülmüş hərbi texnika aşağıdakı kimidir: 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 “İqla” kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını.

Onu da bildirməliyəm ki, düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika yoxdur. Düşmən öz xalqına nağıllar danışır, yalan danışır. Faktları saxtalaşdırır, öz xalqını aldatmaq istəyir, beynəlxalq aləmi aldatmaq istəyir ki, guya, onlar hücuma keçirlər, onlar bizim bəzi mövqelərimizi geri alıblar. Hamısı yalandır. Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Azərbaycan əsgər və zabiti yüksək mənəvi psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil. Onlar mövqeləri qoyub qaçırlar. Baxmayaraq ki, 30 il ərzində təmas xətti boyunca və bir neçə xətt üzrə dərin eşelonlanmış müdafiə sistemi qurulub. Mühəndis-istehkam qurğuları qurulub. Onları yarmaq, onları keçmək çox çətindir. Bəzi hallarda bəzi istehkamları keçmək üçün bizə bir neçə gün lazım olur. Eyni zamanda biz bütün işləri elə aparırıq ki, az itkilər verək. Ona görə bəzi hallarda müxtəlif istiqamətlər üzrə mövqelərimizdə möhkəmlənib, ondan sonra yeni əməliyyat üçün hazırlıq işləri də görürük ki, maksimum nəticə, minimum itki olsun.

Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan əsgərləri bizim işğal edilmiş torpaqlarda ermənilərin qazdıqları səngərlərdə keşik çəkirlər - onlar bizim yox, biz onların səngərlərində, biz onların postlarında, biz onların tanklarında. Qənimət kimi götürülmüş o hərbi texnikadan indi biz istifadə edirik - 18 tank. Onların tankları indi döyüş meydanında onlara qarşı vuruşur. Budur Azərbaycan Ordusunun üstünlüyü, bizim üstünlüyümüz. Bu gün açıq informasiya məkanında, internetdə göstərilir, necə dəqiq, sərrast atəşlərlə düşmənin canlı texnikası məhv edilir.

Düşmən panikadadır, düşmən isterikaya qapılıb. Düşmən ölkənin rəhbərliyi tamamilə özünü itirmiş vəziyyətdədir. Müxtəlif ölkələrə, müxtəlif ölkələrin dövlət-hökumət başçılarına müntəzəm olaraq zəng edir, dəfələrlə, gündə bir neçə dəfə yardım istəyir, imdad diləyir, yalvarır. Onların ayağının altına yıxılır. Özünü alçaldır ki, gəlin, bizi xilas edin. Onların xilasının yeganə yolu budur ki, torpaqlarımızdan çıxsınlar. Biz dəfələrlə bunu demişik, öz xoşunuzla çıxın bizim torpaqlarımızdan. BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirin, yoxsa, peşman olacaqsınız. Hesab edirsiniz ki, Azərbaycan bu vəziyyətlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm. Hesab edirdiniz ki, Azərbaycan xalqı bu təhqirlərlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm. Amma bizim torpaqlarımızda oturub, bizim müqəddəs torpağımızı zəhərləyib sonra da bizə qarşı iddia qaldırasan - qudurğanlığın dərəcəsinə baxın. Biz onları yerinə oturtduq. Biz onlara yerlərini göstərdik. Biz onları elə qovuruq ki, onlar bu sprinti heç vaxt yaddan çıxarmayacaqlar.

Bu gün bütün cəbhəboyu döyüşlər gedir. Azərbaycan bütün istiqamətlər üzrə mövqelərini möhkəmləndirir və biz işğalçını, təcavüzkarı sülhə məcbur edirik. Bu əməliyyatın əsas məqsədi də budur. Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik. Onlar bizim gücümüzü gördülər, bizim iradəmizi gördülər. Onlar gördülər ki, dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Kimə yalvarırsan yalvar, kimin ayağının altına yıxılırsan yıxıl, kimin dabanlarını yalayırsan yala, heç kim bizə təsir edə bilməz! Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!

Amma işğalçıya bəlkə də sonuncu dəfə şans veririk ki, çıxın bizim torpaqlarımızdan. Çıxın, öhdəlik götürün, danışıqlara qayıdın, danışıqların formatına qayıdın. Yoxsa, Ermənistanın baş naziri özünü nə hesab edir? Bizimlə bu tərzdə danışmaqmı olar? İndi biz ona yerini göstərdik. “Qarabağ Ermənistandır” deməklə Qarabağ heç vaxt Ermənistan olmayacaq. İndi görüm necə deyir “Qarabağ Ermənistandır”. Səsini belə çıxara bilmir.

İndi məcbur olub onların xarici işlər naziri Moskvaya danışıqlara gəlib. Gəlsin, orada desin “Qarabağ Ermənistandır”. Əgər belə bir şey desə, heç bir danışıqlardan söhbət gedə bilməz. Mən bunu demişəm, heç kim bizi məcbur edə bilməz. Deyirdi ki, biz kriminal “Dağlıq Qarabağ respublikası”nın quldur başçısı ilə danışıqlar aparmalıyıq. Biz heç vaxt buna razı ola bilmərik və bu heç vaxt olmayacaq. Ona görə dünən və srağagün siyasi müstəvidə baş vermiş hadisələr onu göstərir ki, Ermənistan rəhbərliyi, nəhayət, başından böyük zərbə alandan sonra dərk etməyə başladı ki, o, ancaq bizim şərtlərlə oturub duracaq. Biz nə desək, o da olacaq. Şans veririk ki, danışıqlar yolu ilə, sülh yolu ilə torpağımızdan çıxsın. Onsuz da biz bu torpaqlara qayıdacağıq. Onsuz da biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bütün dünya bunu gördü, o cümlədən Ermənistan bunu gördü. Biz istəyirik ki, qan tökülməsin. Biz istəyirik ki, şəhidlər olmasın. Biz öz torpaqlarımızı istəyirik. Çıxın gedin bizim torpağımızdan, rədd olun bizim torpağımızdan! Gedin öz ölkənizdə yaşayın. Amma biz torpağımızı geri alacağıq. Ona görə bu tarixi şansı onlar qaçırmamalıdır.

Bu gün Moskvada keçiriləcək görüş, hesab edirəm ki, bir çox şeylərə aydınlıq gətirəcək. Onlar baza prinsiplərini qəbul etməlidirlər. Halbuki Paşinyan demişdi ki, o, onları qəbul etmir. Demişdi ki, Azərbaycana bir qarış torpaq verməyəcəyəm. Nə oldu bəs?! Gəl, tut o işğal edilmiş torpaqları. Bəs, verməyəcəkdin? Nə oldu verdin? Nə oldu qaçdın? İndi gedirsən onun-bunun dabanını yalaya-yalaya, özünü alçalda-alçalda öz xalqını alçaldırsan. Öz ölkəni sıfıra bərabər etmisən. Demişdi ki, verməyəcəkdi bu torpaqları. Kimdir səndən soruşan, verəcəksən, ya verməyəcəksən?! Gəldik götürdük, vəssalam. Götürəcəyik, nə qədər lazımdır, istəsək artıqlaması ilə. Necə ki, iyul ayında götürə bilərdik. Mən bunu demişdim. İyul ayında biz rahatlıqla Ermənistan ərazisinə keçə bilərdik, orada da torpaqları zəbt edə bilərdik. Heç kim bizim qabağımızı ala bilməzdi. Bu döyüşlər onu göstərir. Eləmədik bunu, qoymadım mən. Halbuki bizim hərbçilərimiz artıq hazır idi buna. Qoymadım. Çünki siyasi iradə var. Biz qanunlar çərçivəsində fəaliyyət göstəririk. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verməyəcəyik. Bəs, nə oldu, Paşinyan? Deyirdin ki, “Dağlıq Qarabağ respublikası” o cümlədən işğal edilmiş bütün torpaqları əhatə edir. Bəs, gəl müdafiə et bunları. Niyə qaçırsan Moskvaya? Niyə zəng vurursan, dünya liderlərinin beynini xarab edirsən? Daha kim qaldı ki, zəng etməsin. Kim qaldı ki, zəhləsini tökməsin. Bir məsləhət verərdim ki, bəlkə şamanlara zəng etsin. Onlar ona kömək etsin. Ya da ki, hansısa uzaq adada yaşayan bir qəbilə başçısına zəng etsin, o, onun canını qurtarsın. Necə deyərlər, lətifə personajına çevrilib. Açın, sosial şəbəkələrə baxın, lağa qoyurlar, ələ salırlar, lətifələr qoşurlar. Öz ölkəsini bu qədər rəzil edən, bəlkə də dünya miqyasında ikinci adam olmayıb. Nəyə görə? Çünki gəlib başqasının torpağında oturub, o torpaqdan çıxa bilmir.

Ona görə mən Azərbaycan xalqına üz tutub deyirəm, biz torpaqlarımızı geri alacağıq. Mən xatırlayıram, Dağlıq Qarabağda qanunsuz oturan və oradan çıxarılacaq dəstə başçısı Şuşa şəhərində özünə “andiçmə” mərasimi keçirmişdir. O vaxt bu Azərbaycan cəmiyyətində böyük rezonans yaratdı, yəni çox böyük təsir etdi. Biz bunu təhqir kimi qəbul etdik - biz hamımız, istisnasız. Yadımdadır, mənə də çağırışlar olmuşdur ki, biz buna imkan verməməliyik, biz oranı bombalamalıyıq, oranı dağıtmalıyıq. Əlbəttə ki, mən buna gedə bilməzdim. Çünki bizim müharibəmiz mülki vətəndaşlarla deyil. Ermənistandan fərqli olaraq, biz mülki vətəndaşları atəşə tutmuruq. Ancaq biz bunu unutmamışıq. İndi getsin onun and içdiyi mərasimin keçirildiyi binaya baxsın. Nə gündədir o!

Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində.

Bir məsələyə də toxunmaq istəyirəm. Azərbaycan xalqı da bunu vasitəçilərdən, bəzi beynəlxalq təşkilatların rəhbərlərindən dəfələrlə eşidib ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən isə demişdim ki, bu tezislə razı deyiləm və mən haqlı çıxdım, mən! Otuz ilə yaxındır danışıqlar aparılır. Bir məsələ yerindən tərpəndi? Bir santimetr torpaq bizə danışıqlar yolu ilə verildi? Təcavüzkarı məcbur etdilərmi ki, bizim torpağımızdan çıxsın, BMT Təhlükəsizik Şurasının qətnamələrini yerinə yetirsin? Yox. Bəs, bu məsələ indi necə həll olunur? Bu, hərbi yol deyilmi? Məhz hərbi yolla bu məsələ həll olunur. Hərbi, ondan sonra siyasi. Bu əməliyyat olmasaydı, biz təcavüzkara lazımi zərbələr endirməsəydik, onların dərsini verməsəydik, indi o qaçardımı Moskvaya danışıqlar aparmaq üçün?! Oturacaqdı özündən razı, deyəcəkdi ki, torpaqları vermirik. Biz məcbur etdik onları. Biz onları elə günə saldıq ki, indi gizlənməyə deşik axtarırlar, tapa bilmirlər. Oturublar, siçan kimi ağzına su alıb susurlar. Bəs, hanı sənin hikkən?! Hanı sənin təkəbbürün?! Hanı sənin “qəhrəmanlığın”?! Deyirdin “Qarabağ Ermənistandır”. Qarabağ Azərbaycandır. Bunu hamı bilməlidir, o cümlədən bu gün Ermənistanın başında oturanlar da bilməlidir. Mən onlara bir daha deyirəm, əgər Moskva danışıqlarından sonra yenə də saxtakarlıq edəcəklərsə, özləri peşman olacaqlar. Biz torpaqlarımızı geri alacağıq - sülh yolu ilə, ya da ki, müharibə yolu ilə. Birmənalı! Biz istəyirik ki, sülh yolu ilə bunu təşkil edək, sülh yolu ilə bunu alaq. Ermənistana axırıncı şans veririk, axırıncı şans! Heç kimə ümid bağlamasın. Heç kim onlara kömək etməyəcək. Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük. Şəhidlərimizin qanı yerdə qalmayıb. Mən dəfələrlə şəhid ailələrinin nümayəndələri ilə, şəhid valideynləri ilə görüşlərdə demişdim ki, biz onların qisasını alacağıq. Bizim şəhidlərimizin qanı yerdə qalmayacaq və qalmır. Biz qan istəmirik. Biz istəyirik torpaqlarımız bizə verilsin. Verilsin, uzatmasınlar məsələni. Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini. Özü də o bölgənin relyefi təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də 30 il ərzində orada beton istehkamlar qurulub. Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Yoxdur təmas xətti. İndi deyirlər yeni təmas xətti olacaq. Olmayacaq! Biz torpaqlarımızı geri alacağıq. Hansı təmas xəttindən söhbət gedə bilər?! Yoxdur bu, biz dağıtmışıq, biz etmişik, iradə göstərmişik, güc göstərmişik, xalqımızın iradəsinə arxalanmışıq və bu gün qələbə çalırıq. Tarixi qələbə çalırıq! Bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Gələcəkdə bu qələbələr davam edəcək. Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq. Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

# “Siz Paşinyandan soruşmalısınız onun əsgəri orada nə edir?”

## Prezident İlham Əliyev “Sky News” televiziya kanalına müsahibəsində jurnalisti ədalətli olmağa səslədi

*Əvvəli 1-ci səh.*



Onlar danışıqlardan bu prosesi sonsuz etmək üçün yalnız bir bəhanə kimi istifadə edirdilər. Başqa sözlə, onlar həmişə status-kvonu möhkəmləndirmək, status-kvonu dəyişməz olaraq saxlamaq və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və danışıqlar masasında olan və ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərə əsasən qaytarmalı olduqları torpaqları qaytarmamağı istəyirdilər. Buna görə ümid edirəm ki, Ermənistan döyüş meydanında bu acı məğlubiyyətlə üzləşəndən sonra onlar daha məntiqli olacaq və vasitəçilərin məsləhətlərinə qulaq asacaqlar, danışıqlar masasında səmimi olacaqlar. Danışıqlar münaqişənin siyasi həllinə və işğal olunmuş ərazilərin boşaldılmasına gətirib çıxarmalıdır.

**- Biz hansı ərazilərdən danışırıq? Biz, sadəcə, Dağlıq Qarabağdan danışırıq, yoxsa onların təhlükəsizlik zonası adlandırdıqları işğal olunmuş yeddi Azərbaycan rayonundan danışırıq? Çünki aydındır ki, Siz bu torpaqların hamısını geri ala bilməyəcəksiniz.**

- Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən tanınır. Bütün ölkələr Dağlıq Qarabağın da daxil olduğu Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistanın mövqeyi, əslində, yenə də bir bəhanə idi ki, onlar Dağlıq Qarabağın ətrafında olan bu yeddi rayonu özlərinin təhlükəsizlik zonası adlandıraraq onları işğal altında saxlamaq üçün bir bəhanə kimi istifadə edirdilər. Lakin bu günün toqquşmaları göstərir ki, müasir dünyada təhlükəsizlik zonası yoxdur. Müasir hərbi avadanlıq hətta uzun məsafələrə belə təhlükəsizliyi təmin etmir. Təhlükəsizlik siyasi yollarla təmin olunmalıdır. Buna görə biz həmişə deyirdik ki, siyasi həll bütün tərəflər üçün - azərbaycanlılar, ermənilər, ərazidə yaşayan digər millətlər üçün təhlükəsizlik qarantiyalarını təmin edəcək. Ermənistanın dəstəkləməkdən imtina etdiyi əsas prinsiplərdə torpaqların açıq-aydın necə geri qaytarılacağı göstərilir. Birinci mərhələdə Dağlıq Qarabağın cənub-şərq tərəfində yerləşən beş Azərbaycan rayonu, sonra Dağlıq Qarabağ və Ermənistan arasında yerləşən iki Azərbaycan rayonu qaytarılmalıdır. Sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıdırlar. Dağlıq Qarabağda 25 faiz azərbaycanlı əhali olub, onların da hüquqları təmin edilməlidir. Onlar yaşadıqları yerə - qədim Şuşa şəhərinə və digər yerlərə qayıdırlar və biz normal kommunikasiyaları bərpa edirik. Biz xalqlar arasında təmasları bərpa edirik. Mən əminəm ki, insanlar yavaş-yavaş barışacaqlar. Bu, vasitəçilərin planıdır və biz bunu dəstəkləyirik.

**- 25 faiz azərbaycanlı əhalinin Dağlıq Qarabağa qayıtmasına icazə verilsə, siz Dağlıq Qarabağın müstəqilliyini tanıyarsınız?**

- Xeyr. Heç vaxt. Bu məsələ heç vaxt danışıqlar masasında olmamışdır. Bizim mövqeyimiz çox aydın idi ki, Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaq. Çünki bu, bizim qədim torpağımızdır. Dağlıq Qarabağın tarixi indi yaxşı məlumdur. İkincisi, bu, Azərbaycanın tərkib hissəsidir və biz kiçik sayda olan insanlara nəyə görə müstəqillik verməliyik? Azərbaycan dünyadakı bütün ölkələr kimi multietnik ölkədir. Milli azlıqlar Azərbaycanda və dünyanın bir çox ölkələrində sülh və ləyaqət içində yaşayırlar. Milli azlıq olmaq o demək deyil ki, sizin ayrılmağa, separatizmə hüququnuz var. Separatizm beynəlxalq ictimaiyyət üçün böyük təhlükədir və dünyanın bütün ölkələri separatizmi qınayır. Bizə qarşı edilənlər Dağlıq Qarabağdakı ermənilərin separatizmi və Azərbaycana qarşı Ermənistan dövlətinin hərbi təcavüzü idi. Bu da bizim indi üzləşdiyimiz vəziyyətə gətirib çıxarıb. İşğal, bir milyon azərbaycanlı köçkün, azərbaycanlılara qarşı etnik təmizləmə, dağıdılmış şəhər və kəndlər. İndi biz ərazilərimizi azad etdikdə orada baş verənlərə dair videolar mövcuddur. Hər şey məhv edilib, sanki Stalinqraddır, İkinci Dünya müharibəsindən sonra Stalinqradın vəziyyətindən daha da pisdir.

**- Lakin Siz regionun paytaxtı olan Stepanakertə qarşı elə bunu edirsiniz. Siz bunu Şuşaya qarşı edirsiniz, hansı ki, dünən bir yox, iki dəfə atəşə tutulmuşdur. Oradakı kilsəyə iki dəfə zərbə vurulmuşdur və açıq-aydın idi ki, orada mülki şəxslər və jurnalistlər özlərinə sığınacaq tapmışdılar.**

- Birincisi, bu Ermənistan tərəfindən təxribat idi. Biz heç vaxt keçmişdə belə şeylər etməmişik. Bizdə Bakının mərkəzində erməni kilsəsi var. Siz buraya gələ və ya kimisə göndərə bilərsiniz....

**- Xeyr, xeyr. Ermənilər öz kilsələrini atəşə tutmazlar ki? Bu, necə ola bilər?**

- Bu, bizi belə tərzdə təqdim etmək üçün çox güman ki, onların təxribatıdır. Lakin mən sizə deyə bilərəm ki, onlar bizim şəhərləri atəşə tuturlar. Ermənistanın bombardmanı nəticəsində 31 nəfər mülki şəxsimizin öldüyünü bilirsinizmi? 170 yaralı var və mindən çox ev tamamilə dağıdılıb və ya onlara ziyan dəyib və bu da Ermənistanın bizim mülki şəxslərimizə qarşı hücumu nəticəsində olub. Onlar ballistik mərmilərdən istifadə edirlər. Ballistik mərmilərdən.

**-Lakin Siz bunu Dağlıq Qarabağda öz mərmilərinizlə edirsiniz. Sizin çox müasir dron texnologiyanız var ki, o, Sizə hədəf aldıqlarınızı dəqiqliklə görməyə imkan verir. Beləliklə, niyə görə mülki obyektlərə zərbə vurulur?**

-Xeyr, xeyr. Biz heç vaxt mülki şəxslərə hücum etmirik. Bizim Dağlıq Qarabağ ərazisində etdiklərimiz ondan ibarətdir ki, biz onların tanklarını, silahlarını, artilleriya sistemlərini hədəfə almışıq və həmçinin biz onların hərbi infrastrukturunu hədəf almışıq.

*Ardı 4-cü səh.*




# “Biz ərazi bütövlüyümüzü bərpa edirik və biz haqlıyıq”

## Prezident İlham Əliyevin “CNN International” televiziya kanalının “The Connect World” verilişində müsahibəsi yayımlanıb

*Əvvəli 1-ci səh.*

- Bəli, türk avadanlığı var. Türk qüvvələri yoxdur. Səmimi desəm, Ermənistan prezidentinin dünyaya mesaj ünvanlamaq üçün CNN vasitəsilə şayiə yaymaq məqsədilə bu imkandan istifadə etməsi məni təəssüfləndirir. Mən bunu başqa cür adlandıra bilmirəm, çünki sizin mənə təqdim etdiyiniz kimi, onun dedikləri, mən onun dediklərini görməmişəm, lakin mənim sizdən eşitdiklərim tamamilə yanlışdır, bu, yanlış informasiyadır. Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır” ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər. Mən həmçinin Ermənistanın prezidentinə 1990-cı illərin əvvəlində Ermənistan bizim torpaqları işğal etdikdə onun arxasında kimin durduğunu xatırlatmaq istəyirəm. Bizim torpaqlarımızı işğal etmək üçün onlara kimlərin kömək göstərdiyinə dair bizdə kifayət qədər sübut var. Buna görə Ermənistan tərəfindən “Azərbaycana kimsə kömək edir” demək tamamilə səhv və yanlış informasiyadır, biz bunu rədd edirik.

**- Siz dediniz ki, Azərbaycanda türk avadanlığı var, hansı növ türk avadanlığı var, cənab Prezident?**

- Silahlar, türk silahları. Təkcə türk silahları yox, rus, İsrail, Belarus, Ukrayna silahları və sair. Çünki bu gün bizdə hərbi texnikanın satınalma coğrafiyası daha da genişlənir və biz bunlara görə pul ödəyirik. Ermənistanın silahları necə və haradan əldə etməsinə nəzər salsanız görərsiniz ki, onlarda olan silahlara görə onlar ödəniş etmək imkanında deyillər. Çünki bu, milyardlarla dollardır və kasıb ölkə üçün bu, mümkünsüzdür. Onlar öz müttəfiqlərindən silahları pulsuz əldə edirlər, biz silahlara ödəniş edərək onları alırıq.

**- Yaxşı, icazənizlə Sizə bu sualı verim. Biz ən azından sizin bazalarınızın birində türk F-16 qırıcı təyyarəsinin olmasına dair peyk təsvirlərini görmüşük. Siz F-16 qırıcı təyyarələr almamısınız. Beləliklə, Azərbaycan üçün güclü dəstəyi nəzərdə tutan F-16 qırıcı təyyarələrin yerdə olması doğrudurmu?**

- Siz yerdə dedikdə mən sizinlə razıyam. F-16 qırıcı təyyarələri Azərbaycanda hərbi təlimlərdə iştirak etmək üçün gəlmişdi. Keçən il Azərbaycan və Türkiyənin birgə 10 hərbi təlimi olmuşdur. Türkiyə bizim müttəfiq ölkədir və burada hərbi təlimlərin, o cümlədən Hərbi Hava Qüvvələrinin iştirakı ilə hərbi təlimlərin keçirilməsi adət olunan haldır. Yeri gəlmişkən, bu il pandemiya səbəbindən bizdə yalnız iki hərbi təlim keçirilmişdir. Onlardan biri Ermənistanın bizə hücum etməsindən əvvəl baş vermişdir. Beləliklə, F-16 qırıcı təyyarələri yerdədir, onlar uçuş etmirlər, onlar heç bir şəkildə hər hansı bir döyüşdə iştirak etmirlər. Yeri gəlmişkən...

**- Siz F-16 qırıcı təyyarələrinin istifadə olunmamasını birmənalı şəkildə deyirsiniz?**

- Mən bunu birmənalı şəkildə deyirəm və hətta sizə bir erməni feyk xəbəri haqqında da söyləmək istəyirəm. Toqquşmaların ilk günlərində onlar türk F-16 qırıcı təyyarəsinin erməni Su-25 təyyarəsini vurduğunu demişdilər. Bu, feyk xəbərdir və bizi bunda günahlandıranlar indi bizdən üzr istəməlidirlər, çünki hər kəs bunun feyk xəbər olduğunu bilir. F-16 qırıcı təyyarələri buradadır, lakin onlar sizin də düzgün qeyd etdiyiniz kimi yerdədir.

**- Bu uzunmüddətli münaqişənin 1990-cı illərdən bəri həll yolunu axtaran ATƏT-in Minsk qrupuna Fransa, Amerika Birləşmiş Ştatları və Rusiya həmsədrlik edirlər. Fransanın xarici işlər naziri xüsusi olaraq xəbərdarlıq etmişdir ki, Türkiyənin Azərbaycanın arxasında durması bu münaqişənin beynəlxalq münaqişəyə çevrilməsini risk altına atır. Siz deyirsiniz ki, Türkiyə sizə dəstək göstərir, lakin bu dəstəyin münaqişənin daha da pisləşməsinə gətirib çıxaracağını deyən fransızlara sözünüz nədir?**

- Mən bununla razı deyiləm. Dediyim kimi, Türkiyə regionda və xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyətdə sabitləşdirici rol oynayır. Hər bir ölkənin tərəfdaşı və ya müttəfiqi ola bilər. Azərbaycan və Azərbaycan xalqı Türkiyə kimi tərəfdaşa, müttəfiqə və qardaş ölkəyə malik olmaqdan çox xoşbəxtdir. Biz Ermənistanın Fransanı özünə müttəfiq hesab etməsinə etiraz bildirmirik və Fransa hazırda Ermənistana ən çox dəstək göstərən ölkədir. Eyni zamanda biz görürük ki, müttəfiqlərin seçilməsi ölkələrin özündən asılıdır. Məsələn, Fransanın xarici işləri naziri Rusiyanın Ermənistana pulsuz silah verərək onu dəstəkləməsindən narahat deyil və o, bunun münaqişəni beynəlxalq bir münaqişəyə çevirəcəyini düşünmür. Lakin Türkiyə legitim, siyasi dəstəyini ifadə etdikdə bu, narahatçılıq yaradır. Səmimi desəm, bir NATO ölkəsinin digər NATO ölkəsinə qarşı belə hərəkət etməsini başa düşə bilmirəm. NATO-ya üzv ölkələr müttəfiq olmalıdırlar, lakin biz bunu görmürük.

**- Hazırda sizin yürütdüyünüz kampaniyanın məqsədlərini açıq şəkildə bəyan edə bilərsinizmi?**

- Bizim məqsədimiz xalqımızı, ölkəmizi və öz torpağımızda yaşamaq hüququmuzu müdafiə etməkdən ibarətdir. Sentyabrın 27-də Azərbaycanın hərbi mövqelərinə, şəhər və kəndlərimizə artilleriya atəşi açan Ermənistan olmuşdur. Toqquşmalar gedən günlərdə Ermənistan ordusu tərəfindən 31 nəfər mülki şəxs qətlə yetirilmişdir, demək olar ki, 200 nəfər yaralanmışdır, mindən çox ev dağıdılmış və ya onlara ciddi ziyan dəymişdir. Biz cavab verməli idik, özümüzü müdafiə etməli idik. Bizim cavabımız Ermənistan üçün çox həssas və ağrılı oldu. Onlar çox ciddi məğlubiyyət acısını yaşadılar, onlar bizdən qaçdılar, biz ərazimizin bir hissəsini azad etdik, biz işğaldan azad olunmuş ərazilərə milli bayrağımızı sancdıq. Biz ərazi bütövlüyümüzü bərpa edirik və biz haqlıyıq. Biz öz torpağımızda savaşırıq, Ermənistan digər ölkənin torpağında vuruşur.

**- Hərbçilər arasında nə qədər itkiniz var?**

- Hərbçilər arasında itkilərə gəldikdə, mən artıq bu barədə demişəm. Biz toqquşmaların aktiv fazası bitəndən sonra bu məlumatı açıqlayacağıq.

**- Siz bütün Dağlıq Qarabağı, mübahisə predmeti olan bütün torpaqları geri götürmək niyyətindəsiniz?**

- Biz Dağlıq Qarabağdan və sabiq Dağlıq Qarabağ muxtar vilayətini əhatə edən yeddi rayondan danışırıq. Çünki Ermənistan nəinki təkcə Dağlıq Qarabağı işğal edib və muxtar vilayətin əhalisinin 25 faizini təşkil edən bütün azərbaycanlıları oradan qovub, eyni zamanda əhalisinin sayı 700 min olan Azərbaycanın yeddi rayonunu işğal edib. Beləliklə, bizim əsas məqsədimiz bu əraziləri azad etmək və azərbaycanlı məcburi köçkünlərin geri qayıtmasına imkan yaratmaqdır. Dağlıq Qarabağa gəldikdə, biz hesab edirik ki, - bu, dəfələrlə rəsmi şəkildə bəyan olunmuşdur, - müharibə bitəndən, işğalçı qüvvələr çıxarıldıqdan sonra multietnik əhalisi olan istənilən digər ölkədə olduğu kimi, Dağlıq Qarabağdakı ermənilər və azərbaycanlılar yan-yana yaşayacaq və əminəm ki, bir gün onlar bir-birinə yaxşı qonşu olacaqlar.

**- Ermənistan prezidenti sizin qoşunların Dağlıq Qarabağdan çıxarılması ilə bağlı vaxt cədvəlinin müəyyən olunmasına dair tələbinizin münaqişənizin “Dağlıq Qarabağ respublikası” ilə olduğu üçün onlara təqdim edilməli olduğunu mənə deyib. O təkid edir ki, Dağlıq Qarabağda ermənilərin min illər boyu yaşadığına görə əhalinin 95 faizi ermənilər olub. Siz deyirsiniz ki, Qarabağ Azərbaycandır, lakin etnik ermənilərin qorxularına dair nə deyə bilərsiniz?**

- Əvvəla...

**- Bir dəqiqə cənab, Azərbaycan hökuməti torpaqları geri götürsə, onlar etnik təmizləməyə məruz qala bilərlər.**

- Mən başa düşürəm. Bu gün Azərbaycanda minlərlə erməni ölkəmizin müxtəlif şəhərlərində, əsasən paytaxt Bakıda yaşayır. Bizim ikinci ən böyük şəhərimiz olan Gəncəyə hücum üçün ermənilərin istifadə etdiyi uzunməsafəli dağıdıcı mərmilərdən biri olan “Smerç” erməni qadının evinə düşüb. Beləliklə, bu gün Azərbaycanda sülh və ləyaqət içində yaşayan minlərlə erməni var. Lakin bütün azərbaycanlılar Ermənistandan qovulmuşdur. Ermənistan əhalisi 99 faiz ermənilərdən ibarətdir. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Erməni prezidenti yenə də yalan deyir. Bu gün Dağlıq Qarabağda əhalinin 95 faizi ermənilər deyil, əhalinin 100 faizi ermənilərdir. Çünki orada yaşayan 25 faiz azərbaycanlı əhali Ermənistan rejimi tərəfindən etnik təmizlənməyə məruz qalmışdır.

Mən təəssüf edirəm ki, belə mühüm vəzifə tutan şəxs yalanlar yayır. İnternetə baxın. XIX əsrin əvvəlində Azərbaycanın Qarabağ xanı ilə rus generalı arasında imzalanmış Kürəkçay sülh müqaviləsinə baxın. Erməni əhalisi haqqında heç bir şey deyilmir. Erməni əhali bizim torpağımıza Rus-İran müharibələrindən sonra Rusiya imperiyası tərəfindən regionun dini tərkibini dəyişdirmək məqsədilə köçürülüb. Bu, tarixi faktdır. Ermənistan prezidentinin dedikləri isə feykdir, tamamilə feykdir.

**- Mən qeyd etməliyəm, Sizin dediyinizə görə, Ermənistan prezidenti yalan və feyk məlumatlar yayır, o, Azərbaycanın və Sizin haqqınızda eyni şeyləri deyib.**

- İnternetə baxın, sənədlərə baxın. Siz kimin doğru danışdığını və kimin yalan danışdığını görəcəksiniz.

**- Mən deməliyəm, hazırda hər bir tərəf bir-birini təhqir edir. Azərbaycan beynəlxalq vasitəçiliyi necə qəbul edərdi və hərbi əməliyyatı dayandırardı? Sizin bu barədə son sözünüz nədir?**

- Bizdə 28 ildir ki, beynəlxalq vasitəçilik var. ATƏT-in Minsk qrupu 1992-ci ildən bu yana 28 ildir ki, faktiki olaraq passiv formada “fəaliyyət” göstərir. Bu vasitəçilik heç nəyə gətirib çıxarmadı. Bu vasitəçilik bu gün baş verənlərə gətirib çıxardı. Bu vasitəçilik Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli olmadı.

**- Siz bununla bağlı Vaşinqtonla təmasda olmusunuzmu? Tramp administrasiyası Sizə nə deyir? Əlbəttə ki, ABŞ Minsk qrupunun həmsədrlərindən biridir.**

- Bizim ABŞ-la çoxşaxəli münasibətlərimiz var. Münasibətlərimiz bir çox sahələrdə çox uğurla inkişaf edir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə gəlincə, Minsk qrupunun həmsədri olan 3 ölkənin vasitəçilik etmək üçün eyni hüququ və eyni məsuliyyəti var. Bu ölkələrdən nümayəndələr gələndə, onlar hamısı birlikdə gəlir, 3 ölkənin nümayəndələri. Ona görə də onların fəaliyyətində heç bir fərq yoxdur. Lakin sözsüz ki, biz başa düşürük, bəzi ölkələr daha çox ermənipərəstdir, bəzi ölkələr hətta həddindən çox ermənipərəstdir.

**- Sizdən soruşa bilərəm, siz Vaşinqtonda kiminlə danışırsınız? Dövlət Departamenti, yoxsa Tramp administrasiyası ilə? Məsələn, Ermənistan prezidenti bizə Robert Obraynla danışdıqlarını söylədi.**

- Düşünürəm ki, bu günlər ərzində Ermənistanın baş nazirinin danışmadığı yeganə insan hansısa uzaq adada qəbilə başçısıdır. O, hər kəsə zəng edib. O, Prezident Putinə 5 dəfə zəng edib. O, Prezident Makrona, bilmirəm, deyəsən 4 dəfə zəng edib. Kansler Merkelə zəng edib. Yalnız qəbilə başçısı qalıb. Mən ona məsləhət görürəm ona zəng edib Azərbaycandan şikayət etsin ki, o, Azərbaycanın dağıtdığı yazıq, zavallı Ermənistana kömək etmək üçün öz qəbiləsindən bəzi adamları göndərsin.

**- Sual bu deyildi, cənab. Sual belə idi ki, Siz Vaşinqtonda kiminlə danışırsınız? Dövlət Departamenti, yaxud Tramp administrasiyası ilə?**

- Biz administrasiya ilə danışırıq. Biz Dövlət Departamenti ilə danışırıq. Əslində, onlar bizimlə əlaqə saxladılar. Mən Xarici İşlər Nazirliyimizə, Administrasiyama bizə zəng edən, mövqeyini ifadə etmək istəyən və necə irəliləməklə bağlı fikirlərini ifadə edən hər kəslə təmasda olmaları üçün göstərişlər vermişəm. Lakin faktiki olaraq bunun Dövlət Departamenti və ya Ağ Ev olmasının heç fərqi yoxdur. Çünki bizim üçün bu, istənilən halda ABŞ administrasiyasıdır.

**- Sizin fikrinizcə, Vaşinqtonun mövqeyi necədir?**

- Vaşinqtonun mövqeyi digər həmsədrlərin mövqeyindən fərqlənmir. Onlar həllin əsaslanmalı olduğu prinsipləri dəstəkləyirlər. Bu prinsiplərin əleyhinə olan Ermənistandır. Həmin prinsiplərdə deyilir ki, Dağlıq Qarabağ ətrafındakı ərazilər vaxtında Azərbaycana qaytarılmalıdır. Siz mənim qrafiklə bağlı bəyanatıma istinad edəndə, sənədlərdə olan məhz budur. Bunu mən icad etməmişəm. Qarşı çıxan Ermənistandır.

**- Gəlin, onda Rusiyanın mövqeyinə nəzər salaq. Çünki indi müzakirə etdiklərimizdən Vaşinqtonun mövqeyinin necə olması mənim üçün aydın olmadı. Gəlin, Rusiyanın mövqeyinə nəzər salaq. Kremlin sözçüsü Dmitri Peskov dedi ki, “Biz regiondakı vəziyyətdən çox narahatıq. Hesab edirik ki, tərəflər atəşi dayandırmalı və danışıqlar masasına gəlməlidirlər”. Onlar sizin danışıqlar masasına oturmağınızı xahiş edirlər. Rusiya Prezidenti döyüşü faciə adlandırdı. Bildiyimə görə, çərşənbə günü Siz Vladimir Putinlə şəxsən danışdınız. O, Sizə nə dedi? Rusiya üçün burada qırmızı xətt haradadır?**

- Mən Prezident Putinə oktyabrın 7-də onu ad günü münasibətilə təbrik etmək üçün zəng etdim. Mən bunu hər il edirəm. Eləcə də o. Hər il biz bir-birimizi ad günü münasibətilə təbrik edirik. Onun ad gününün bu hadisələrlə üst-üstə düşməyi bir təsadüf idi. Ona görə də, əlbəttə ki, biz bu məsələni müzakirə etdik və bizim mətbuat xidmətimiz bununla bağlı press-reliz yayıb. Düşünürəm ki, mənim mətbuatda açıqlanandan daha çox nə isə deməyim doğru olmaz.

**- Kaş ki, deyərdiniz. Siz Moskvanın sülh danışıqları üçün müraciətini səciyyələndirməyə hazırsınızmı?**

- Biz sülh danışıqlarının tərəfdarıyıq. İcazə versəniz, sizə cəmi iki misal gətirərdim. Azərbaycan danışıqlar masasında konstruktiv tərəfdaşdır. Biz düşünürük ki, ABŞ, Rusiya və Fransa tərəfindən işlənib hazırlanmış prinsiplər həll üçün əsas olmalıdır. Ermənistan prezidenti bunları rədd edir. Üzr istəyirəm, Ermənistanın baş naziri bunları rədd edir. Çünki Ermənistanda hakimiyyətdə olan və mənim danışıqlar apardığım şəxs prezident deyil, baş nazirdir. Beləliklə, o dedi ki, “Qarabağ Ermənistandır”. Bu, danışıqları mənasız edir. Siz necə “Qarabağ Ermənistandır” deyə və əraziləri geri qaytarmaqla bağlı danışıqlar apara bilərsiniz? O dedi ki, Azərbaycan Ermənistanla deyil, Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu, formatın dəyişməsidir. Əgər Ermənistanın baş naziri uçduğu göylərdən yerə qayıtsa, biz danışıqlara hazırıq.

**- Başa düşdüyüm qədərilə, Rusiyanın mövqeyi belə deyil. Onlar deyir hər iki tərəf atəşi dayandırmalı və danışıqlar masasına gəlməlidir.**

- Atəşi başlayan ilk olaraq dayanmalıdır və biz də danışıqlar masasına qayıtmaq üçün eynisini edərik. Paşinyan rejimi danışıqları pozmaq üçün əlindən gələni etdi. Onlar bu bəyanatı verdilər, onlar iyulda bizə hücum etdilər, avqustda bizə hücum etdilər, sentyabrda bizə hücum etdilər. Onlar danışıqları pozmaq üçün hər şeyi edir. Biz hazırıq, onlar isə yox.

**- Əgər Siz dayanmasanız və onlar dayanmasa, sonra nə olacaq? Bu, bir çoxlarının daha genişmiqyaslı regional müharibəyə çevriləcəyi ilə bağlı narahat olduğu münaqişəni haraya aparacaq?**

- O, daha da gərginləşməməlidir. Mən bütün ölkələri bu vəziyyətdən kənar qalmağa çağırmışam. Bu, bizim Ermənistanla ikitərəfli məsələmizdir. Vasitəçilər var, onların mandatı var. Onların mandatı yerdə müdaxilə etmək deyil. Onların mandatı həll yolunu tapmaq üçün şərait yaratmaqdır. Əminəm ki, onlar mandatları çərçivəsində davam edəcəklər. Ermənistanın bu münaqişəni beynəlmiləlləşdirmək cəhdi çox səmərəsiz, destruktiv və bir çox ölkələr üçün təhlükəlidir. Ermənistan başa düşməlidir ki, işğal əbədi olaraq davam edə bilməz. Status-kvo dəyişdirilməlidir. Yeri gəlmişkən, prezidentlər, Fransanın sabiq prezidentləri, ABŞ-ın sabiq prezidentləri və Rusiya Prezidenti hamısı vəzifədə olarkən bəyanat vermişdilər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Mən bunu dəstəkləyirəm, Ermənistan isə buna qarşı çıxır.

**- Mən “Amnesty International”ın yeni hesabatı ilə bağlı münasibətinizi öyrənmək istəyirəm. Hesabatda iddia edilir ki, onlar Azərbaycan qüvvələrinin İsrail istehsalı olan M095 DPICM kasetli mərmiləri atdığını müəyyən ediblər. CNN nə bu iddiaları, nə də partlayışların videosunu müstəqil olaraq yoxlaya bilməz. “Amnesty”nin iddialarına necə cavab verərdiniz?**

- Mən deyərdim ki, ermənipərəst və anti-Azərbaycan mövqeyinə görə sizin adını çəkdiyiniz təşkilatla bizim heç bir təmasımız yoxdur. Birincisi, bu, səhvdir, yanlışdır. İkincisi, mən onlara tövsiyə edərdim ki, kasetli bombaların bizim mülki şəxslərimizə qarşı necə istifadə olunduğuna baxsınlar. Onların “Smerç”dən, “Elbrus”dan, “Toçka U”dan, ballistik raketlərdən bizim şəhərlərimizə qarşı necə istifadə etdiyinə baxsınlar - Gəncə, Goranboy, Naftalan, Yevlax və digər şəhərlər Ermənistanın bombardmanı altındadır. Niyə “Amnesty International” yalnız bir tərəfi görür və ya görmək istəyir? Niyə onlar digər tərəfi görmürlər? Sual budur.

**- İcazə verin, bununla bağlı deyim. Siz qəti şəkildə deyirsiniz ki, kasetli silahlar Azərbaycan qüvvələri tərəfindən istifadə olunmayıb? Əgər belədirsə, müstəqil müşahidəçilərin bunu yoxlamasına icazə verməyə hazırsınızmı?**

- Bəli, biz bunu etməyə hazırıq. Biz, həmçinin Ermənistanın nə etdiklərini görmək üçün Ermənistanın müstəqil müşahidəçilərə necə icazə verəcəyinə də baxmağa hazırıq. Bu, birtərəfli deyil, ikitərəfli qaydada olmalıdır. Biz özümüzü müdafiə edirik. Biz bunu etməliyik. Lakin bizim hədəflərimiz yalnız hərbi obyektlərdir. Biz məhv etdiklərimizin demək olar ki, hamısını çox müasir avadanlıqlardan istifadə etməklə məhv edirik. Siz bunu internetdə tapa bilərsiniz. Bu, Türkiyənin tamamilə yeni, mükəmməl, heyrətamiz qırıcı dronlarıdır, tankları, topları, hərbi mövqeləri məhv edən digər avadanlıqlarıdır. Məqsədimizə çatmaq üçün bizim dediyiniz silahlardan istifadə etməyə ehtiyacımız yoxdur. Bizim hədəfimiz mülki şəxslər deyil. Bizim hədəfimiz işğalçılardır. Biz torpağımızı kimə məxsusdursa, onlara qaytarmalıyıq.

**- Beləliklə, sözlərə əlavə ediləsi bir şey yoxdur. Mən Sizdən konkret olaraq soruşuram. Siz kasetli silahların Azərbaycan qüvvələri tərəfindən istifadə olunduğunu qəti şəkildə inkar edirsiniz, elədirmi?**

- Bəli, mən bunu inkar edirəm. Mən sizdən soruşmaq istəyirəm. Siz bu sualı Ermənistan prezidentinə vermisinizmi?

**- Həmin vaxt bizdə belə məlumat yox idi.**

- Məsələ də elə bundadır. Məsələ də elə bundadır ki, siz məndən soruşursunuz. Ondan soruşun. Soruşun ondan. Qoy “Amnesty International” ondan nə etdiklərini soruşsun.

**- Biz mütləq ondan bəyanat verməsini xahiş edəcəyik. Mən Sizdən soruşuram.**

- Ondan soruşun, mən artıq cavab verdim. Artıq cavab verdim. Xeyr! Ondan soruşun.

**- Soruşaram. Təşəkkür edirəm, cənab.**

# Emmanuel Makron İlham Əliyevə zəng edib

**Oktyabrın 9-da Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyəti müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

# Ümumdünya Elm və İncəsənət Akademiyasının prezidenti və Baş icraçı direktoru Qarri Yakobsdan

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Ümumdünya Elm və İncəsənət Akademiyası Dağlıq Qarabağda hazırda baş verən hadisələri böyük narahatlıqla izləyir. Həlak olanlara rəhmət, yaralılara şəfa diləyirik. Biz akademiklər inanırıq ki, BMT-nin 75-ci ildönümündə hər kəs BMT Təhlükəsizlik Şurasının qətnamələrinə hörmət etməli və onlara uyğun davranmalıdır.

Son on il ərzində biz müttəfiqimiz olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə dialoq, tolerantlıq və anlaşmanın təşviq olunması istiqamətində sıx əməkdaşlıq etmişik. Ümid edirik ki, bu, dünyaya fayda verməyə davam edəcək.

*Hörmətlə,*

***Qarri YAKOBS,***
***Ümumdünya Elm və İncəsənət Akademiyasının prezidenti və Baş icraçı direktoru***

# Baş prokuror Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi hərbi cinayətlərlə əlaqədar həmkarlarına müraciət edib

Ermənistanın Azərbaycan Respublikasının mülki əhalisinə qarşı müxtəlif cinayətlər törətməsi və həmin cinayətlərdə xarici ölkələrdən gətirilmiş muzdluların iştirak etməsinə dair Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən mühüm sübutlar əldə olunub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, baş vermiş hadisələrlə əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən həmkarlarına həm birbaşa, həm də diplomatik kanallarla rəsmi müraciət edilib.

Bəyanatda bildirilir: “Məlum olduğu kimi, sentyabrın 27-dən etibarən təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi öz təxribatçı əməllərini davam etdirərək, Cenevrə Konvensiyaları və ümumilikdə beynəlxalq hüquqdan irəli gələn müvafiq öhdəliklərini kobud şəkildə pozmaqla dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri, hətta döyüş bölgələrindən kənarda yerləşən Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Abşeron və Xızı rayonlarını ağır silahlardan atəşə tutmaqda davam edir. Bu günədək Ermənistanın hərbi təcavüzü nəticəsində 3-ü uşaq, 9-u qadın olmaqla 31 mülki şəxs həlak olub, 164 mülki vətəndaş ağır yaralanıb, ümumilikdə, 1054 yaşayış evi, 142 mülki obyekt, 45 çoxmənzilli bina dağıdılıb. Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən erməni təcavüzünün qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə beynəlxalq humanitar hüquqa tam riayət etməklə səmərəli əks-hücum və adekvat cavab tədbirləri həyata keçirilməkdədir.

Azərbaycan Ordusunun təsirli cavab tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələri əhəmiyyətli sayda canlı qüvvə itkisi ilə üzləşdiyinə görə ölkənin hərbi-siyasi rəhbərliyinin çağırışı əsasında xarici ölkələrdə yaşayan erməni diasporu tərəfindən muzdluların Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı döyüşmək məqsədilə Dağlıq Qarabağa göndərilməsi təşkil olunur. Bu hərəkətlər beynəlxalq hüquq normalarına zidd olmaqla, eyni zamanda Azərbaycanın və xarici dövlətlərin qanunvericiliyinə əsasən cinayət hesab olunur və beynəlxalq təhlükəsizliyin pozulmasına şərait yaradan təhlükəli amildir.

Bildirirəm ki, artıq iki faktla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmış, hazırda istintaq əməliyyat tədbirləri davam etdirilməklə həmin şəxslərin vətəndaşı olduqları ölkələrin səlahiyyətli qurumlarına hüquqi yardım haqqında sorğular göndərilib.

Bundan başqa, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən ölkəmizin işğal olunmuş ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərə qarşı kəsərli cinayət-hüquqi tədbirlərinin tətbiqi davam etdirilir.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğu adından bir daha bəyan və xəbərdar edirəm ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi, silahlı qüvvələrinin, xaricdə fəaliyyət göstərən diaspora təşkilatlarının, habelə qondarma rejimin çağırışları əsasında Dağlıq Qarabağa gəlib döyüşlərdə iştirak edən muzdlulara, həmçinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslər barəsində beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi çərçivəsində kəsərli tədbirlərin görülməsi təmin ediləcək.

Bu cür qanunsuz əməllərin qarşısının alınması məqsədilə xarici dövlətlərin səlahiyyətli orqanlarını təsirli, preventiv və təxirəsalınmaz tədbirlərin görülməsinə qətiyyətlə çağırıram”.

# “Siz Paşinyandan soruşmalısınız onun əsgəri orada nə edir?”

## Prezident İlham Əliyev “Sky News” televiziya kanalına müsahibəsində jurnalisti ədalətli olmağa səslədi

*Əvvəli 2-ci səh.*

Bu hərbi infrastrukturun bəzən şəhər mərkəzində yerləşməsi bizim günahımız deyil. Lakin biz heç vaxt qəsdən mülki şəxsləri hədəf almamışıq. Bəli, bizim müasir silahlarımız var, lakin onların heç də hamısı müasir deyil. Bəzi səhvlər ola bilər. Ona görə bizim tərəfdən mülki şəxslərin qəsdən hədəf alınması heç vaxt baş verməmişdir. Əksinə, təmas xəttinə çox yaxın yerləşən Tərtər şəhəri bombardmana məruz qalır. Gündə şəhərə 2000 mərmi düşür. Demək olar ki, məhv edilib. Heç kim bunun haqqında danışmır. Ona görə xahiş edirəm ki, gəlin, bu məsələdə ədalətli olaq. Biz bunu başlamamışıq və bizim mülki şəxsləri hədəfə almağa ehtiyacımız yoxdur. Bizə ərazilərimiz lazımdır. Müharibə bitdikdən sonra yanbayan yaşayacağımız mülki şəxsləri niyə görə hədəfə alaq ki? Dağlıq Qarabağdakı erməni əsilli insanlar oradakı kriminal rejiminin girovlarıdır. Əminəm ki, müharibə bitdikdən sonra onlar bizimlə sülh və ləyaqət içində yanbayan yaşayacaqlar.

**- Siz qeyd etmisiniz ki, Ermənistanın öz qoşunlarını çıxarmasını görmək istəyirsiniz. Lakin Siz eyni zamanda onu da söyləmisiniz ki, orada sülhməramlıları qəbul etməyə hazır deyilsiniz. Onda Siz erməni həmkarlarınızı necə əmin edə bilərsiniz ki, bütün torpaqları geri götürməyəcəksiniz?**

- Siz mənə sülhməramlıları görmək istəmədiyimi nə vaxt söylədiyimi desəniz sizin sualınıza cavab verərəm. Amma mən bunu heç vaxt deməmişəm. Bu, yanlış informasiyadır, üzr istəyirəm. Mən heç vaxt deməmişəm...

**- Lakin Siz bu ərazidə sülhməramlıları qəbul etməyə hazırsınızmı?**

-Sülhməramlılar ATƏT-in Minsk qrupu tərəfindən münaqişənin həlli üçün işlənib hazırlanmış əsas prinsiplərdə təmin edilən ünsürlərdən biridir və sülhməramlılarla bağlı bənd var. Lakin biz bu bəndə çatmamışıq ki, onu lazımi şəkildə müzakirə edək, çünki tezdir. Çünki biz ilk olaraq əsas məsələni - işğalı, ərazilərin boşaldılmasını həll etməliyik və azərbaycanlılar oraya qayıdandan sonra əlbəttə ki, sülhməramlılar gəlməlidirlər. Bu, razılaşma çərçivəsindədir. Əgər bu, hər iki tərəfdən imzalansa, onda hər iki tərəf bu sülhməramlıların kim olacağını seçəcək. Beləliklə, biz buna qarşı deyilik. Lakin biz faktiki olaraq bu bəndlə bağlı danışıqların aktiv fazasında deyilik.

**- Sizin danışıqlarla bağlı şərtləriniz sonuncu genişmiqyaslı hərbi əməliyyatlar başlamamışdan əvvəl dəyişməz olaraq qaldığı kimi görünür. Mənə maraqlıdır, əgər danışıqlar əvvəllər heç vaxt uğurlu olmayıbsa nəyə görə silahlar indi işə düşüb?**

- Bilirsiniz, danışıqlar 1992-ci ildən aparılır. Həmin vaxtdan bəri sıfır irəliləyiş olub. Ermənistan həmişə danışıqları pozmaq üçün bəzi manipulyasiya alətlərindən istifadə edirdi. Bu il iyuldan başlayaraq onlar bizə qarşı 3 dəfə hərbi hücuma keçdilər. İyulda onlar Ermənistanla Azərbaycan arasındakı sərhəddə, Qarabağ regionundan uzaqda bizim mülki şəxslərimizə və hərbi mövqelərimizə hücum etdilər. Bu, 4 gün davam etdi, biz onları geri oturtduq. Onlar ərazi işğal edə bilmədilər və biz dayandıq, çünki bizim Ermənistan tərəfdə heç bir hərbi məqsədimiz yoxdur. Avqustun 23-də onlar terror aktı törətmək üçün diversiya qrupu göndərdilər, qrupun rəhbəri saxlanıldı və o, ifadə verir. Sentyabrın sonunda onlar bizim şəhərlərimizi artilleriya bombardmanına tutdular və günahsız insanları öldürdülər. Biz cavab verməli olduq. Biz onları geri oturtmalı idik və bunu da etdik. Ona görə də biz danışıqların tərəfdarıyıq. Mən sizə iki misal çəkə bilərəm. Ötən il Ermənistanın baş naziri elan etdi ki, “Qarabağ Ermənistandır”. Bu, nə deməkdir? Bu, son deməkdir.

**- Mən ondan bunun nə demək olduğunu soruşdum.**

- Nəyi nəzərdə tuturdu?

**- O dedi ki, bu, o deməkdir ki, IV əsrdən bu yana orada erməni kilsələri, erməni əhalisi olub. Sovet İttifaqı qurulandan Dağlıq Qarabağda etnik erməni əhali azərbaycanlılardan daha çox olub.**

- Bilirsiniz, o, yumşaq desək, həqiqəti söyləmir. O ərazidə ermənilərin məskunlaşması XVIII əsrin sonunda, XIX əsrin əvvəlində azərbaycanlı İbrahim xanla rus generalı tərəfindən imzalanmış Kürəkçay müqaviləsindən sonra başlayıb. Həmin müqavilə nəticəsində Qarabağ xanlığı Rusiyanın bir hissəsi oldu və Rusiya başladı...

**- Üzr istəyirəm.**

- Bu, məhz belə olub. Ermənilər Dağlıq Qarabağa belə gəliblər. Bu, cəmi iki əsrdən azdır. O, IV əsrdən danışır.

**- Siz bu əsrin əvvəlindən hakimiyyətdəsiniz və bu məsələ ilə bağlı heç bir irəliləyiş yoxdur. Erməniləri günahlandırmaq asandır, lakin Siz siyasi cəhətdən bunu həll edə bilmədiyiniz üçün əsgərlərinizin indi cəbhə xəttində öldüyünə görə şəxsən öz üzərinizə məsuliyyəti götürürsünüzmü?**

- Bizim əsgərlərimiz öz torpağımız uğrunda həlak olurlar. Bizim əsgərlərimiz tarixi və beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpağında həlak olurlar. Erməni əsgərlər hansı torpaqda ölürlər? Onlar Füzulidə ölürlər, Cəbrayılda ölürlər, onlar digər Azərbaycan ərazilərində ölürlər. Onların orada nə işləri var? Siz Paşinyandan soruşmalısınız onun əsgəri orada nə edir? Qondarma “Dağlıq Qarabağ ordusu”nun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Onlar bizim torpağımızdadırlar. Xəritəyə baxmaq kifayətdir. Bizim üçün bu, Vətən müharibəsidir. Biz özümüzü müdafiə edirik. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik ki, bir milyon köçkünün geri qayıtmasına imkan yaradaq. Bizim etdiyimiz budur. Biz 28 il idi səbirlə inanırdıq ki, danışıqlar irəliləyişə gətirib çıxaracaq. Nəticədə hazırkı vəziyyət yarandı. Biz təcavüzkarı geri oturdub cəzalandıranda, bilirsiniz ki, siyasi cəhətdən hücuma məruz qaldıq. Mən əsas prinsipləri qəbul etdim, Paşinyan isə rədd etdi. Mən Ermənistanla Azərbaycan arasında olan danışıqların formatını qəbul edirəm. Paşinyan isə deyir ki, yox, Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu, təkcə mənim tərəfimdən deyil, Minsk qrupu tərəfindən də qəbuledilməzdir. Beləliklə, hazırda baş verənlərə görə onu günahlandırmaq lazımdır.

**- Fransızlar və ruslar deyirlər onlarda kəşfiyyat məlumatı var ki, Sizin cəbhə xəttində suriyalı muzdlulardan istifadə olunur. Siz bunu qəti şəkildə inkar edirsiniz?**

- Tamamilə qəti şəkildə. İndiyə kimi mənə bu kəşfiyyat məlumatını təsdiqləyən bir sənəd belə təqdim olunmayıb. Qoy onlar bu kəşfiyyat materialını mənə göstərsinlər. Bu ittihamlar səsləndiriləndən sonra bizim kəşfiyyat nümayəndələri təmaslar qurdular. Öz həmkarları ilə bu təmaslar zamanı heç bir dəlil təqdim olunmadı. Əgər dəlil varsa, niyə qəzetlərdə yoxdur, niyə sizin kanalınızda yoxdur? Bu dəlil haradadır? Göstərin onu mənə. Dəlil yoxdur. Bizim muzdlulara ehtiyacımız yoxdur. Bizim yaxşı hazırlanmış, yaxşı təlim keçmiş yüz min döyüşçümüz var. Bizim müasir avadanlığımız var. Bizim öz torpağımızı azad etmək üçün bütün lazımi hərbi komponentlərimiz var. Bizim etdiyimiz məhz budur. Bu, feyk xəbərdir.

**- Sonuncu sual. Siz bu mərhələdə danışıqlara yenidən başlamaq üçün masaya hansı xoşməramlı jestlə gələ bilərsiniz?**

- Biz artıq bunu etdik. Yeri gəlmişkən, kimin danışıqların əleyhinə olması ilə bağlı sizə bir söz də deyə bilərəm. Hələ bu müharibə başlamazdan əvvəl Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Minsk qrupunun həmsədrləri ilə görüşmək üçün Cenevrəyə dəvət olunmuşdular. Ermənistanın xarici işlər nazirinin oktyabrın əvvəlində səfər edəcəyi gözlənilirdi, bizim xarici işlər nazirinin oktyabrın 8-də səfər edəcəyi gözlənilirdi. Beləliklə, Ermənistanın xarici işlər naziri buna məhəl qoymadı, getmədi. Bizim xarici işlər naziri dünən Cenevrədə həmsədrlərlə görüş keçirdi. Biz Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında görüşün Rusiyada təşkil olunması ilə bağlı Rusiyadan təklif alanda razılaşdıq. Beləliklə, bizim xarici işlər naziri bir saat əvvəl Moskvaya çatıb. O, rusiyalı həmkarı ilə görüşəcək, mən proqramın necə olacağını, onun Ermənistanın naziri ilə görüşüb-görüşməyəcəyini bilmirəm, lakin o, oradadır. Biz sülh yolu ilə həll istəyirik, amma həll. Biz həll istəyirik, imitasiya yox, daha 30 il ərzində boş sözləri yox, praktiki addımları, vaxt cədvəlini, insanlarımızın evlərinə nə vaxt qayıdacağını, onlar üçün təhlükəsizlik zəmanətinin nədən ibarət olacağını və bizim necə barışacağımızı bilmək istəyirik. İki millət barışmalıdır. Biz qonşuyuq. Biz əbədi olaraq düşmənçilik şəraitində yaşaya bilmərik. Bu, dayandırılmalıdır. Lakin tarixi həqiqət və beynəlxalq hüquq əsasında dayandırılmalıdır.

**-Dağlıq Qarabağda fəaliyyət göstərən jurnalistlərlə bağlı sual. Sizin sözçünüz deyib ki, onlar Azərbaycan ərazilərində qanunsuz olduqlarına görə hədəf obyektləridir. Siz də belə hesab edirsiniz?**

- Bizim mövqeyimiz çox ədalətli və aydındır. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bizim mövqeyimiz ondan ibarətdir ki, əgər hər hansı əcnəbi vətəndaş, - təkcə jurnalist deyil, - Dağlıq Qarabağa səfər etmək istəyirsə, xahiş edirik bizə məlumat versin. Biz hər hansı xüsusi münasibət gözləmirik. Sadəcə olaraq, bizə məlumat verin ki, belə bir şəxs səfər etmək istəyir. Bizdə belə bir məlumat olanda, ərazi bütövlüyümüzə belə bir hörmət əlaməti olanda, biz heç vaxt etiraz etmirik. Bu prosedur olmadan oraya gedənlər Xarici İşlər Nazirliyimizin qara siyahısına salınır və onların Azərbaycana girişinə qadağa qoyulur. Əgər həmin adamlar bizim xarici işlər nazirinə məktub yazırlarsa ki, biz səhv etmişik və ya gələn dəfə sizə məlumat verəcəyik, biz onları qara siyahıdan çıxarırıq. Bu, ədalətlidir. Bizim ehtiyacımız olan yeganə şey hörmətdir. Ona görə də mən fürsətdən istifadə edərək hadisələri işıqlandırmaq üçün oraya səfər etmək istəyən jurnalistlərə mesaj vermək istərdim. Xahiş edirəm e-mail vasitəsilə bizim Xarici İşlər Nazirliyimizə məlumat verin və oraya gedin. Heç bir problem yoxdur.

**- Yəni Siz onları hədəfə almayacaqsınız?**

- Biz heç vaxt belə etmirik, heç vaxt. Niyə də etməliyik? Biz jurnalistlərin gəlməyində maraqlıyıq. Mən hər gün televiziyadayam, hər gün müsahibələr verirəm, çünki biz mövqeyimizi çatdırmaq istəyirik, gördüyümüz işi diqqətə çatdırmaq istəyirik. Biz təcavüzkar deyilik, biz təcavüzə məruz qalmışıq. Təcavüzkar Ermənistandır. Biz ərazilərin geri qaytarılmasını istəyirik. Bu qədər.

**- Prezident Əliyev, bu gün bizimlə söhbət etdiyinizə görə təşəkkür edirəm.**

- Çox sağ olun.

# *Sahibə QAFAROVA:* “Azərbaycanın münaqişəni həll etməyə qadir Silahlı Qüvvələri var və bunun üçün heç bir başqa qüvvə cəlb etmir”



**Milli Məclisin Sədri Sahibə Qafarova İsrailin ölkəmizdəki səfiri Corc Dik ilə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkələrimiz arasındakı münasibətlərin hazırkı səviyyəsinə toxunan Sədr Dağlıq Qarabağ münaqişəsində hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə İsrail dövlətinə təşəkkürünü bildirib. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və hərbi təxribatları barədə səfirə məlumat verən Sahibə Qafarova qeyd edib ki, Ermənistan silahlı qüvvələri iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi təxribatların ardınca, sentyabrın 27-də növbəti dəfə təmas xəttində yerləşən kəndlərimizə, hərbi mövqelərimizə hücum edib. Buna cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayıb və artıq işğal altındakı bəzi ərazilərimiz azad edilib.

Milli Məclisin Sədri bildirib ki, Ermənistan son günlər cəbhə xəttindən kənarda yerləşən şəhər və rayonlarımızı, mülki əhalini hədəfə alır. Bunun nəticəsində dinc insanlar arasında ölənlər və yaralananlar var. Həmçinin enerji infrastrukturuna və yaşayış binalarına ciddi ziyan dəyib, dağıntılar var. Bu, bir daha Ermənistandakı hərbi-siyasi rejimin cinayətkar mahiyyətini əks etdirir. Spiker qeyd edib ki, Ermənistan informasiya cəbhəsində də təxribat xarakterli məlumatlar yayaraq beynəlxalq ictimai rəyi çaşdırmağa çalışır. Sahibə Qafarova deyib ki, Azərbaycanın bu münaqişəni həll etməyə qadir Silahlı Qüvvələri var və bunun üçün heç bir başqa qüvvə cəlb etmir.

Parlamentlərarası münasibətlərin inkişafından danışan Milli Məclisin Sədri Sahibə Qafarova ölkələrimizin parlamentləri arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Spiker qeyd edib ki, bu baxımdan hər iki ölkənin parlamentində fəaliyyət göstərən dostluq qrupları mühüm rola malikdir.

Səmimi görüşə görə minnətdarlığını bildirən səfir Corc Dik Sahibə Qafarovanı Milli Məclisin Sədri kimi yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik edib. Ölkəmizdə qadınların ictimai-siyasi həyatdakı rolundan danışan səfir qeyd edib ki, Azərbaycan Şərqdə qadına seçki hüququ verən ilk ölkə kimi bu gün də qadınların həyatın müxtəlif sahələrində fəal təmsil olunmasına şərait yaradır.

Diplomat vurğulayıb ki, Azərbaycanda heç vaxt antisemitizm olmayıb və bu baxımdan digər ölkələrə nümunə ola bilər. Burada müxtəlif xalqlar, o cümlədən yəhudilər bərabərhüquqlu vətəndaşlar kimi yaşayırlar.

Ermənistan-Azərbaycan münaqişəsinə toxunan səfir ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında həllinə tərəfdar olduğunu diqqətə çatdırıb.

İkitərəfli əməkdaşlığın inkişafından danışan diplomat bildirib ki, ölkələrimizin pandemiyaya qarşı mübarizədə səhiyyə sahəsində də yaxından əməkdaşlıq etməsi təqdirəlayiqdir.

Görüşdə ölkələrimiz arasında müasir texnologiyalar, energetika və digər sahələr üzrə əməkdaşlıq barədə də fikir mübadiləsi aparılıb.

# Qoşulmama Hərəkatının virtual formatda nazirlər iclası keçirilib

Oktyabrın 9-da Qoşulmama Hərəkatının virtual formatda nazirlər iclası keçirilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Xarici İşlər nazirinin müavini Araz Əzimovun sədrliyi ilə keçirilmiş iclasda Qoşulmama Hərəkatına üzv dövlətlərin xarici işlər nazirləri, nazir müavinləri və BMT yanında daimi nümayəndələri iştirak ediblər.

İclasın əvvəlində Xarici İşlər naziri Ceyhun Bayramovun videobəyanatı səsləndirilib. Bəyanatda nazir Qoşulmama Hərəkatının əsasını təşkil edən Bandunq Prinsiplərinin qəbul edilməsindən keçən 65 il ərzində bu prinsiplərin beynəlxalq münasibətlərdə ədalətliliyi təşviq etdiyini, sülh və təhlükəsizliyə artan təhdidlər fonunda əhəmiyyətinin daha da artdığını qeyd edib.

Nazir Ermənistanın beynəlxalq hüququn prinsiplərinə və BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsinə zidd olaraq ölkəmizin ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlaması faktı və bu ərazilərin ilhaqı üçün apardığı qanunsuz fəaliyyətlər barədə məlumatları iclas iştirakçılarının diqqətinə çatdırıb.

Ermənistan silahlı qüvvələri tərəfindən 27 sentyabr 2020-ci il tarixindən başlayaraq Azərbaycana qarşı törədilən növbəti hərbi təcavüz və buna cavab olaraq Azərbaycan silahlı qüvvələri tərəfindən həyata keçirilən qətiyyətli əks-hücum tədbirləri barədə məlumat verən nazir Ermənistan tərəfindən Azərbaycanın silahlı qüvvələri ilə yanaşı, beynəlxalq humanitar hüquqa zidd olaraq mülki əhali və mülki obyektlərin də hədəf alındığını diqqətə çatdıraraq, hücum nəticəsində Azərbaycanın mülki şəxsləri arasında çoxsaylı itkilərin qeydə alındığını, mülki obyektlərə ciddi ziyan vurulduğunu qeyd edib.

Nazir Ermənistan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinin, o cümlədən mülki əhaliyə və mülki infrastruktura məqsədyönlü hücum etməklə beynəlxalq humanitar hüququn kobud şəkildə pozulduğu bir şəraitdə dünya ictimaiyyəti tərəfindən Azərbaycanla həmrəylik ifadə edilməsinin hər zamankından daha vacib olduğunu qeyd edib.

Daha sonra iclasın “Bütün cəbhəboyu Azərbaycan Respublikasının silahlı qüvvələrinin mövqeləri və mülki yaşayış məntəqələrinə qarşı Ermənistan Respublikası tərəfindən silahlı hücum” adlı bəndi altında Qoşulmama Hərəkatı üzv dövlətləri tərəfindən yekdilliklə Xüsusi Bəyannamə qəbul edilib.

Xüsusi Bəyannamədə Qoşulmama Hərəkatına üzv dövlətlər Ermənistan-Azərbaycan münaqişəsində mülki şəxslər arasında itkilərlə müşayiət olunan toqquşmaların bərpasından narahatlığı ifadə ediblər. Hərəkat üzvləri münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinə prinsipial dəstəklərini bir daha ifadə edərək, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəklərini vurğulayıblar. Üzv dövlətlər Hərəkatın prinsipial mövqeyi əsasında Azərbaycan Respublikası ilə həmrəyliklərini ifadə ediblər.

İclas zamanı Xarici İşlər nazirinin müavini Araz Əzimov Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrlik fəaliyyətinin birillik hesabatını təqdim edib. Daha sonra Bandunq Prinsiplərinin qəbul edilməsinin 65 illiyi ilə əlaqədar Qoşulmama Hərəkatının COVID-19 pandemiyası daxil olmaqla, hazırkı çağırışlara effektiv və birgə cavabları ətrafında müzakirələr aparılıb və iclasın Siyasi Bəyannaməsi qəbul edilib.

# Konstitusiya Məhkəməsi Palatasının iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 332.3-cü maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Prokurorluğunun sorğusuna baxılaraq Konstitusiya Məhkəməsi Plenumunun icraatına qəbul olunması haqqında qərardad çıxarılıb.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun oktyabrın 30-na təyin edilmiş iclasında baxılacaq.

# Qoşulmama Hərəkatından Azərbaycana ciddi dəstək

Qoşulmama Hərəkatının videokonfrans formatında keçirilmiş Nazirlər səviyyəsində görüşünün iştirakçıları xüsusi bəyanat qəbul ediblər.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda Hərəkatın üzv dövlətləri Ermənistan-Azərbaycan münaqişəsində hərbi əməliyyatların yenidən başlanmasını şiddətlə qınayır, insan itkisi və mülki əhaliyə təsirinə görə təəssüflənirlər.

Qoşulmama Hərəkatının nazirlər görüşü Ermənistan ilə Azərbaycan arasında münaqişənin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələri (S/RES/822, S/RES/853, S/RES/874, S/RES/884) əsasında həllinə dəstəyini bir daha təsdiqləyir.

Hərəkatın üzv dövlətləri Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə qəti dəstəyini ifadə edir və təşkilatın prinsipial mövqeyinə uyğun olaraq Azərbaycan ilə həmrəyliklərini bildirirlər.

Üzv dövlətlər həmçinin Birləşmiş Millətlər Təşkilatının Baş katibinin 2020-ci il 27 sentyabr tarixli müvafiq çağırışını nəzərə alıblar.

# Azərbaycan ilə BMT-nin Uşaq Fondu arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**Oktyabrın 9-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın BMT-nin Uşaq Fondunun (UNİCEF) Avropa və Orta Asiya üzrə (mənzil qərargahı Cenevrədə yerləşən) regional direktoru Əfşan Xan ilə onlayn formatda görüşü keçirilib.**



Dövlət Komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Komitə sədri Bahar Muradova Azərbaycan üçün vacib olan hazırkı dönəmdə bu görüşün təşkil edilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib. O bildirib ki, ölkəmizin UNICEF-in regional, eləcə də ölkə üzrə nümayəndəliyi ilə davamlı xarakter daşıyan əlaqələri hökumət, parlament, həm də cəmiyyət səviyyəsində çox faydalı olub. Ötən müddət ərzində aparılan müzakirələrdə koronavirus pandemiyasının yaratdığı çətinliklərin aradan qaldırılması, həssas təbəqələrdən olan uşaqların problemlərinin həlli ilə bağlı məsələlər ətrafında məsləhətləşmələr aparılıb və birgə fəaliyyətlərimiz davam etməkdədir.

B.Muradova hazırda ölkədəki hərbi-siyasi durum və Dağlıq Qarabağ məsələsi ətrafında yaranan vəziyyətlə əlaqədar çətinliklərin olduğunu və təmas xəttinə yaxın ərazilərdə yaşayan vətəndaşlarımızın, mülki əhalinin Ermənistan ordusu tərəfindən mütəmadi atəş altında saxlanıldığını, bu prosesdən daha çox uşaqların əziyyət çəkdiyini diqqətə çatdırıb. Qeyd edilib ki, erməni təxribatları nəticəsində bu günə qədər 31 mülki əhali həlak olub, onlardan 5-i uşaq, 5-i isə qadındır. Eyni zamanda 160 dinc sakin yaralanıb, 142 mülki obyekt, 1050 yaşayış evi yararsız vəziyyətə düşüb. Hazırda Azərbaycanda mülki vətəndaşların və ərazilərimizin artilleriya atəşinə tutulması davam etməkdədir. Torpaqlarımızın bir qismi işğaldan azad olunub, ancaq həmin məkanlardakı vəziyyət ürəkağrıdıcıdır. Belə ki, bu ərazilərdə indiyə qədər Azərbaycana məxsus olan bir tarixi abidə, bir tikili, bir ev, insan üçün yaşamağa imkan verən bir mülki infrastruktur belə qalmayıb.

Hazırda Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi uğrunda sülhə məcburetmə əməliyyatlarını davam etdirdiyini diqqətə çatdıran Komitə sədri bildirib ki, bizim əzmimiz işğal altında olan bütün torpaqlarımızın azad olunmasına yönəlib və biz bunun üçün çalışırıq. Lakin bu proses itkilər hesabına başa gəlir. Təmas xəttinə yaxın bir şəhər kimi təkcə Tərtəri misal gətirən B.Muradova vurğulayıb ki, sentyabr ayının 27-dən bu günədək şəhərə 12 minə qədər mərmi atılıb. Bu ərazilərdə məktəblər fəaliyyətini dayandırıb və uşaqlar bu müddətdə təhsildən kənar qalıblar.

Bu günə qədər 30 illik münaqişə tarixində beynəlxalq hüququn bütün prinsiplərinin və qəbul edilmiş bütün sənədlərin müddəalarının Ermənistan tərəfindən ciddi şəkildə pozulduğunu diqqətə çatdıran Komitə sədri Ermənistanın BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasının, eyni zamanda BMT-nin Təhlükəsizlik Şurasının “Silahlı münaqişələr zamanı uşaqların qorunması tədbirləri haqqında” Qətnaməsinin tələblərinə əməl etmədiyini deyib. O bildirib: “Müharibə hər iki tərəfə itkilər verir. Lakin biri var ədalətli, biri də var təcavüzkar tərəf. Bu gün Azərbaycan tərəfindən aparılan əməliyyatlar 30 illik müddətdə pozulmuş ədalətin geri qaytarılmasına, insanların haqqının, hüququnun qorunmasına, onların ilkin yaşadıqları məkana qaytarılmasına, qaçqın və məcburi köçkünlərin hüquqlarının bərpa edilməsinə yönəlib”.

Bahar Muradova həmçinin Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası və onun əsasında hazırlanan Milli Fəaliyyət Planı haqqında məlumat verərək bildirib ki, bu mühüm sənəd gündəlikdə duran əsas məsələlərdəndir və Komitə tərəfindən Fəaliyyət Planının həyata keçirilməsinin koordinasiya edilməsi işləri davam etdirilir.

Komitə nəzdində regionlarda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyətini qeyd edən B.Muradova bildirib ki, mərkəzlərin işi fövqəladə vəziyyətlərdə daha çox aktuallıq kəsb edir və bu durumda vahid uşaq müdafiə sisteminin yaradılması və onun çevik fəaliyyəti, eləcə də uşaqların vəziyyətinə dair bütün istiqamətlər üzrə monitorinqlərin aparılması prosesi sürətlə həyata keçiriləcək.

BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Orta Asiya üzrə regional direktoru Əfşan Xan Komitə sədri ilə səmimi görüşdən məmnunluğunu ifadə edib. O, münaqişə məsələsinə toxunaraq vəziyyətin daha da gərginləşməsini nəzərə alaraq UNICEF-in hər iki tərəfə rəsmi müraciət etdiyini bildirib və bütün tərəflərə beynəlxalq humanitar hüquq çərçivəsində mülki əhali və mülki infrastrukturla bağlı götürdükləri öhdəlikləri xatırladıb. Bildirib ki, hərbi münaqişələr zamanı mülki əhali hədəf seçilməməlidir. Heç bir hərbi münaqişə heç bir uşağın maraq və mənafeyinə cavab vermir. Əfşan Xan hərbi vəziyyətdən bilavasitə zərər çəkmiş əhaliyə psixo-sosioloji yardımın göstərilməsinin vacibliyini diqqətə çatdırıb.

O, eyni zamanda Uşaq Strategiyasının vacibliyini qeyd edərək, hökuməti bu münasibətlə təbrik edib. Ə.Xan həmin strategiyada və milli fəaliyyət planında öz əksini tapmış vəzifələrin yerinə yetirilməsi üçün dövlət vəsaitinin ayrılması, uşaqlarla bağlı müvafiq tədbirlərin görülməsi və aidiyyəti olan nazirliklərin bu işlərin həyata keçirilməsinə cəlb edilməsinin əhəmiyyətini qeyd edərək, UNICEF-in həm regional, həm də ölkə səviyyəsində daim yardım göstərməyə hazır olduğunu vurğulayıb.

Sonda Komitə sədri 30 il əvvəl Ermənistan və sovet qoşunlarının işğala məruz qoyduğu Füzuli bölgəsinə qayıtmaq imkanı əldə etdikdən sonra, birlikdə nəinki burada, həmçinin, Laçında, Kəlbəcərdə və digər bölgələrimizdə görüşmək imkanının olacağına və uzun illər münaqişədən əziyyət çəkən ailələrə, uşaqlara bu ərazilərdə yeni həyata qovuşmaq istiqamətində birgə dəstək göstəriləcəyinə ümid etdiyini bildirib.

Görüşdə həmçinin Komitə sədrinin müavini Aynur Sofiyeva iştirak edib.

# Xalq Orduya və Komandana güvənir, arxalanır



## “Biz hamımız Sizi dəstəkləyir, uzaqgörən siyasətinizə inanırıq”

**Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları xalqımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırıb. Bu, Azərbaycan vətəndaşlarının Prezident, Ali Baş Komandan İlham Əliyevə göndərdiyi təbrik və təşəkkür məktublarından da aydın görünür. Qeyd edək ki, Azərbaycan vətəndaşlarından əlavə, bir sıra xarici ölkələrdə yaşayan soydaşlarımız da dövlət başçısına belə məzmunlu məktublar ünvanlayırlar.**

**AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.**

Türkiyənin Ədirnə şəhərindən **Rəcəb Gürkan, Səlcuq Çakır, Mehmet Çapoğlu, Necameddin Attay** və **İsmayıl Dəmirxan** dövlətimizin başçısına yazırlar: “Cənab Ali Baş Komandan, Ədirnə Bələdiyyə Məclisindəki siyasi partiyaların qrup rəhbərləri kimi sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəsi və beynəlxalq hüququ pozaraq Azərbaycanın mülki yaşayış məntəqələrini və əsgərlərini ağır silahlarla hədəf alan hücumlarını qınayırıq.

Bu hücum və Tovuz hadisələri bir daha göstərdi ki, Ermənistan bölgədə daimi sülh və sabitliyin bərqərar olmasına ən böyük maneədir. Azərbaycanın beynəlxalq hüquqdan irəli gələn özünümüdafiə hüququ çərçivəsində xalqını qorumaq və ərazi bütövlüyünü bərpa etmək cəhdlərini dəstəkləyirik.

30 ildir ki, Qarabağ Ermənistanın işğalı altındadır. Biz də Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və ATƏT-in qərarlarına uyğun olaraq bu haqsız işğala sülh yolu ilə son qoyulmasının tərəfdarıyıq. Lakin görünən odur ki, Azərbaycanın sülh siyasəti birtərəflidir.

Beynəlxalq ictimaiyyəti uzun müddət Ermənistanın işğalından və hücumlardan əziyyət çəkən Azərbaycanın yanında olmağa dəvət edirik. Bu münasibətlə Bələdiyyə məclisimizdəki siyasi partiyalar olaraq, şəhid azərbaycanlı qardaşlarımıza rəhmət, qazilərimizə şəfa diləyir, millətimizin həmrəylik iradəsini bir daha vurğulayırıq”.

Tovuz sakini **Kamran Əliyev:** “Hörmətli cənab Prezident, göstərdiyiniz qətiyyət və cəsarətə, Azərbaycan xalqının yolunda fədakar əməyinizə görə Sizə dərin minnətdarlığımızı və sevgimizi bildiririk. Rəhbərlik etdiyiniz bir ölkədə yaşamağımızdan qürur duyuruq. Bilirik ki, indiki dövr Sizin üçün qayğılı vaxtdır, amma böyükdən kiçiyə hamımız, bütün vətəndaşlarımız Sizinlə bir olduğumuzu diqqətinizə çatdırmaq istəyirik.

Zəbt edilmiş torpaqlarımızın qaytarılmasını 30 ildir ki, gözləyirdik və indi şərəfli bir yoldayıq. Xalq bu mübarizədə sonadək Sizinlədir. İnşallah, qələbəmizi sona çatdıracağıq. Bütün dualarımız Sizinlə və qəhrəman əsgərlərimizlədir”.

Sumqayıt şəhərindən **Nadir İsmayılov** yazır: “Hörmətli cənab Prezident, mən keçən əsrin sonlarında erməni vəhşiliyinin törətdiyi hadisələrin canlı şahidiyəm. Torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə könüllü iştirak edərək bu vəhşiliyin qarşısının alınmasında əməyim olub. Yaralanıb əlil olsam da, işğal altındakı torpaqları geri qaytarmaq üçün düşmənlə yenidən vuruşmaq əmrini illərdi gözləmişəm və bu imkanı bizə verdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən buna çox sevinirəm, Allah Sizdən razı olsun. Hər an döyüşə getməyə hazır olduğumu Sizə bildirmək istəyirəm.

Cənab Ali Baş Komandan, göydə Allah, yerdə Sizin komandanlığınızla bizim mərd, igid övladlarımız, qardaşlarımız yaxın günlərdə Azərbaycanımızın üçrəngli bayrağını döyünən ürəyimiz olan Xankəndinin, Şuşanın ən hündür yerlərində dalğalandıracaqlar və Vətənimizin yağı düşməndən azad olub rahat və dərin nəfəs almasını görəcəyik. Çox sağ olun, cənab Prezident. Allah Sizə yar olsun”.

Astara sakini **Məmmədsəfa Cəbiyev:** “Möhtərəm cənab Prezident, Siz Azərbaycan tarixində heç bir zaman silinməyəcək tarix yazdınız. O tarix ki, o zirvəni Sizə qədər heç kim fəth etməmişdir. Məhz Sizin uzaqgörən siyasətiniz nəticəsində doğma torpaqlarımıza olan 30 illik həsrətimizə bu günlərdə son qoyulmaqdadır. Ata-baba yurdumuzun hər qarışını Şanlı Ordumuzun zəfərləri nəticəsində özümüzə qaytarır, illərdir işğal altında olan torpaqlarımızda milli bayrağımızı ucaldırıq. Bu tarixi məqamları göydə Allah, yerdə Siz bizə bəxş etdiniz, möhtərəm cənab Prezident. Siz həyatda ikən xalqımızın mənəvi atası adını qazandınız. Biz hamımız Sizin arxanızdayıq.

Yaşasın Azərbaycan Prezidenti!

Qarabağ Azərbaycandır!”

Qəbələdən **Məhəbbət Rüstəmova** yazır: “Möhtərəm cənab Prezident, doğma Azərbaycanın gözəl guşəsi olan Dağlıq Qarabağı və onun ətrafındakı rayonları zorla mənimsəyən mənfur düşmənin 30 ildir ki, işğalı altında olan torpaqlarımızın sülh yolu ilə qaytarılması üçün Siz əlinizdən gələni əsirgəmədiniz. Biz bunun canlı şahidləriyik. Lakin düşmənin fikri sülh deyil, müqəddəs torpaqlarımızı bizə unutdurmaq istəyi idi.

Sentyabrın 27-də ordumuzun əkshücuma keçməsi barədə əmrinizi böyük sevinclə qarşıladıq. Məktəbimizin şagirdləri belə orduya yazılmaq, könüllü vuruşmağa hazırdırlar.

Müharibə gedən bu günlərimizdə Siz Azərbaycan xalqının cəsarətli lideri olduğunuzu bir daha sübut etdiniz. Sizin kimi güclü, müdrik, böyük siyasətçi, öz xalqını sevən Prezidentimiz olduğuna görə biz Allahdan çox razıyıq. Ordumuzun əldə etdiyi nailiyyətlər Sizin apardığınız uzaqgörən daxili və xarici siyasətdən irəli gəlir. Azərbaycan xalqı Sizə arxalanır.

Allah Azərbaycan Prezidentini, Ordumuzu, xalqımızı qorusun. Amin.

Qarabağ Azərbaycandır!”.

Gəncə şəhərinin sakini **Ramil Əliyev:** “Cənab Ali Baş Komandan, Gəncə şəhər sakinləri, təhsil işçiləri Sizin apardığınız bu siyasət yolunu dəstəkləyir, hər zaman Sizə güvənirlər. Sizin və ordumuzun sayəsində, İnşallah, torpaqlarımızı azad edəcəyik. Biz buna inanırıq. Allah Sizi və ordumuzu qorusun. Hər zaman Sizinləyik. Qarabağ Azərbaycandır!”

Hacıqabul sakini **Mehman Əmiraslanovun** məktubunda deyilir: “Cənab Ali Baş Komandan, Azərbaycan torpaqlarının mənfur düşmənlərimizdən azad olunması yolunda uzun illər apardığınız xarici və daxili siyasətin nəticəsi olaraq atdığınız addımları bütün xalqımız kimi, bir təhsil işçisi olaraq mən də tam dəstəkləyirəm. Hamımızda dərin inam var ki, çox keçməz, ay-ulduzlu üçrəngli bayrağımız Sizin komandanlığınızla şanlı ordumuzun sayəsində xalqımızın yenilməzlik, məğrurluq simvolu olan Şuşada dalğalanar. Bir tarix müəllimi kimi şagirdlərimə bu günlərdə Sizin sayənizdə yazılan Azərbaycanın qəhrəmanlıq tarixi haqqında danışmağı, məlumat verməyi özüm üçün ən şərəfli iş hesab edirəm. Uğurlar, cənab Ali Baş Komandan. Qarabağ Azərbaycandır!”

Cəbrayıl sakini **Tərxan Xudiyev:** “Cənab Ali Baş Komandan, Sizin uğurlu siyasətiniz və qüdrətli Azərbaycan Ordusunun rəşadəti sayəsində 27 illik işğaldan azad olunan, 218 təsərrüfatı, 805 sakini olan Quycaq kəndinin əhalisi adından yazıram.

Quycaq kəndi Qarabağın gözəl bir guşəsində yerləşmiş və ənənələri olan bir kənddir. Erməni işğalına qədər orada 170 ev və 700 sakin olub. Quycaq kənd orta məktəbi 34 nəfər professor və elmlər namizədi yetişdirib. Birinci Qarabağ müharibəsində kəndimiz dörd şəhid verib. Bu gün də müzəffər Azərbaycan Ordusunun sıralarında onlarla quycaqlı gənc Vətən uğrunda döyüşlərdədir.

Cənab Prezident, bu illər ərzində Vətən həsrətinə dözə bilməyib dünyasını dəyişənlərin sayı çoxdur. Siz Quycaq kəndinin işğaldan azad olunduğunu elan etdiyiniz an bütün kənd sakinlərini xoşbəxt etdiniz. Həmin gün dünyadan köçmüş Quycaq sakinlərinin ruhları da şad oldu.

Cənab Ali Baş Komandan, bu gün ayaqda olan 805 nəfər Quycaq sakini Sizin Ordunuzdur. Ağsaqqalından körpəsinə kimi hər bir Quycaqlı Ulu Öndərin və Sizin heykəlinizi artıq çoxdan qəlblərində ucaltmışlar.

Biz hamımız hər an Sizin bir əmrinizlə Azərbaycan Ordusunun ön cərgələrində yerimizi tutmağa hazırıq. Quycaq camaatı iki hadisənin intizarındadır: Uca bayrağımızın Şuşada dalğalanmasının və cənab Ali Baş Komandanın müzəffər bir Ordu rəhbəri kimi Azərbaycanın Milli Qəhrəmanı elan edilməsinin”.

Qəbələ sakini **Reyhanə Qəribova:** “Cənab Ali Baş Komandan, son günlər ölkəmizdə baş verən hadisələr məni çox qürurlandırır. Sizin göstərişinizlə Ordumuz itirilmiş torpaqlarımızı işğaldan azad edərək xalqımıza qələbə sevinci bəxş edir. Bu münasibətlə Sizi və Azərbaycan xalqını təbrik edirəm.

Arzu edirəm ki, Şanlı Ordumuz mənfur düşmənin əlində olan bütün torpaqlarımızı geri qaytarsın, hər bir məcburi köçkün soydaşımız dədə-baba yurdlarına qayıtsınlar.

Cənab Prezident, biz hamımız Sizi dəstəkləyir, Sizin uzaqgörən siyasətinizə inanırıq. İnanırıq ki, ən yaxın zamanda qələbə sevincini xalqa məhz Siz çatdıracaqsınız. Allah Sizi və əsgərlərimizi qorusun!

Yaşasın Azərbaycan, yaşasın Qarabağ!

Qarabağ Azərbaycandır!”

Biləsuvar sakini **İlqar Quliyevin** məktubunda deyilir: “Cənab Ali Baş Komandan, biz Sizinlə fəxr edirik. Fəxr edirik ki, belə bir güclü Ordumuz var və hər gün yeni-yeni qalibiyyətlərə imza atır. Mənim qardaşım hazırda cəbhə xəttindədir. Özüm də könüllü gedib əsgər qardaşlarımla çiyin-çiyinə vuruşmaq şərəfinə nail olmaq istəyirəm.

Mənfur düşməni torpaqlarımızdan qovub çıxaracağımız, erməni faşistləri üzərində zəfər çalacağımız gün çox yaxındır. Bu zəfərin Sizin dilinizdən qürurla dünyaya elan ediləcəyi günü səbirsizliklə gözləyirik.

Ulu Tanrı Sizə, komandanlığınızla vuruşan mərd igidlərimizə yar olsun!”

Bakı şəhər sakini **Nuridə Babaşova:** “Hörmətli cənab Prezident, Sizi salamlayır və Azərbaycanımızın yaralı yeri olan Qarabağımızın bəzi hissələrinin işğaldan azad edilməsinə görə minnətdarlıq edirəm. Allah Sizi qorusun. Biz daim Sizə güvənmişik və bu güvənimiz heç zaman boşa getməmişdir.

Bir azərbaycanlı qadın kimi son damla qanıma qədər vuruşmağa belə hazıram. Qarabağ bizimdir, bizim olacaq! Şəhidlərin qanı yerdə qalmayacaq. Şəhidlərimizin ailələrinə başsağlığı verirəm, valideynlərinin əllərindən öpürəm. Övladlarını isə bağrıma basaraq, Azərbaycan xalqına qələbə arzulayıram”.

Abşeron rayonunun sakini **Turəxanım Qasımova:** “Zati-aliləri, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə 30 illik həsrətə son qoyulur. Azərbaycan öz dədə-baba torpaqlarına qovuşur. Sevincimizin həddi-hüdudu yoxdur!

Yeni Azərbaycan Partiyası yaradılanda onun sıralarına daxil olmuş, Ulu Öndər Heydər Əliyev Naxçıvandan Bakıya gəldiyi zaman onu hava limanında qarşılayan ilk partiya üzvlərindən biri olmuşam. Bizim xalq olaraq bəxtimiz onda gətirib ki, tarixin ən çətin sınağında Heydər Əliyev kimi dühanı Tanrı xilasımıza yetirdi. Siz isə onun böyük siyasətini davam etdirərək ölkəmizin firavanlığını, əzəli torpaqlara böyük qayıdışımızı təmin edirsiniz.

Dünya Azərbaycan dövlətinin öz sözünün, haqqının sahibi olduğunu gördü. Şükürlər olsun ki, bizlər də bu tarixi anın şahidinə çevrilə bildik.

Azərbaycan xalqı bu gün hamılıqla Sizin yanınızdadır. Tanrı xalqımızı qorusun.

Var olun, Ali Baş Komandan!”

Cəbrayıl sakini **Təranə Kərimova** yazır: “Hörmətli Ali Baş Komandan, bu günlər zəfər günüdür, biz şəhid analarının ürəyinə su səpilən gündür. İnanıram ki, şəhidlərimizin qisası alınacaq.

Mən şəhid Qəhrəmanov Ruhin Əşrəf oğlunun anasıyam, hazırda həyat yoldaşım və digər oğlum da döyüşlərdədi. Mən Sizə və qəhrəman əsgərlərimizə inanıram.

Tezliklə şanlı bayrağımızın Şuşada, Cıdır düzündə dalğalanacağına inanıram.

Bütün şəhid anaları adından Sizə və əsgərlərimizə minnətdaram. Allah Sizləri və əsgərlərimizi qorusun”.

Abşeron rayon sakini **Kəmalə Quluyeva:** “Hörmətli Prezident, mən Laçın rayonundan məcburi köçkünəm. Düşmən tapdağı altında olan doğma torpaqlarımız azad edildikcə qəlbim dağa dönür.

Allah Sizə cansağlığı versin, cənab Ali Baş Komandan. İnşallah, tezliklə qəhrəman əsgərlərimiz Azərbaycan bayrağını Laçında ucaldar. Mənim üçün bu, çox böyük sevinc olar.

Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!”

◆ **Milli maraqlar naminə əməkdaşlıq**

## Müxalifət indi Prezident İlham Əliyevin birmənalı olaraq yanındadır

### Qüdrət HƏSƏNQULİYEV: “Azərbaycanın milli maraqlarını ifadə edən bütün partiyaların təmsilçiləri Vətən müharibəsində Ali Baş Komandanın əsgərləridirlər”

**Torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsi Ordumuzun qələbələri ilə davam edir. Cəbhənin bütün istiqamətlərində işğal altındakı ərazilərimiz azad edilir. Bu savaş həm də göstərdi ki, Azərbaycanda möhkəm və sarsılmaz milli, o cümlədən siyasi həmrəylik var.**

**Milli Məclisin deputatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyevlə söhbətimiz də bu barədədir.**



#### Şanlı Ordumuz tarixi vəzifəsini uğurla yerinə yetirməkdədir

Qüdrət Həsənquliyevin sözlərinə görə, sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra cəbhə xəttində baş verənlər, Ordumuzun əks hərbi əməliyyatlara başlamasının səbəbi Azərbaycan torpaqlarının 30 ildən artıqdır işğal altında qalmasıdır.

BMT Təhlükəsizlik Şurasının hələ 1993-cü ildə qəbul etdiyi 4 qətnamədə Ermənistandan Azərbaycanın işğal olunmuş ərazilərini dərhal boşaltması tələb olunsa da, 27 ildir ki, bu, icra olunmur: “Təəssüf ki, nə beynəlxalq təşkilatlar, nə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişənin danışıqlar yolu ilə həllinə nail olmaq üçün yaradılmış ATƏT-in Minsk qrupu Ermənistana heç bir təzyiq göstərmir. Sanki Minsk qrupunun məqsədi işğalı davam etdirmək və zaman ötdükcə Azərbaycanı elə bir vəziyyətə gətirib çatdırmaqdır ki, bununla barışsın. Yəni respublikamızın başqa yolu qalmasın. Bu gün Azərbaycana çağırışlar edirlər ki, danışıqları davam etdirsin. Amma heç kim Ermənistandan işğalda saxladığı torpaqlardan çıxmasını tələb etmək istəmir.

Ona görə də Ermənistanın növbəti təxribatından sonra ordumuz əks-hücuma keçərək işğal altında olan ərazilərimizin azad edilməsi uğrunda savaşa başlayıb. Şanlı Ordumuz bu tarixi vəzifəsini uğurla yerinə yetirməkdədir. Davam edən döyüşlərdə Ermənistan ordusuna sarsıdıcı zərbələr vurulub, torpaqlarımızın bir qismi işğaldan azad edilib. Ermənistanın baş naziri döyüşlərin dayandırılmasına nail olmaq üçün zəng etmədiyi dövlət qalmayıb. Prezident İlham Əliyevin dediyi kimi, dövlət başçılarını da bezdirib”.

Qeyd olundu ki, Azərbaycanın qarşısında hərb meydanında duruş gətirə bilməyən Ermənistan faşist xislətinə sadiq qalaraq Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən şəhər və kəndlərini, mülki insanları atəşə tutur. Hərbi əməliyyatlar başlayandan Ermənistanın Gəncəni, Tərtəri, Ağdamı, Goranboyu və digər şəhər və rayonlarımızı atəşə tuması nəticəsində 30-dan artıq mülki azərbaycanlı həlak olub. Çox təəssüf ki, beynəlxalq təşkilatlar bunu da görməzdən gəlir, Ermənistanın müharibə cinayətləri törətməsinə göz yumurlar.

Lakin bu döyüşlərdə Azərbaycan Ermənistanı layiqincə cəzalandırır, işğalçıya tarixinin ən gözəl dərsini verir. Hesab edirəm ki, Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş şərtlər qəbul olunana qədər əməliyyatlar davam etdirilməli, Ermənistan işğal etdiyi bütün Azərbaycan ərazilərindən çıxarılmalıdır.

#### İşğalçı ilə ancaq bu şərtlərlə danışmaq lazımdır

Prezident İlham Əliyevin şərtləri barədə ətraflı danışan Qüdrət Həsənquliyev dedi ki, Paşinyan ötən il “Qarabağ Ermənistandır” deməklə ən böyük səhifə yol verdi. Ona görə cənab İlham Əliyev haqlı olaraq Paşinyandan bu ifadəyə görə xalqımızdan üzr istəməsini tələb edir. Eyni zamanda Paşinyan deməlidir ki, Qarabağ Ermənistan deyil. Daha sonra isə hansı qrafiklə işğalçı qüvvələri Qarabağdan çıxarmasına dair təminat verməlidir. Cənab İlham Əliyev bu şərtləri ilə tam haqlıdır, çünki işğalçı ilə ancaq bu cür, bu tonda, bu şərtlərlə danışmaq lazımdır.

Müsahibim onu da qeyd etdi ki, 30 ildən artıqdır ki, azərbaycanlılar doğma yurdlarından didərin, köçkün düşüblər: “Bu illərdə neçə-neçə insan yurd həsrəti ilə dünyadan köçüb. 30 ildə işğal altındakı torpaqlarımız talanıb, məhv edilib. Azad olunmuş torpaqlarımızda çəkilən kadrlardan görünür ki, şəhər və kəndlərimizi vəhşicəsinə viran qoyublar, evlərin daş-divarına qədər söküblər. Alman faşistlərinin etmədiyini erməni faşistləri ediblər. Bütün bunların qarşısında Prezident İlham Əliyevin Paşinyandan Azərbaycan xalqından üzr istəməyi tələb etməsi tamamilə normaldır. Bizim hüququmuz var ki, erməni faşizmi üzərində məhkəmə qurulması üçün bu ölkəni beynəlxalq məhkəməyə verək. Necə ki, alman faşizmi ilə bağlı Nürnberq məhkəməsi qurulmuşdu. Biz onlardan Azərbaycana vurduqları ziyana görə kompensasiya tələb etməliyik. Xüsusi hərbi tribunal yaradılmalı və Azərbaycanda müharibə cinayətlərinə yol vermiş bütün erməni cinayətkarlar layiqli cəzasını almalıdırlar”.

BAXCP sədri Fransa prezidenti E.Makronun ölkəsinin ATƏT-in Minsk qrupunun həmsədri kimi, mandatına zidd olan bəyanatları barədə də fikirlərini bildirdi. Dedi ki, həmin bəyanatlardan sonra Fransa Minsk qrupunun həmsədri olmaqla bağlı mənəvi haqqını tam itirdi: “Əslində Fransanın özü həmsədrlikdən imtina etməlidir. Hüquqda hansı hallarda hakimin özünün özünə etiraz etməsi məsələsi var. Əgər çəkişən tərəflərin birinə yaxınlığı varsa, hakim ədaləti təmin etmək üçün özünə etiraz etməlidir. Ermənistanı müdafiə edən Fransanın isə artıq vasitəçi olmaq haqqı itib. Makron açıq şəkildə ermənipərəst mövqedən çıxış etməklə nəinki özünə, Fransa dövlətinə də hörmət qoymadı. Bu baxımdan dövlət də gərək özünə hörmət qoysun, belə vəziyyətlərdə özünə etiraz etsin. Fransada güclü erməni diasporası var və onlar bir çox siyasətçiləri pul ilə ələ alırlar, bəzilərini seçkilərdə dəstək verəcəkləri ilə şirnikləndirirlər, bəzilərini isə şantaj edirlər. Bu baxımdan Makronun məqsədi əslində erməni diasporasının dəstəyini qazanmaqdır. Azərbaycan ictimaiyyəti bunu qətiyyətlə pisləyir və tələblərimizdən biri də o olmalıdır ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədrliyindən kənara çəkilməlidir”.

#### Ermənistanın münaqişəyə üçüncü tərəfi cəlb etmək niyyəti iflasa uğrayıb

Ermənistanın əsas məqsədlərindən biri üçüncü dövləti münaqişəyə cəlb etmək, o cümlədən KTMT-dən dəstək almaqdır. Bu barədə danışan Qüdrət Həsənquliyev dedi ki, Ermənistanın münaqişəyə üçüncü tərəfi cəlb etmək niyyəti iflasa uğrayıb: “Rusiya Ermənistanın hərbi müttəfiqi olsa da, onunla birlikdə KTMT-də təmsil olunsa da, ölkənin rəhbəri bildirdi ki, müharibə Azərbaycanın ərazisində gedir. Əslində Rusiya həm də Ermənistandan tələb etməlidir ki, beynəlxalq hüquqa riayət etsin. Bunu etməsə belə, ən azından Ermənistana açıq formada dəstək vermir və bəyan edir ki, döyüşlər Azərbaycan torpaqlarında gedir. Hazırda Rusiya Ermənistanın, Türkiyə isə Azərbaycanın yaxın hərbi müttəfiqidir. Münaqişə də bu dörd dövlətin iştirakı ilə həllini tapmalıdır”.

BAXCP sədri onu da qeyd etdi ki, hərbi əməliyyatlar başlamazdan öncə Ermənistanda ciddi siyasi gərginlik yaranıb. Xüsusən Qarabağdan olanlarla Paşinyan arasında ciddi böhran var: “Keçmiş prezidentlərə qarşı cinayət işlərinin başlanılması, ölkənin əsas müxalifət partiyalarından olan “Çiçəklənən Ermənistan”ın sədri Q.Tsarukyanın həbs olunması Ermənistandankı dərin siyasi problemlərin göstəricisidir. Məhz bu gərginliklər səbəbindən Azərbaycana qarşı hərbi təxribatların törədilməsinə başlanıldı. Sonuncu təxribat Q.Tsarukyanın həbs olunmasından iki gün sonra törədildi. Onun həbsi Ermənistanda çox ciddi etirazla qarşılandı. Digər tərəfdən Ermənistanda sosial-iqtisadi vəziyyət olduqca ağırdır. Koronavirusun qarşısının alınması üçün aparılan mübarizə tədbirləri heç bir nəticə vermir. Üstəlik Ermənistanın pandemiya səbəbindən iqtisadiyyatı çox geriləyib, vətəndaşlarının sosial rifahı əhəmiyyətli dərəcədə pisləşib. Azərbaycana qarşı yeni təxribatların törədilməsinin əsas səbəblərindən biri də məhz bu idi. Paşinyanın fikrincə, bütün bunlar Ermənistan cəmiyyətinin diqqətini mövcud problemlərdən yayındıra bilərdi”.

Azərbaycan isə dəfələrlə xəbərdarlıq etmişdi. Bu barədə danışan BAXCP sədri dedi ki, Prezident İlham Əliyev BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda, BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşdə Ermənistanın yeni hərbi planlar hazırlaması, bu məqsədlə cəbhəyə yeni qüvvələr cəmləməsi, o cümlədən könüllü hərbi qüvvələr yaratması barədə xəbərdarlıq etmişdi: “Hətta Paşinyanın arvadı da bu könüllü birliklərin yaradılması çərçivəsində Qarabağa gəlmiş, hərbi təlimdə iştirak etmiş, silahdan atəş açmışdı. Prezident İlham Əliyev çox doğru olaraq beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı ki, könüllü ordunun yaradılmasının tək məqsədi Azərbaycana hücum etməkdir. Təəssüf ki, dünya ictimaiyyəti bu təxribatları pisləmirdi. Paşinyan “Qarabağ Ermənistandır” bəyanatını verəndə, müdafiə naziri D.Tonoyan ABŞ-da “Yeni ərazilər üçün yeni müharibə” deyəndə, Tovuzda təxribat törədəndə, Livandan gətirilən erməniləri Qarabağda qanunsuz məskunlaşdıranda da beynəlxalq ictimaiyyət buna heç bir reaksiya vermədi. Bununla Ermənistan tərəfi faktiki olaraq danışıqlar prosesini dayandırdı. Nəticədə Azərbaycan son təxribatdan sonra torpaqlarını güc yolu işğaldan azad etmək qərarını verdi”.

#### Qardaş Türkiyə Azərbaycanın yanındadır

Qardaş Türkiyə dövlətinin bu günlərdə Azərbaycana göstərdiyi güclü dəstəklə də bağlı Qüdrət Həsənquliyevin fikirlərini öyrəndik. Onun sözlərinə görə, Türkiyə Prezidentinin, Xarici İşlər və Müdafiə nazirlərinin bu günlərdə Azərbaycanın haqq işini dəstəkləmələri ilə bağlı verdikləri bəyanatlar, açıqlamalar olduqca qürurvericidir. Son olaraq Xarici İşlər naziri Mövlud Çavuşoğlu ölkəmizə səfəri zamanı bəyan etdi ki, lazım gəlsə bir dövlət kimi davranacağıq. Bütün bunlar Azərbaycanın hərbi əməliyyatları daha mübariz şəkildə keçirməsi üçün vacibdir.

“Türkiyə və Azərbaycan qardaş dövlətlərdir. 1918-ci ildə Bakının işğaldan azad olunmasında türk ordusu yaxından iştirak etmişdi. Aradan bir əsr ötsə də, qardaş Türkiyə Azərbaycanın yanındadır. Bu dəfə ordusu ilə qatılmasa da, Türkiyə siyasi və mənəvi baxımdan Azərbaycana dəstəyini əsirgəmir, beynəlxalq miqyasda ölkəmizi müdafiə edir. Lakin Ermənistana kimsə gizli və ya açıq dəstək verəcəksə, Azərbaycanın haqqı var ki, Türkiyənin tam dəstəyindən yararlansın. Amma ümid edirəm ki, buna ehtiyac qalmayacaq. İranın Ali Rəhbəri Seyid Əli Xamneyinin Xarici siyasət üzrə müşaviri Əli Əkbər Vilayəti Dağlıq Qarabağın Azərbaycana məxsus olması barədə, o cümlədən Prezident Həsən Ruhaninin açıqlaması göstərir ki, İran dövləti problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini istəyir. Bu tipli bəyanatlar Azərbaycanın haqq işinin müdafiə olunmasına və problemin müsbət həllinə öz təsirini göstərə bilər”, - deyə Qüdrət Həsənquliyev bildirdi.

#### Partiyaların Prezidentə dəstəyi cəmiyyətimizin siyasi uğurudur

Xatırladaq ki, hələ sentyabrın 27-də Azərbaycanın 50 siyasi partiyası birgə bəyanat yayaraq Prezident İlham Əliyevə dəstək nümayiş etdirdilər. Bu barədə danışan BAXCP sədri dedi ki, bu, cəmiyyətimizin siyasi uğurudur: “Siyasi sahədə aparılan islahatların müsbət nəticəsi bu ərəfədə də özünü göstərdi, 50 siyasi partiya Ali Baş Komandanın ətrafında sıx birləşdi, hamısı eyni mövqedən çıxış etdi. Müxalifət indi Prezident İlham Əliyevin birmənalı olaraq yanındadır. Azərbaycanın milli maraqlarını ifadə edən bütün partiyaların təmsilçiləri Vətən müharibəsində Ali Baş Komanadanın əsgərləridirlər. Müxalifətin bu mövqeyi həm Azərbaycana qarşı olan beynəlxalq təzyiqlərin, həm də daxildə olan bəzilərinin pozuculuq fəaliyyətinin qarşısını alır. Bu baxımdan mən 50 siyasi partiyanın belə bir məqamda Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini çox yüksək qiymətləndirirəm. Bu milli birliyi, həmrəyliyi biz sona qədər davam etdirməliyik. İndi hamı torpaqlarımızın azadlığı haqqında düşünməlidir və çalışmalıdır ki, Qələbəyə öz töhfəsini versin”.

Qüdrət Həsənquliyev onu da bildirdi ki, siyasi partiyalar, o cümlədən BAXCP Birinci vitse-prezident Mehriban Əliyevanın çağırışına qoşularaq informasiya müharibəsində ölkəmizin haqlı mövqeyinin müdafiə olunması və beynəlxalq ictimaiyyətə çatdırılması işində yaxından iştirak edirlər: “Bizə qarşı Ermənistan və erməni lobbisi tərəfindən böyük savaş açılıb. Döyüş meydanında əsgərlərimiz vuruşur, amma informasiya müharibəsində hamı döyüşə bilər. BAXCP qoşulduğu Avropa Mühafizəkarlar və İslahatçılar Partiyasının bütün üzvlərinə, o cümlədən burada müşahidəçi qismində iştirak edən ABŞ-ın Respublikaçılar partiyasına, digər tərəfdaş partiyalara Ermənistanın işğalçılıq siyasəti barədə xüsusi məktublar göndərib. Məktublarda qeyd olunub ki, siz hüquqa önəm verən partiyalar və vicdanlı insanlar kimi Ermənistanın işğalçılıq siyasətini pisləməli və bir milyondan artıq azərbaycanlının öz doğma yurduna qayıtması üçün öz səsinizi ucaltmalısınız”.

Yekunda Vətən müharibəsinin Azərbaycanın Qələbəsi ilə başa çatacağını deyən Qüdrət Həsənquliyev bir daha vurğuladı ki, hər bir azərbaycanlı bacardığı qədər bu işə öz töhfəsini verməlidir.

***Müsahibəni yazdı: Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

# Hikmət HACIYEV: “Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzünə dini don geyindirilməsi qəbuledilməzdir”

“Ermənistan tərəfindən, guya, Azərbaycanın tarixi şəhəri olan Şuşada kilsəyə raketlə zərbə endirilməsi barədə xəbərlər yayılıb. Biz, bu xüsusda dünya xristianlarının həssas hisslərinə böyük hörmətlə yanaşırıq. Amma təəssüflə qeyd etməliyik ki, Ermənistan tərəfindən bu mövzuda manipulyasiya və dezinformasiya aparılır. Ermənistan tərəfindən kilsənin raketlə vurulması ilə əlaqədar təqdim olunan materiallar ziddiyyətlidir və aydın şəkildə yalanlar ortaya çıxır”.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: “Birincisi, Azərbaycan Ordusu tərəfindən kilsə və digər mülki təyinatlı obyektlər hədəfə alınmır. Həmin dövrdə Azərbaycan Silahlı Qüvvələri tərəfindən o istiqamətdə hər hansı atəş həyata keçirilməyib.

İkincisi, əgər raket zərbəsi olsaydı, kilsənin içərisindəki ikonalara ciddi zərər dəyərdi. Amma şəkillərdən görünür ki, ikonalara zərər yetirilməyib.

Üçüncüsü, Ermənistan ilk dəfə bu zərbənin, guya, F-16 təyyarəsindən endirildiyini, aviabomba olduğunu, sonra isə raket zərbəsi olduğunu iddia etməyə başladı. Azərbaycan Silahlı Qüvvələrinin inventarında F-16 təyyarəsi yoxdur.

Göründüyü kimi, Ermənistan tərəfi hər dəfə yalanlar ifşa olunanda yeni uydurmalara əl atmağa başlayır.

Bu hal Ermənistanın növbəti təxribatı, Azərbaycana qarşı informasiya hücumu cəhdidir. Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzünə dini don geyindirilməsi qəbuledilməzdir.

Bununla Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan xalqına məxsus maddi-mədəni irsi məhv etmək, məscidləri və dini abidələri dağıtmaq siyasətini ört-basdır etmək istəyir. Bu günlərdə Ermənistan tərəfindən Beyləqan şəhərində məscidə, Gəncə şəhərində İmamzadə kompleksinə raket atılıb.

Azərbaycan Respublikası dünyanın bir çox yerlərində, o cümlədən Vatikanda xristian dini abidələrinin bərpası layihələrini həyata keçirib.

Bütün dünya xristianlarına bir daha öz hörmət və rəğbətimizi ifadə edirik.

Torpaqlarımız işğaldan azad olunduqdan sonra həmin ərazilərdəki bütün mədəni və dini abidələr təyinatına uyğun olaraq bərpa olunacaq”.

# Hikmət HACIYEV: “Azərbaycanın haqq işini dünyaya çatdırmaqda önəmli rol oynayan Türkiyə mətbuatına təşəkkür edirəm”

*“Azərbaycanın haqq işini dünyaya çatdırmaqda önəmli və səmərəli rol oynayan Türkiyə mətbuatına təşəkkür edirəm. Türkiyəli jurnalistlər Dağlıq Qarabağda cəbhədən və döyüş meydanından xəbərləri operativ surətdə dünyaya çatdırırlar. Təəssüf ki, bu xəbərləri hələ də qulaqardına vuranlar var. Azərbaycan tolerant ölkədir. Biz bütün dinlərin nümayəndələrinə hörmətlə yanaşırıq. Lakin erməni mətbuatı bu mövzuda yalan xəbərlər yayır. Ermənilər həmçinin dünya xristianlarının dini hisslərindən də istifadə edirlər. Halbuki ermənilər Azərbaycanın məscidlərini dağıdıblar, hətta dini ibadət yerlərində heyvan saxlayırlar”.*




AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin “Haber Global” televiziyasına müsahibəsində deyib. Hikmət Hacıyev bildirib ki, Azərbaycan Prezidentinin dediyi kimi, bizim erməni xalqı ilə işimiz yoxdur. Biz öz torpaqlarımızı işğaldan azad edirik. Dağlıq Qarabağın erməni əhalisi Azərbaycanın tərkibində yaşamaq istəyirsə, biz hər cür dəstəyi verməyə hazırıq.

İşğaldan azad olunmuş Cəbrayıl şəhərinin fotolarını gördük. Burada bütün evlər, infrastruktur dağıdılıb. Biz torpaqlarımızı işğaldan azad edəndən sonra bütün şəhər və kəndlərimizi tez bir zamanda bərpa edəcəyik.

# Bir qrup ziyalı, dini və milli icma nümayəndələri Ermənistanın son təxribatları ilə bağlı BMT-nin Baş katibinə müraciət edib

Ermənistanın sentyabrın 27-dən etibarən növbəti dəfə hərbi təcavüzə əl ataraq təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini, Dağlıq Qarabağ ərazisindən çox uzaqda yerləşən məntəqələri iriçaplı silahlardan, artilleriya qurğularından atəşə tutması, mülki əhalini, azyaşlıları qəsdən hədəfə alması, beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə Konvensiyasını kobud surətdə pozması ilə əlaqədar bir qrup ziyalı, dini və milli icma nümayəndələri Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşə müraciət edib.


*Aleksandr Ishein*
*Archbishop of the Baku and Azerbaijan eparchy of the Russian Orthodox Church*
*Mufti Salman Musaev*
*Deputy Head of Caucasus Muslims Authority*
*Zaur Orudjov*
*Representative of parish council of Catholic community of Azerbaijan*
*Aleksandr Sharovski*
*Head of European Jews Community of Azerbaijan*
*Abik Charukchiev*
*Head of Georgian Jews Community of Azerbaijan*

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə deyilir: “Hörmətli cənab Quterreş, Sizin Dağlıq Qarabağ münaqişəsi zonasında təmas xətti boyunca hərbi əməliyyatların yenilən başlamasından çox narahat olmağınız, güc tətbiq edilməsini qınamağınız, mülki əhali arasında itkilərə görə təəssüfünüzü bildirməyiniz və hərbi əməliyyatları dayandıraraq yubanmadan konstruktiv danışıqlar aparmağa çağırmağınız ilk baxışda humanist münasibətdir. Amma hər məsələnin bir tarixi olur. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin də öz  tarixi var və onu bilmədən obyektiv qərar vermək mümkün deyil.

İlk olaraq bildirək ki, beynəlxalq sülhün və təhlükəsizliyin əsas qarantı olan BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal altındakı ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmalı olduğu açıq şəkildə tələb edilir. Bu qətnamələrdə Azərbaycana qarşı həyata keçirilən təcavüzkar addımlar qınanır, münaqişə tərəfi olmayan mülki şəxslər qorunur və ərazi əldə etmək üçün güc tətbiqinin yolverilməz olduğu vurğulanır. Eyni zamanda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı təkrarlanır.

Kiçik xatırlama. Siz bilməmiş deyilsiniz ki, erməni işğalçıları Dağlıq Qarabağdan əlavə, Azərbaycanın Dağlıq Qarabağa daxil olmayan 7 rayonunu da işğal altında saxlayırlar. Hazırda Azərbaycan yeddi rayonun işğaldan azad edilməsi uğrunda çalışır.

Fikrimizcə, məhz bu səbəbdən Sizin müraciətinizdə rəhbərlik etdiyiniz qurumun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yuxarıda sadaladığımız qətnamələrinin bəndlərinə uyğun olaraq, münaqişə tərəfləri eyni tutulmamalı, Ermənistandan hərbi əməliyyatları dərhal dayandıraraq silahlı qüvvələrini işğal etdiyi Azərbaycan torpaqlarından dərhal çıxarılması tələb edilməli idi. Bundan əlavə, Ermənistan sentyabrın 27-dən etibarən növbəti dəfə hərbi təcavüzə əl ataraq təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini, oktyabrın 4-dən etibarən isə Dağlıq Qarabağ ərazisindən çox uzaqda yerləşən və əhalinin sıx məskunlaşdığı Gəncə, Mingəçevir şəhərlərini, Naftalan, Bərdə, Ağcabədi, Tərtər, Şəmkir, Xızı, Abşeron rayonlarını və digər yaşayış məntəqələrini iriçaplı silahlardan, artilleriya qurğularından atəşə tutur. Ermənistan Azərbaycan Respublikasının çağırışlarına məhəl qoymadan açıq şəkildə və qəsdən mülki əhalini, uşaq bağçaları, məktəblər, xəstəxanalar kimi mülki infrastrukturu hədəfə alır. Ermənistanın mülki əhalini, azyaşlıları qəsdən hədəfə almaqla beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə Konvensiyasını kobud şəkildə pozur. Oktyabrın 5-dək Ermənistanın öz ərazisindən top və raket hücumları nəticəsində 30-a yaxın azərbaycanlı mülki şəxs öldürülüb, 125 nəfər yaralanıb və 500-dən çox yaşayış binası və mülki obyekt məhv edilib. Ermənistan silahlı qüvvələri tərəfindən su anbarı və əsas elektrik stansiyası yerləşən Mingəçevir şəhərinə iki raket hücumu olub. Beş yüz mindən çox əhalisi olan, Azərbaycanın ikinci böyük şəhəri Gəncə müvafiq beynəlxalq konvensiyalar tərəfindən qadağan edilmiş klaster bombalarla atəşə tutulub.

Hörmətli Baş katib, təxribat xarakterli bu hərəkətlərinə görə sizdən Ermənistanın tez bir zamanda beynəlxalq hüququn norma və prinsiplərinə, beynəlxalq humanitar hüquqa və BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinə qeyd-şərtsiz əməl olunmasına çağırış etməyinizi xahiş edirik. Erməni qəsbkarları Azərbaycanın işğal edilmiş ərazilərindən çıxmalıdır. Yalnız belə olan halda regionda sülh bərqərar ola bilər. Azərbaycan xalqı - müsəlmanları, pravoslavları, yəhudiləri, katolikləri, udi xristianları ilə bir yerdə Sizdən belə bir ədalətli addım atacağınızı səbirlə və ümidlə gözləməkdədir.

*Dərin hörmətlə,*

***Kamal Abdulla,***
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri, akademik*

***Rəvan Həsənov,***
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru*

***Milix Yevdayev,***
*Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri*

***Robert Mobili,***
*Azərbaycan Respublikasının Alban-Udi Xristian  Dini İcmasının rəhbəri*

***Aleksandr İşein,***
*Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu*

***Salman Musayev,***
*Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədr müavini*

***Zaur Orucov,***
*Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturasının nümayəndəsi*

***Abik Çarukçiyev,***
*Azərbaycan Gürcü Yəhudiləri İcmasının rəhbəri”*

# Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi “La Tribune de Geneve” qəzetinə müsahibə verib

Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov İsveçrədə çıxan məşhur “La Tribune de Geneve” qəzetinə müsahibə verib.



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov Azərbaycanın yaşayış məntəqələrinin hər gün Ermənistan ərazisindən raket atəşinə tutulmasını “müharibə cinayətləri” və “beynəlxalq hüququn hiddətləndirici şəkildə pozulması” kimi səciyyələndirərək, beynəlxalq birliyi Ermənistanın bu hərəkətlərini pisləməyə çağırır. O, Azərbaycanın heç bir təqsiri olmayan mülki vətəndaşlarının bundan sonra da həlak olmasının qarşısını almaq üçün konkret tədbirlər görməyə çağırıb.

E.Əmirbəyovun sözlərinə görə, döyüş meydanında çıxılmaz vəziyyətə düşdüyünü anlayan Ermənistan Azərbaycanı Ermənistan ərazisinə cavab zərbələri endirməyə təhrik etməyə çalışır ki, üçüncü ölkələrin, xüsusən Rusiyanın bu münaqişəyə Ermənistanın tərəfində qoşulması üçün “tutarlı əsas” olsun.

Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi müsahibədə qeyd edir ki, bu günə qədər Azərbaycan Ordusu 20-yə yaxın kəndi və bir şəhəri erməni işğalından azad edib.

E.Əmirbəyov Türkiyənin bu münaqişədə Azərbaycanın tərəfində iştirakı barədə sualın cavabında qəti şəkildə bildirib ki, Yerevanın yaydığı yalan məlumatlara rəğmən, Türkiyə döyüş əməliyyatlarına əsla qoşulmayıb.

Müsahibədə vurğulanır ki, Ermənistan öz qonşusunu “erməni əhaliyə qarşı soyqırımı” törətməkdə təqsirləndirir. Bakı isə bunu təkzib edir və xatırladır ki, 1980-ci illərin axırlarında 200 min azərbaycanlı Ermənistandan qaçmağa məcbur olub. Azərbaycan tərəfi Ermənistanı öz ölkəsində və işğal edilmiş ərazilərdə “etnik təmizləmə” aparmağa görə qınayır.

Yüksək vəzifəli Azərbaycan diplomatı hərbi əməliyyatların dayandırılması və danışıqların bərpa olunması perspektivlərindən söhbət açaraq bildirib ki, heç nə, o cümlədən “Bakının istəmədiyi halda” münaqişənin regional miqyas alması istisna olunmur. Bakı Minsk qrupunun həmsədrləri olan ABŞ-ı, Rusiyanı və Fransanı da təqsirləndirir ki, onlar 30 il ərzində vasitəçilik fəaliyyətini həyata keçirir, lakin bu müddətdə Ermənistanın çoxsaylı provokasiyalarına göz yumub, gözləmə mövqeyi tutub və beləliklə, təcavüzkarın cəzasız qalmasına şərait yaradıblar.

E.Əmirbəyov deyib: “Atəşkəs yaxşı niyyətdir, lakin o, möhkəm sülhün bərqərar olması üçün kifayət deyil, atəşkəs konkret nəticələr əldə edilməsinə, daha dəqiq desək, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində tələb edildiyi kimi, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən tamamilə çıxarılmasına yönəlmiş substantiv danışıqlarla müşayiət olunmalıdır.

Bakı sülh prosesinin bərpa olunmasına hazırdır və biz bəzi görüşlərə evsahibliyi etmək təkliflərinə görə İsveçrə tərəfə minnətdarıq, lakin əvvəlcə bilməliyik ki, bu danışıqlardan nə gözləyirik, dəqiq gündəlik nədən ibarətdir və bizi hansı nəticələr gözləyir”.

# Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi “BBC World” telekanalının birbaşa efirində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sualları cavablandırıb

Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov “BBC World” telekanalının xəbərlər buraxılışının birbaşa efirində jurnalistin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zonasında ermənilərin hərbi təcavüzünün davam etməsi barədə suallarını cavablandırıb.




AZƏRTAC xəbər verir ki, E.Əmirbəyovun sözlərinə görə, zorakılığın sonuncu dəfə genişlənməsinə səbəb bu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən təmas xəttinin üç istiqamətindən Azərbaycan mövqelərinə hücum edilməsi ilə bağlıdır. O vurğulayıb ki, erməni tərəfi bu təxribatın lap əvvəlindən Azərbaycanın dinc əhalisini və mülki infrastruktur obyektlərini əsas hədəf kimi seçib. Nəticədə 28 dinc sakin qətlə yetirilib, 144 nəfər yaralanıb.

Məlum olduğu kimi, Ermənistanın baş naziri Paşinyan hərbi əməliyyatların Azərbaycan üçün uğurlu olacağı təqdirdə erməni əhalinin soyqırıma məruz qalacağını bildirib. Jurnalistin Paşinyanın bu sözlərinə Azərbaycan tərəfinin münasibəti barədə sualına cavab olaraq E.Əmirbəyov deyib ki, Paşinyanın xəstə təxəyyülünün “məhsulu” olan bu fikri, ümumiyyətlə, şərh etməyə dəyməz. Əvəzində E.Əmirbəyov yaranmış vəziyyətin dinc yolla həllini axtaranların hamısına bir həqiqəti başa düşməyi təklif edib ki, baş vermiş hadisələrin əsas səbəbi 30 ilə yaxın müddətdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalı və orada aparılmış etnik təmizləmə nəticəsində yaranmış qeyri-qanuni, amanabənd və bu səbəbdən qəbuledilməz olan status-kvodur.

Aparıcının Xankəndi şəhərinin Azərbaycan Ordusu tərəfindən bombalanması və dinc sakinlər arasında tələfat barədə sualının cavabında E.Əmirbəyov vurğulayıb ki, Ermənistandan fərqli olaraq Azərbaycan mülki əhalini heç vaxt hədəf kimi seçməyib. Eyni zamanda o, izah edib ki, ermənilər atəş nöqtələrini bilərəkdən şəhərin mülki məhəllələri arasında yerləşdirir və bu səbəbdən, təəssüf ki, dinc sakinlər arasında tələfat labüd olur.

Birinci vitse-prezidentin köməkçisi verilişin aparıcısına məsləhət görüb ki, Azərbaycanın münaqişə zonasından kənarda yerləşən Gəncə və Mingəçevir kimi iri şəhərlərinin ermənilər tərəfindən bombalanması barədə materiallardan da ekranda beləcə fəal istifadə etsin. Bu şəhərləri Ermənistan ərazisindən qanadlı raketlərlə, habelə “Smerç” və “Polonez” yaylım atəşli artilleriya sistemləri ilə atəşə tutan ermənilərin məqsədi Azərbaycanı cavab atəşi açmağa təhrik etmək və bunun ardınca üçüncü tərəfi münaqişəyə cəlb etməkdir.

Rusiyanın münaqişəyə cəlb edilməsinin mümkünlüyü məsələsini şərh edən E.Əmirbəyov bu ölkənin ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində əsas vasitəçilərdən biri kimi mühüm rol oynadığını göstərib və indiki şəraitdə Rusiyanın məsuliyyətli və tarazlaşdırılmış  davranışına görə Azərbaycan tərəfinin razılığını bildirib. O, Rusiya Prezidenti Vladimir Putinin bəyanatına istinad edib. Putin həmin bəyanatında KTMT çərçivəsində Rusiyanın Ermənistana münasibətdə müəyyən öhdəlikləri olmasını etiraf etməklə bərabər vurğulayıb ki, hazırda davam edən hərbi əməliyyatlar Dağlıq Qarabağda baş verir. Dağlıq Qarabağ isə, məlum olduğu kimi, Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisinin ayrılmaz hissəsidir. Bununla əlaqədar hər hansı üçüncü tərəfin bu münaqişəyə qoşulması üçün heç bir hüquqi əsas yoxdur.

Nəhayət, Azərbaycanın atəşi dayandırmağa razılaşması üçün əsas sərt məsələsinə gəldikdə, E.Əmirbəyov Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi mövqeyə istinad edib. Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan tərəfinin əsas strateji məqsədi Ermənistanın Azərbaycanda qeyri-qanuni xarici hərbi iştirakına son qoyulmasıdır.

# Ermənistanın qeyri-konstruktiv mövqeyi, təcavüzkar siyasətini davam etdirməsi bugünkü vəziyyətə gətirib çıxarıb

Oktyabrın 8-də Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Fransanın Rusiyadakı səfiri Pyer Levin ilə görüşüb.



Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşün keçirilməsində əsas məqsəd Azərbaycanın Dağlıq Qarabağ bölgəsində gedən hərbi əməliyyatların mövcud vəziyyəti ilə bağlı fikir mübadiləsinin aparılması olub.

Polad Bülbüloğlu cəbhədə yaranmış gərginliyi şərh etmək üçün, ilk növbədə, 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixinə nəzər salınmasının zərurətini qarşı tərəfin diqqətinə çatdırıb. O, həmsöhbətinə münaqişənin hüquqi aspektləri və Ermənistanın ölkəmizə qarşı təcavüzünün nəticələri haqqında ətraflı məlumat verib. Azərbaycan səfiri münaqişənin nizamlanması həvalə edilən ATƏT-in Minsk qrupunun fəaliyyəti, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri, ATƏT-in Lissabon Zirvə görüşü çərçivəsində qəbul edilmiş Yekun sənədin mahiyyəti, danışıqlar prosesində həmsədrlərin iştirakı ilə ortaya qoyulan Madrid prinsipləri, Mayendorf Bəyannaməsi və bu kontekstdə bir sıra digər sənəd və bəyanatlara toxunaraq, onların mövcud olan status-kvonun qəbuledilməzliyi, işğalçı qüvvələrin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasının münaqişənin həllinin əsasını təşkil etdiyini vurğulayıb.

Bununla yanaşı, Polad Bülbüloğlu Ermənistanın danışıqlarda tutduğu qeyri-konstruktiv mövqe, təcavüzkar siyasətinin davam etməsi, Azərbaycanın ərazilərinə yeni iddialar irəli sürməsi və ümumilikdə, danışıqların mahiyyətini tam şəkildə pozaraq onu mənasız etməsi kimi addımlarının bugünkü yaranmış vəziyyətə gətirib çıxardığını söyləyib. Fransanın səfiri ölkəsinin münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu qeyd edib. Həmçinin danışıqların konkret nəticəyə yönəlmiş məsələlər ətrafında aparılmasının əhəmiyyətini anladığını bildirib.

Eyni zamanda səfir Polad Bülbüloğlu Azərbaycanın uzun müddət ərzində danışıqlar apardığını, daim konstruktiv mövqedən çıxış etdiyini, səbir və təmkinlə ədalətli qərarın qəbul edilməsini gözlədiyini və ölkəmizin ərazi bütövlüyünün heç bir zaman müzakirə predmeti olmadığını diqqətə çatdırıb.

Həmçinin Polad Bülbüloğlu bildirib ki, son iki il ərzində Ermənistanın yeni hakimiyyətinin hərbi ritorikası, ölkəmizə qarşı törətdiyi təxribatlar, eləcə də atəşkəsin pozulması nəticəsində cəbhə xəttindən kənarda yaşayan çox sayda azərbaycanlı mülki şəxslərin öldürülməsi və mülki obyektlərin dağıdılması ona gətirib çıxarıb ki, Azərbaycan xalqı işğala son qoymaq tələbi ilə öz qəti iradəsini ortaya qoyub.

Azərbaycan səfiri Fransa prezidentinin son günlərdə etdiyi məlum çıxışa münasibət bildirən ölkəmizin 50 siyasi partiyasının imzaladığı bəyanatı fransalı həmkarına təqdim edib. Səfirin sözlərinə görə, belə bir bəyanatın qəbul edilməsi onu göstərir ki, müxalifət daxil olmaqla Azərbaycanın bütün siyasi qüvvələri birləşib Fransa prezidentinin ölkəmizə qarşı qəbuledilməz hərəkətlərini pisləyir və bu iki dövlət arasında müsbət olan əlaqələrə ciddi xələl gətirir.

Polad Bülbüloğlu Azərbaycanın təcavüzkar ölkənin sülhə məcbur edilməsi əməliyyatının dayandırılmasının mümkünlüyünü yalnız Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasında, bu prosesin həyata keçirilməsi üçün konkret cədvəlin təqdim edilməsində və Minsk qrupuna daxil olan ölkələrin buna qarant çıxmasında gördüyünü bildirib.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatını beynəlxalq hüquq normaları çərçivəsində həyata keçirir

"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanın rəhbərliyi altında həyata keçirilən əks-hücum əməliyyatı ölkəmizin ərazisində aparılır. Qarşı tərəf bizim haqq işimizlə bağlı həqiqətə uyğun olmayan və dezinformasiya xarakteri daşıyan xəbərlər yayır. Bizim məqsədimiz dezinformasiyanın qarşısını almaqdır".

Bu sözləri Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov oktyabrın 9-da yerli və Rusiya KİV-in nümayəndələrinin iştirakı ilə keçirilən brifinqdə deyib. Nizami Səfərov diqqətə çatdırıb ki, Azərbaycan Ordusunun apardığı iş haqq işidir və Cenevrə Konvensiyasının, beynəlxalq hüquq normaları çərçivəsində həyata keçirilir. Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatının ölkə daxilində, öz ərazi bütövlüyü çərçivəsində aparır. Otuz ildən artıqdır ki, BMT-nin 4 qətnaməsi kağız üzərində qalıb. Bu qətnamələrin birinin müzakirəsi zamanı bir sıra xarici ekspertlər münaqişənin həll edilməsinin Azərbaycanın haqq işi olduğunu bildirib. Deputat həmçinin deyib: "Milli Məclisin Sədri Sahibə Qafarova Rusiyaya səfəri zamanı bir sıra rəsmi şəxslərlə görüşləri zamanı Azərbaycanın öz ərazi bütövlüyü uğrunda mübarizə apardığını və Qarabağın Azərbaycanın tarixi və əzəli torpağı olduğunu bildirib".

N.Səfərov qeyd edib ki, Cenevrə konvensiyalarına uyğun olaraq Azərbaycan Ordusu mülki əhalini və obyektləri hədəfə almır. Ermənistanı təmas xəttindən uzaqda yerləşən Gəncəni, Beyləqanı raketlə vurması heç bir çərçivəyə sığmır. Bu raketlərdə kaset başlıqlardan istifadə olunması isə cinayətdir. Raket zərbələrindən 98 faiz mülki vətəndaşlar zərər görür. Cenevrə Konvensiyanın müddəalarına uyğun olaraq bu cür silahlardan istifadə edilməsi beynəlxalq cinayətdir.

Deputat Ermənistanın siyasi rəhbərliyinin Azərbaycan Ordusunda muzdlu əsgərlərin döyüşməsi haqqında feyk xəbərlər yaymasından da danışıb və onların həqiqəti əks etdirmədiyini diqqətə çatdırıb.

Nizami Səfərov vurğulayıb ki, biz öz torpaqlarımız uğrunda mübarizə aparırıq və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək.

# Azərbaycan XİN Ermənistana mülki aviasiya vasitəsilə silah daşınması ilə əlaqədar Beynəlxalq Mülki Aviasiya Təşkilatına müraciət edib

**Ermənistan tərəfindən humanitar yardım adı altında mülki aviasiya vasitəsilə bu dövlətə aid təyyarələrlə oraya silahların daşınması həyata keçirilir.**

Bu barədə AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, bu məqsədlə Ermənistan hökumətinin qeydiyyatında olan təyyarələrdən və xarici ölkələrə səfər adı altında rəsmi səfərlərdən istifadə olunur.

Həmçinin Ermənistan Fövqəladə Hallar Nazirliyinin, guya, bu ölkəyə humanitar yardım gətirməsi adı altında bu kimi silah qaçaqmalçılığı həyata keçirilir. Burada xüsusilə raket sistemlərinin və digər silahların daşınması həyata keçirilir.

Vurğulanıb ki, 1944-cü ildə Çikaqoda qəbul edilmiş Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın 4-cü maddəsinə görə, Konvensiyaya tərəf olan hər bir dövlət mülki aviasiyadan Konvensiyaya uyğun olmayan məqsədlər üçün istifadə etməməlidir. Konvensiyanın 44-cü maddəsinə əsasən, bütün dünyada beynəlxalq mülki aviasiyanın təhlükəsiz və tənzimlənən inkişafının təmin edilməsi, hava gəmilərinin sülh məqsədilə istismarının təşviq edilməsi Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) əsas məqsədlərindən biridir.

"Bununla əlaqədar olaraq məsələnin araşdırılaraq müvafiq tədbirlərin görülməsi üçün tərəfimizdən Beynəlxalq Mülki Aviasiya Təşkilatına müraciət edilib", - deyə məlumatda qeyd olunub.

# Azərbaycan Ordusunun Şuşadakı dini ibadət yerlərini hədəfə almasına dair Ermənistan XİN-in açıqlaması növbəti saxta ittiham və təxribatdır

Ölkəmizin işğal olunmuş Şuşa şəhərindəki dini ibadət yerlərinin və mədəniyyət abidələrinin Azərbaycan Silahlı Qüvvələri tərəfindən hədəfə alınmasına dair Ermənistan XİN-in açıqlaması Ermənistanın Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki infrastrukturunu və mədəniyyət abidələrini qəsdən atəşə tutması faktlarından beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədilə yaydığı növbəti saxta ittiham və təxribatdır.

Bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Şuşa şəhərindəki dini ibadət yerlərinin və mədəniyyət abidələrinin hədəfə alınması ilə bağlı Ermənistan XİN-in açıqlamasına dair şərhində yer alıb.

Şərhdə həmçinin deyilir: "Otuz ilə yaxındır ki, Ermənistan Azərbaycan irsinin bütün əlamətlərini aradan qaldırmaq məqsədilə ölkəmizin işğal olunmuş ərazilərindəki tarixi və mədəni abidələrimizin qəsdən məhv edilməsi siyasətini həyata keçirir. Bu günlərdə Azərbaycanın ikinci böyük şəhəri, eləcə də ölkəmizin tarixi və mədəni irsinin mərkəzi olan Gəncəyə raket zərbələri endirməklə Ermənistan uzun müddətdir həyata keçirilən vandalizm siyasətini bir daha açıq şəkildə nümayiş etdirdi.

Mədəni müxtəlifliyin aydın və açıq şəkildə hiss edildiyi ölkələr sırasında olan Azərbaycan dini baxımdan dünyanın ən tolerant ölkələrindən biridir. Azərbaycanın işğal olunmuş ərazilərində mədəni soyqırımı həyata keçirən, oradakı məscidləri dağıdan və təhqir edən Ermənistandan fərqli olaraq, Azərbaycan tolerantlıq ənənələrinin qorunmasına böyük əhəmiyyət verir. Bakının mərkəzində tam təmir edilmiş və dövlətin himayəsində olan erməni Müqəddəs Qriqori Kilsəsi bu siyasətin parlaq nümunəsidir.

Azərbaycan Silahlı Qüvvələrinin hərbi komandanlığının rəsmən elan etdiyi kimi, Azərbaycan Ordusunun hədəfləri düşmənin hərbi infrastrukturları, atəş mövqeləri və hərbi hissələridir. Azərbaycan Silahlı Qüvvələri ölkəmizin suveren ərazilərində əks-hücum tədbirlərini beynəlxalq humanitar hüquqa və Cenevrə Konvensiyasına uyğun olaraq həyata keçirirlər.

Bir daha bəyan edirik ki, Azərbaycanın mülki əhali və obyektlərinə qarşı heç bir fərq qoymadan və qeyri-mütənasib hücumlar beynəlxalq humanitar hüquq normalarına əsasən müharibə cinayətləri sayılır, bu əməllərə görə Ermənistan məsuliyyət daşıyır, eyni zamanda bu əməllər onları törədən cinayətkarların fərdi cinayət məsuliyyətinə cəlb olunması üçün əsasdır.

Şübhəsiz, Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələri işğaldan azad olunan kimi burada Ermənistanın təcavüzü nəticəsində dağıdılmış Azərbaycanın bütün tarixi, mədəni və dini abidələri bərpa olunacaqdır".

# Müdafiə Nazirliyi xəbər verir

## Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan ordusunun məhv edilmiş döyüş texnikasının siyahısını açıqlayıb

*Düşmənin ümumilikdə:*

- **16** komanda məntəqəsi;
- **196** tankı, 38 BM-21, bir "Uraqan";
- **10** özüyeriyən artilleriya qurğusu;
- **36** piyadaların döyüş maşını;
- **24** artilleriya batareyası;
- **2** RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi;
- **2** "S-300" kompleksinin buraxıcı qurğusu;
- **25** OSA zenit-raket kompleksi;
- **2** "Kub" zenit-raket kompleksi.

## "Ermənistan ordusu yaşayış məntəqələrimizi atəşə tutur"

**Ermənistan silahlı qüvvələri Azərbaycanın Goranboy, Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutur.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusu düşmənə qarşı adekvat tədbirlər görür.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun qətiyyətli və sarsıdıcı zərbələri nəticəsində geri çəkilən və bölmələrimizlə qarşılaşmağa cürət etməyən düşmən yaşayış məntəqələrimizi atəşə tutur.

❖ ❖ ❖

Ermənistan ərazisindən Mingəçevir şəhəri istiqamətində atılan ballistik hədəf Azərbaycanın hava hücumundan müdafiə sistemləri tərəfindən aşkarlanaraq 20 kilometrdən artıq hündürlükdə məhv edilib.

## Tərtər rayonunun işğaldan azad olunan Suqovuşan kəndinin görüntüsü

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi rəşadətli Ordumuzun sarsıdıcı zərbələri nəticəsində geri çəkilən düşməndən azad edilən Suqovuşan yaşayış məntəqəsinin görüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir. Xatırladaq ki, Suqovuşan yaşayış məntəqəsi oktyabrın 3-dən düşməndən - Ermənistan ordusundan azad olunub.




## Ermənistan silahlı qüvvələrinin xeyli sayda silah-sursatı, hərbi texnikası ələ keçirilib və məhv edilib

**Şanlı Azərbaycan Ordusunun daha bir uğurlu əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin xeyli sayda tank və PDM-ləri ələ keçirilib. Erməni təxribatına qarşı ordumuz tərəfindən hərbi əməliyyatlar uğurla davam etdirilir.**



Oktyabrın 8-də Azərbaycan əsgəri düşmənə bir daha ağır zərbə vurub. Hərbçilərimiz qarşısında aciz qalan ermənilər texnikalarını ataraq qaçıblar. Nəticədə 30-a yaxın tank və piyada döyüş maşınları (PDM) ələ keçirilib. Texnikalar işlək vəziyyətdədir.



Qeyd edək ki, sentyabrın 27-si səhər saatlarından Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Dinc sakinlər hədəfə alınıb, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan dəyib. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.



## Ermənistan məqsədyönlü şəkildə dövlət sərhədində təxribat törədib

**Oktyabrın 9-da saat 20:00 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən sahəsində yerləşən Azərbaycan Ordusunun müdafiə mövqelərindən Ermənistan ərazisində atışma səsləri və partlayış müşahidə olunub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib, Ermənistanın Vardenis rayonunun Günəşli və Ağyoxuş kəndlərində yerləşən düşmən mövqelərindəki hərbi qulluqçular əvvəlcə müxtəlif atıcı silahlardan birbirinə doğru atəş açmışlar. Bir az sonra isə Günəşli kəndində partlayış baş verib və yanğın müşahidə edilib.

Bildiririk ki, baş verən insidentə Azərbaycan Ordusu bölmələrinin heç bir aidiyyəti yoxdur. Bu təxribat erməni xalqı və beynəlxalq aləmin diqqətinin Ermənistan rəhbərliyinin hərbi və siyasi meydanda uğradığı iflasdan yayındırmaq məqsədi daşıyır.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi düşmənin bu təxribatını kəskin qınayır və bu əmələ görə bütün məsuliyyətin Ermənistan tərəfinin üzərinə düşdüyü bildirilir.

# Ermənistan ordusu Azərbaycanın yaşayış məntəqələrinə qadağan olunmuş bombalar atır

**Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq iriçaplı silahlardan və artilleriya qurğularından ordumuzun mövqelərini və yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir.**







Dinc əhalini və mülki infrastrukturu hədəfə alan düşmən Azərbaycanın şəhərlərinə, rayonlarına, kəndlərinə mərmilər və qadağan olunmuş bombalar atır.

AZƏRTAC xəbər verir ki, düşmən Goranboy rayonunun kəndlərini və yaşayış məntəqələrini də qadağan olunmuş raketlərdən atəşə tutur. Həmin raketlərin birinin bombleti rayonun kəndlərinin birinin ərazisində aşkarlanıb.







Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) partlamamış hərbi sursatların zərərsizləşdirilməsi üzrə əməliyyat meneceri Mədət Məmmədov jurnalistlərə açıqlamasında deyib ki, Ermənistan ordusu tərəfindən rayon ərazisinə atılan xeyli sayda mərmilərin və raketlərin içərisində aşkarlanan bir ədəd kaset başlıqlı raketə məxsus bomblet aşkarlanıb. Məlum olub ki, bu bomblet "Smerç" adlanan 300 millimetrlik 9M55KA modelli raketlərin kaset başlığı daşıyan növündən atılıb. Yaşayış məntəqəsinin yaxınlığına düşdüyünə görə mülki əhalinin hədəfə alındığı məlumdur. Bunlar istifadəsi qadağan olunmuş bombalardır. Eyni zamanda kaset başlıqlı bütün bombalar, bütün bomblet daşıyan mərmilər hamısı beynəlxalq konvensiyaya uyğun olaraq qadağan edilib. Modeli 9N235 olan bu bombletlər qəlpəlidir. İçərisində yüngül zirehli maşınları, texnikaları sıradan çıxarmaq üçün 96 və canlı qüvvəni məhv etmək üçün 360 ədəd qəlpə var. Bu raketin ümumi çəkisi 800 kiloqramdır.

Qeyd edək ki, həmin bomblet oktyabrın 9-da partlayış yolu ilə zərərsizləşdirilib.

❖ ❖ ❖

Erməni faşistlərinin azərbaycanlı dinc əhaliyə qarşı təxribatları davam edir.

Düşmən dünən səhər saatlarında Füzuli rayonunun işğal altında olmayan yaşayış məntəqələrinə yenidən ağır artilleriyadan zərbələr endirib.

Atəşə məruz qalan kəndlərdən biri də Qarabağ kəndidir. Kəndə düşən mərmilər nəticəsində sakinlərdən bir neçə nəfəri xəsarət alıb. Bundan başqa, evlər dağılıb, mal-qara tələf olub, təsərrüfatlara ciddi ziyan dəyib, infrastruktur sıradan çıxıb.

Qeyd edək ki, sentyabrın 27-si səhər saatlarından Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Dinc sakinlər hədəfə alınıb, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan dəyib. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

Ermənistan silahlı qüvvələri dinc əhalini məqsədli şəkildə hədəfə alır, qadağan olunmuş mərmilərdən, o cümlədən fosforlu bombalardan istifadə edirlər.











# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir



“Bizim davamız haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq. Azərbaycan əsgəri, zabiti öz doğma torpağı uğrunda vuruşur...”

İlham ƏLİYEV

## Qarabağa inamla, qələbəyə İLHAMla!

## Azərbaycan Ordusu bütün cəbhəboyu hərbi üstünlüyünü davam etdirir

*Əvvəli 1-ci səh.*

Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması səbrimizi daşıran son damla olaraq gözlənilən müharibəni qaçılmaz etdi.

Həmin andan etibarən Azərbaycan Ordusu vətən uğrunda ölüm-dirim savaşına qalxdı. Ordumuz bütün dünyanın suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı Qarabağı və ətraf rayonları düşmən işğalından azad etmək üçün müqəddəs döyüşə başladı. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin haqq mübarizəsinə başlamaq əmri xalqın sevincinə, coşqusuna səbəb oldu, qürurla qarşılandı. Elə ilk gündən düşmənin ön müdafiə xəttinin yarılması, qısa zamanda bir neçə kənd və strateji əhəmiyyətli yüksəkliklərin işğaldan azad edilməsi xalqımızın qələbə ovqatını daha da artırdı. Bütün xalq öz rəhbəri ətrafında bir yumruq kimi daha da sıx birləşdi. Minlərlə igid oğullarımız mənfur düşmənlə vuruşmaq üçün səfərbərlik şöbələrinə axışdı. Hər kəs bacardığı qədər orduya maddi və mənəvi dəstək göstərdi.

O gündən hər kəsin gözü, qulağı cəbhədədir. Hər kəs döyüş bölgəsindən, rəşadətli ordumuzdan qələbə müjdəli xəbərlər gözləyir.

Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi aparan ordumuz bütün cəbhəboyu hərbi üstünlüyü davam etdirir. Qələbəyə doğru inamla irəliləyən qorxmaz, cəsur əsgərlərimiz düşmənin işğal olunmuş torpaqlarımızdakı hərbi hissələrini, istehkamlarını, ön xətt mövqelərini, döyüş texnikalarını və infrastrukturunu, canlı qüvvəsini, cəbhənin dərinliyindəki atəş nöqtələrini, bazalarını darmadağın edir, kəndlərimizi, strateji yüksəklikləri sürətlə düşməndən təmizləyir. Uzun fasilədən sonra yenidən doğma torpaqlarda üçrəngli şanlı bayrağımızı ucaldır.

### Azərbaycanın mövqeyi tarixi ədalətə əsaslanır

Bu gün Azərbaycan Ordusu öz torpaqlarında döyüşür, düşmənə sarsıdıcı zərbələr endirir, layiqli cavab verir. Məğlub Ermənistan ordusu isə öz acizliyini, rəzillik və qorxaqlığını sübut edərək, Azərbaycanın mülki əhalisini və obyektlərini hədəfə alıb hərbi cinayətə imza atır. Ermənistandan və Dağlıq Qarabağdan atılan artilleriya atəşləri nəticəsində oktyabrın 9-u tarixinədək 31 dinc sakin həlak olub, 190-dan çox sakin müxtəlif dərəcəli xəsarətlər alıb, 900-dən çox ev dağıdılıb. Azərbaycan ərazilərinə artilleriya atəşləri Ermənistan tərəfindən uzaqvuran artilleriya vasitəsilə aparılır, “Toçka U” və “Elbrus” kimi ölümsaçan sistemlərdən istifadə edilir ki, bu da Cenevrə konvensiyalarının çox kobud şəkildə pozulması, müharibə cinayətidir.

Münaqişə zonasının bilavasitə yaxınlığında yerləşən Tərtərin, əhalisinin sayına görə Azərbaycanın ikinci böyük şəhəri olan və münaqişə zonasından kənarda yerləşən Gəncənin əhalisi atəşə tutulub. Mingəçevirdə Azərbaycanın ən böyük elektrik stansiyasının ərazisinə bir raket düşüb, 10-dan çox şəhərimiz, yüzlərlə kəndimiz şiddətli artilleriya bombardmanına məruz qalıb. Ermənistan hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq belə alçaq hərəkətlərə əl atır. Lakin Ermənistan ərazisindən açılan artilleriya atəşlərinə baxmayaraq, Azərbaycan düşmən ərazisinə heç bir zərbə endirmir. Ermənilərin mövqeyi tarixi yalana, beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasına əsaslandığı halda, Azərbaycanın mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə, tarixi ədalətə əsaslanır.

Bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu daim söyləyən dövlət başçısı İlham Əliyev Ermənistanın işğalçılıq siyasətini, müharibə cinayətlərinin mahiyyətini açmaqla Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün beynəlxalq kürsülərdən konkret faktlarla təcavüzkarı ifşa edir. Eyni zamanda Azərbaycan Prezidenti hər zaman hücum diplomatiyasına və milli maraqlara əsaslanan siyasət həyata keçirərək Ermənistanın 30 ildən artıqdır ki, yürütdüyü işğalçılıq siyasəti və bunun bütün region üçün yaratdığı ciddi təhdidləri məntiqi arqumentlərlə dünya ictimaiyyətinin diqqətinə çatdırır. Ölkə rəhbəri son vaxtlar dəfələrlə mühüm beynəlxalq platformada Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmi dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan edib.

### Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil

Bu gün Azərbaycan rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyi hər kəsə məlumdur. Bütün üstünlüklər bizdədir və Prezident İlham Əliyevin hücum diplomatiyası uğurla həyata keçirilir. Dövlət başçısının qeyd etdiyi kimi, “Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaq”.

Haqq Azərbaycanın tərəfindədir. Azərbaycan Ordusu separatçılara və terrorçulara qarşı döyüşür, ərazi bütövlüyümüz uğrunda mübarizə aparır. Hazırda Ali Baş Komandanın rəhbərliyi ilə xilaskar Azərbaycan Ordusu işğalçı orduya sarsıdıcı zərbələr endirir, doğma torpaqlarımızın azad olunması uğrunda müqəddəs vəzifəni şərəflə yerinə yetirir. Hər gün cəbhədən gələn xoş müjdəli xəbərlər silahlı qüvvələrimizin kifayət qədər güclü olduğunu və üzərinə düşən tapşırığı layiqincə yerinə yetirdiyini təsdiq edir. Bu tarix Azərbaycan dövlətinin, Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya göstərir.

30 ildir yağı tapdağında qalan torpaqlarının azadlığı uğrunda mübarizəyə qalxmış xalqımız bu haqq savaşında öz Prezidentinə inanır, arxalanır, ondan güc alır. Döyüş meydanında düşmənə qalib gələn və qazandığı qələbələrin sayını getdikcə artıran ordumuz özünün Ali Baş Komandanının rəhbərliyi ilə Qarabağı erməni terrorçularından tam azad edəcəyinə əmindir. Kimliyindən, statusundan, siyasi mövqeyindən asılı olmayaraq, bu gün hər kəs Ali Baş Komandanımızın əmrində, ordumuzun yanındadır. Çünki Qarabağ məsələsi bizim milli məsələmizdir. Qarabağ bizim əzəli və əbədi torpağımızdır. Qarabağ uğrunda savaş bizim Vətən savaşımızdır. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***



# Hərbin gücü sülhün davamlılığını təmin edəcək

## Dövlət siyasəti separatizmə, terrorçuluğa hesablanmış Ermənistana həddi bildirilmədən bölgədə əmin-amanlığın bərqərar olması mümkün deyil

*30 il zaman üçün elə də böyük vaxt dilimi deyil, amma insan yaşamında bu 30 ilin qavramı ölçüyəgəlməz miqyasdadır...*

*Bizim üçünsə bu vaxt ölçüsü, 30 illik Qarabağ düyünü, ana yurda duyduğumuz bir qərinəlik həsrətin adı, vətənli xatirələrin zaman girdabında öləziyib solğunlaşma məqamıydı...*

*Həm də, elə sözün əsl mənasında, bir igidin ömrüydü...*

*Qəddarlıqla öldürülən xocalılı bir ananın qolları arasında sağ tapılan bir körpənin ömrü...*

*O körpə ki, indi hünər meydanında yer üzünün qatilləri erməni terrorçularına divan tutur, ədalət qılıncının altından keçməyə, 30 il əvvəl günahsız insanların qanını tökdükləri torpağa baş əyməyə məcbur edir...*

### Bu gün də Bakının mərkəzində ermənilərin dini məbədi, məzarlıqları qorunub saxlanılır...

Sülhsevərlik, humanizm, insanpərvərlik Azərbaycan xalqının təməl dəyərlərindən birincisidir. Bu diyarda millətindən, dilindən, dinindən asılı olmayaraq hər kəsə eyni gözlə baxılır, dini inanclarına sayğı göstərilir. Bəşəriyyətə örnək milli-mənəvi dəyərlərimizin özəlliyi, unikallığı ondadır ki, əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşayıblar, yaşayırlar...

O da faktdır ki, Azərbaycan xalqı ona düşmənçilik edənlərə qarşı da həmişə tolerant yanaşma sərgiləyib. Ermənistan tərəfindən işğal olunan torpaqlarımızdakı dini ocaqların, məscidlərin, məzarlıqların dağıdılmasına baxmayaraq, bu gün də Bakının mərkəzində ermənilərin dini məbədi, məzarlıqları qorunub saxlanılır, onlara qarşı heç bir hörmətsizlik edilmir. Tolerantlığın, milli dözümlüyün bu fövqəlbəşər nümunəsinə isə dünyanın heç bir yerində rast gəlmək mümkün deyildir...

### Bəzən sülhün bərqərar olması üçün savaşmaq lazım gəlir

Bütün bu faktlar isə onu deməyə əsas verir ki, Azərbaycan sülh diyarıdır və işlətdiyimiz bu ifadədə qətiyyən pafosa, ifrata varmamışıq.

Amma o da təəssüfləndirici faktdır ki, bəzən sülhün bərqərar olma yolu müharibədən keçir. Haqqın, ədalətin bərpa olunması üçün savaşmaq lazım gəlir...

Elə indi Qarabağda igid əsgərlərimizin savaşdığı kimi...

Yuxarıda xalqımızın ömrünə yazılmış 30 illik bir zaman dilimindən bəhs etdik, bu tarixin taleyimizdə hansı acı izlər buraxdığına dair bir neçə misal çəkdik. Onu da deməliyik ki, bu 30 il, həm də azərbaycanlıların səbir illəri, sülhə nail olmaq üçün verdiyi dözüm nümayişi kimi tarixə düşdü.

Amma heyhat, qarşımızdakı bu ali hisslərdən çox-çox uzaq düşmən, sülhün düşməni kimi davranır, hər fürsətdə azğınlığını, təcavüzkarlığını daha da artırır, təxribatlarını davam etdirirdi. Amma açıq savaşda deyil, hiyləgərliklər edərək, tələlər quraraq, müdafiəsiz mülki əhalini hədəf alaraq...

İndi hər şey gün kimi ortada idi, dövlət siyasəti separatizmə, terrorçuluğa hesablanmış Ermənistana həddini bildirmədən, yerini göstərmədən bölgədə sülhün bərqərar olması mümkün deyildi. Artıq bu həqiqəti illərdir işğalçı dövlətə havadarlıq edən, ona arxa duraraq daha da azğınlaşmasına şərait yaradan beynəlxalq aləm də anlamağa başladı.

### Ermənistanın ağılsız və uğursuz cəhdi

İyul təxribatları zamanı aldığı layiqli cavabdan dərs çıxarmağı bacarmayan Ermənistan, sentyabrın 27-də yenidən Azərbaycanın sərhədində təxribat törətməyə, mülki əhalini hədəf almağa başladı. İdbar əməlləri ilə özlərinin hansısa çirkin planlarını həyata keçirmək üçün ağılsız və uğursuz bir cəhd etdi. Və elə bu ağılsız cəhdləri ilə də, həm siyasi müstəvidə, həm beynəlxalq arenada, həm də hərb meydanında məğlubiyyətlərinin altına böyük bir imza atdı.

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin bütün müstəvilərdə uğurlu şahmat gedişi qarşısında “mat”, Şanlı Ordumuzun ildırım sürətli hücumları ilə tar-mar oldu düşmən. Bir həmləsi ilə düşmənin murdar ayağını qarış-qarış torpağımızdan qazıyıb atan igid əsgərlərimiz xalqa zəfər müjdəsi verməyə, haqqın, ədalətin rəmzi Azərbaycanın üçrəngli müqəddəs bayrağını vətən torpağında, zirvələrimizdə dalğalandırmağa başladı...

### Hayların can hayı...

Bəli, həm də bu 30 ildə bütün erməni əsgərlərinin şüuraltısına, beyninə bir həqiqət işləmişdi, “bir gün, zorla yiyələnmək istədiyimiz bu torpaqları sahibləri geri qaytaracaq və o gün bizim üçün qiyamət, haqqın hesabını verəcəyimiz sonumuz olacaq”.

Artıq erməni əsgəri özgə torpağının ayağının altından qaçdığı, Azərbaycan xalqı üçün müqəddəs günün yetişdiyini başa düşür. Silahını, postunu, döyüş bayrağını qoyub ardına baxmadan Qarabağdan qaçır...

Erməni əsgərləri qorxur, can hayındadır, amma bilməlidir ki, şücaətli Azərbaycan əsgəri onlar kimi namərd, zəif, müdafiəsiz insanların üzərində güc sınayan insafdan uzaq xain deyil.

Onların qarşısında bəşəriyyətə insanlıq dərsi verən, humanizm nümunəsi göstərən, müharibədə belə sülhsevər davranışı ilə seçilən mərd Azərbaycan oğulları dayanıb.

### Düşmən hərbçilərinə həyatlarını qurtarmaq yolu göstərildi

Azərbaycan Ordusu beynəlxalq humanitar hüquqa əməl edir. Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov məlumat verərək bildirdi ki, bununla bağlı Azərbaycan Ordusunun bölmələrinə, xüsusən də ön xətt bölmələrinə broşür paylanılıb. Həmin broşürlər dərs vəsaiti olaraq tədris edilir: “Həmin broşürlərin bir üzündə döyüş zamanı yaralılara, zərərçəkmişlərə ilkin tibbi yardımın göstərilməsi qaydaları əksini tapıb. Digər tərəfində isə döyüşçülərin davranış qaydaları göstərilib. Yəni hərbi qulluqçu döyüşdə necə davranmalıdır, kimləri hədəfə almalıdır və kimləri hədəfə almamalıdır kimi legitim məsələlər izah olunur”.

Anar Eyvazov onu da vurğulayıb ki, Beynəlxalq hümanitar hüquqda əksini tapan prinsiplər bizim xalqımız, Ordumuz üçün yeni deyil. Bunlar bizim milli mentalitetimizdə, dinimizdə, Ordumuzda mövcuddur: “Bunlar bizə çox yaxşı tanışdır və Azərbaycan qanunvericiliyində öz əksini tapıb. Azərbaycan Ordusunun döyüşün qızğın vaxtında belə döyüşdə iştirak etməyənlərə qarşı necə davranmalı olduğu təlimlərdə aşılanıb”.

A.Eyvazov deyib ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və digər qurumlarla birgə əməkdaşlıq şəraitində müntəzəm olaraq hərbi qulluqçularımıza mülki əhali və əsirlərlə bağlı davranış normaları ilə bağlı məlumatlar təlimlərdə müntəzəm olaraq çatdırılıb: “Azərbaycan Ordusunun hədəfi yalnız Ermənistan silahlı qüvvələrinə məxsus legitim hərbi hədəflərdir”.

Eyni zamanda Azərbaycan humanitar dəhlizlərin açılması, beynəlxalq humanitar hüququn norma və prinsiplərinin tətbiq edilməsinə hazır olduğunu bəyan edib və bununla bağlı erməni əhalisinə müraciət edib.

Mətbuat katibi qeyd edib ki, müraciət həyatını qurtarmaq məqsədilə könüllü qaydada təslim olmaq istəyən düşmənin hərbi qulluqçularına da şamil edilib.

### Azərbaycanın haqq savaşı Qafqazda təməlli sülhə yol açacaq

Onu da vurğulamalıyıq ki, Azərbaycan Ordusu əks-hücum əməliyyatı zamanı qadağan olunmuş silah növlərindən istifadə etmir. Həm də igid əsgərlərimiz Ermənistan hərbçilərindən fərqli olaraq, mülki obyektləri hədəfə almır. Hətta qarşı tərəfdəki mülki insanlara müraciət olunaraq hərbi obyektlərdən kənarda olmaları tövsiyə edilib.

Amma hərb cəbhəsində Şanlı Ordumuza uduzan Ermənistan sərhəddən kilometrlərlə uzaqda yerləşən Azərbaycan ərazilərinə, əhalinin sıx yaşadığı şəhərlərə qadağan olunmuş silahlardan atəş açır. Sonuncu çıxış yolu kimi məkrli cəhdə əl ataraq dinc əhalini hədəfə alır, insanlarda qorxu, təlaş yaratmağa çalışır. Onlar insanlığı hədəf almış bu dəhşətli planları ilə bir daha təkzibolunmaz faktlarla sübut edirlər ki, Ermənistanın terrorçu əməllərinin qarşısını yalnız müharibə ilə, ona layiqli cavab verməklə almaq mümkündür.

Bu gün Azərbaycan Qarabağı yağı tapdağından azad etməklə, təkcə öz torpaqlarının bütövlüyünü bərpa etmir, həm də Qafqazda sülhün var olmasına, Ermənistanın digər qonşu ölkələrə qarşı torpaq iddiasına da birdəfəlik son qoyur.

Əminik ki, hərb salnamələrinə qızıl hərflərlə yazılacaq Azərbaycanın bu haqq savaşının nəticələri, müasir dünyamızın əmin-amanlıq təməli üçün də böyük zəmin yaradacaq.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Suqovuşanın azad edilməsi Tərtər, Yevlax və Bərdə rayonlarında əkin sahələrinin genişləndirilməsinə səbəb olacaq

Sentyabrın 27-dən başlayan əks-həmlə əməliyyatları nəticəsində Şanlı Ordumuz 30 ilə yaxın müddətdə erməni qəsbkarlarının işğalı altındakı Dağlıq Qarabağ və ətraf rayonların azad olunması istiqamətində qətiyyətlə irəliləməkdədir. Ordumuz vacib yüksəkliklərin və strateji ərazilərin, o cümlədən Suqovuşanın geri qaytarılması ilə yanaşı, 30 illik ekoloji terrora da son qoymuş oldu.

Bunu AZƏRTAC-a açıqlamasında Kənd Təsərrüfatı Nazirliyinin torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firudin Tağıyev deyib.

Onun sözlərinə görə, münaqişə zonası ilə həmsərhəd olan Ağdam, Tərtər, Bərdə, Goranboy, Füzuli və Ağcabədi rayonlarının kənd təsərrüfatı istehsalçıları uzun illərdir Sərsəng və Suqovuşan su anbarlarının suyunun qarşısının ermənilər tərəfindən kəsilməsindən əziyyət çəkirlər: “Tərtərçay çayının üzərində yerləşən Sərsəng su anbarı Tərtər rayonunun erməni işğalında olan ərazisində qalmış və indiyədək Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olmuşdur. Su anbarının tutumu 565 milyon kubmetr olmaqla, bölgədəki iri su anbarlarından sayılır. Eyni çayın üzərində yerləşən və hazırda azad olunmuş Suqovuşan kəndinin ərazisində yerləşən eyniadlı su anbarının (tutumu 5,86 milyon kubmetr) qeyd olunan rayonların kənd təsərrüfatı torpaqlarının suvarılmasında əhəmiyyəti olduqca böyükdür. Artıq Suqovuşan su anbarından Tərtərçay çayına suyun ötürülməsi ilə tarixi ədalət bərpa olunub, ermənilərin beynəlxalq konvensiyaların tələblərini heçə sayaraq ekoloji tarazlığa vurduqları zərər aradan qaldırılıb. Tərtərçay çayında suyun artması nəticəsində Tərtər rayonu üzrə Şıxarx, Buruc, Ələsgərli, Bayandur, Yenikənd, Əskipara, Sarıcalı, İsmayılbəyli, Qaynaq, İlxıçılar, Qazyan, Qapanlı, Səhləbad, Qaraağacı, Həsənqaya və digər kəndlərin, Bərdə rayonunun Qasımbəyli, Körpüsındıran, Muğanlı, Kələntərli, Əmirli, Şirvanlı və başqa kəndlərinin, Yevlax rayonunun isə bir sıra ərazilərinin əkin sahələrinin suvarılma problemləri artıq həll olunmaqdadır. Bu isə adıçəkilən rayonlarda kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasına, əkin sahələrinin genişləndirilməsinə öz töhfəsini verəcək”.



# Uğurlu əks-hücum əməliyyatı işğala son qoyacaq!





## 19 tank, 4 «Qrad», 3 top, 2 PDM...

### Bir gün ərzində Ordumuz düşmənin onlarca hərbi texnikasını dəqiq atəşlə məhv edib və qənimət götürüb





**Bütün cəbhəboyu ərazilərdə döyüşlər davam edir. Ordumuz Qarabağda apardığı antiterror əməliyyatlarını genişləndirərək əraziləri düşməndən təmizləyir, düşmənin zirehli texnikalarını məhv edir, yeni dayaq nöqtələrini ələ keçirir.**

Döyüşlər başlanan gündən indiyədək Ermənistanın silahlı bölmələrinə məxsus xeyli sayda hərbi texnika və canlı qüvvə məhv edilib.

Oktyabrın 9-da bütün cəbhəboyu gərgin döyüşlər davam edib.

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıb. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə itib, hərbi bölmələri arasında nizamsızlıq yaranıb, şəxsi heyətinin intizamı pozulub, döyüş mövqelərinin tərk edilməsi kütləvi hal alıb.

Atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılıb. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanıb, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilib.

Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilir. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edilib və yaralanıb. Gün ərzində ümumilikdə düşmənin 19 ədəd T-72 tankı zərərsizləşdirilib. Onun 13-ü məhv edilib, 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı isə işlək vəziyyətdə ələ keçirilib.

Bununla yanaşı, düşmənin 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilib, sıradan çıxarılıb.










Ümumiyyətlə, döyüşlər başlayan gündən indiyədək düşmənin xeyli sayda hərbi texnikası məhv edilib. Dünən Prezident İlham Əliyev xalqa müraciətində statistik rəqəmləri açıqlayıb: Düşmənin ümumilikdə 16 komanda məntəqəsi, 196 tankı, 38 BM-21, bir "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu, 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 "Kub" zenit-raket kompleksi və digər hərbi texnikası məhv edilib.

Eyni zamanda 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 27 "İqla" kompleksi və digər avtonəqliyyat vasitələri qənimət götürülüb.

Göründüyü kimi, Ordumuz şərəfli missiyasını uğurla gerçəkləşdirir. 14 gündür davam edən döyüşlərdə xeyli ərazilərimiz işğaldan azad olunub, düşmənin çoxlu sayda canlı qüvvəsi və zirehli texnikası məhv edilib. Ermənilərin itkiləri hər keçən dəqiqə artır.

Bu gün işğaldan azad edilmiş Cəbrayılda Azərbaycan bayrağı dalğalanır. Azərbaycan Silahlı Qüvvələrinin düşmənə qarşı əks-həmlə hücumlarının qarşısında duruş gətirə bilməyən erməni hərbçiləri silah-sursatlarını, hərbi texnikalarını, döyüş bayrağını ataraq qaçır, ya da ağ bayraq qaldıraraq təslim olur.

Ermənistan ordusunun 1-ci və 7-ci alaylarının müdafiə sahələrində yerləşən bölmələrinin bir qrup əsgəri döyüş mövqelərini özbaşına tərk edərək fərarilik ediblər. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumata görə, düşmənin 1-ci alayında ərzaq çatışmazlığı səbəbindən şəxsi heyətin qida təminatında ciddi problemlər var. Bunun nəticəsi olaraq düşmən bölmələrinin şəxsi heyəti döyüş mövqelərini özbaşına tərk edərək fərarilik edir. Digər bölmələrdə döyüş sursatları və yanacaq təminatında da ciddi problemlər mövcuddur. Bəzi istiqamətlərdə müdafiə sahəsində düşmən bölmələri arasında qarşılıqlı əlaqənin olmaması nəticəsində özləri bir-birinə atəş açıblar, ölən və yaralananlar var.

Ordumuzun bu uğurlu əməliyyatları Ermənistanıdakı ağır durumu getdikcə daha da dramatikləşdirir. Artıq bu ölkənin gəncləri Azərbaycan torpaqlarında döyüşməkdən imtina edirlər. Gənclərin hərbi xidmətdən yayınmaq üçün vətəndaşlıqdan imtina etmələrini sübut edən sənədlərin əldə olunması deyilənləri təsdiqləyir. Həmin sənədlər Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən işğalçı ölkənin polis orqanlarına və qondarma "Dağlıq Qarabağ Respublikası"nın "xarici işlər nazirliyi"nə göndərilib. Bu barədə Naxçıvan Dövlət Təhlükəsizliyi Xidməti məlumat yayıb. Məlumatda deyilir ki, döyüş əməliyyatlarının başlanılmasından sonra bir çox ermənninin orduya çağırılmamaq məqsədilə vətəndaşlıqdan imtina etməsi və bu barədə Ermənistanın xarici ölkələrdə yerləşən səfirliklərinə, konsulluqlarına müraciət etməsini sübut edən sənədlər əldə edilib.

Əldə olunan digər faktlar isə təsdiq edir ki, Ermənistan Azərbaycana qarşı hərbi təcavüzündə xarici muzdlulardan, o cümlədən İraq və Suriya ərazisindən gətirilmiş PKK terrorçu qruplaşma üzvlərindən istifadə edir. Azərbaycanın Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ölkəmiz əleyhinə hərbi əməliyyatlarda iştirak edən PKK ilə əlaqəli terrorçuların radio danışıqları ələ keçib. Həmin səs yazılarında terrorçular erməni tərəfində vəziyyətin ağır və itkilərin çox olması, azərbaycanlılar tərəfindən dronların effektli tətbiqi barədə müzakirələr aparır, ermənilərin məlumatlarına aldanaraq münaqişə bölgəsinə gəldiklərindən peşmançılıq keçirdiklərini bildirirlər.

Fransanın "RFRİ" saytı məhz bu haqda yazı dərc edib. Həmin yazıda Livandan, Suriyadan gələn muzdluların məhz Ermənistan Ordusunda vuruşduqları qeyd edilir. Özü də onlar döyüşlər başlanan andan prosesə qoşulub. Bu fakt da onu deməyə imkan verir ki, işğalçı Ermənistan hazırkı hərbi təcavüzə çoxdan hazırlaşıb.

Ordumuzun anti-terror əməliyyatları nəticəsində məhv edilən erməni hərbçilərinin cəsədləri arasında başqa ölkələrdən gətirilən muzdlu döyüşçülərin meyitlərinin olması da yayılan məlumatları bir daha təsdiqləyir.

Göründüyü kimi, Ermənistanı xaos bürüyüb. Erməni xalqı indi anlayır ki, Prezident İlham Əliyev əbəs yerə onlara dəfələrlə müraciət və xəbərdarlıq etmirdi. İndi başa düşürlər ki, İlham Əliyevin şərtlərinə vaxtında əməl olunsaydı, bu vəziyyətə düşməzdilər.

İndi erməni əsgərinin ölməməsi üçün bircə çıxış yolu var: Azərbaycan torpaqlarından rədd olub getmək!

Daha çox itki vermək istəmirlərsə, könüllü olaraq torpaqlarımızdan çıxmalıdırlar. Yalnız onda birdəfəlik məhvdən canlarını qurtara bilərlər. Əks-təqdirdə Ali Baş Komandan İlham Əliyevin şərtində göstərildiyi kimi, sonuncu düşmən əsgəri torpaqlarımızı tərk edənə qədər hərbi əməliyyatlar dayandırılmayacaq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Düşmən Ağdamın işğal altında olmayan kənd və qəsəbələrini artilleriya atəşinə tutub - dinc sakinlər hədəfə alınır

**Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutmaqda davam edir.**

Ağdam rayonunun işğal altında olmayan kənd və qəsəbələrinin artilleriya atəşinə məruz qalması nəticəsində yaşayış evlərinə, yardımçı binalara, məktəblərə, mağaza və digər obyektlərə, elektrik və qaz təsərrüfatlarına ziyan dəyib, vətəndaşlara məxsus ev heyvanları tələf olub.




AZƏRTAC-ın bölgə müxbiri məcburi köçkünlər üçün salınmış qəsəbələrin birinə gedərək erməni hərbçilərinin vəhşiliklərini lentə alıb, sakinlərlə həmsöhbət olub. Güllücə kəndindən olan məcburi köçkün Məhəmməd Vəliyevin evi mərminin partlaması nəticəsində əşyaları ilə birlikdə yanıb. Məhəmməd Vəliyev o dəhşətli anları belə xatırlayır: "Həyətdə idik. Atılan yeddinci mərmi evimizə düşdü, yanğın baş verdi. Heç nə çıxara bilmədik. Bütün əşyalar yandı. Ancaq təəssüflənmirik, hər şey öz yerini alacaq. Bu evi dövlətimiz tikib vermişdi. Dağılan evlər yenidən tikiləcək, bərpa ediləcək. Təki əsgər və sabitlərimiz sağ olsun, təki torpaqlarımız işğaldan azad edilsin".

Aytəkin Novruzova: "Həyətdə oturmuşduq. Qəfildən mərminin biri evin arxasına - həyətə düşdü. Qəlpələr evimizə, meyvə ağaclarına zərər vurub. Təki salamatçılıq olsun, belə evlər əsgərlərimizə qurbandı. Əsgərlərimizin arxasında dayanmışıq. Heç yerə çıxmırıq. Gündəlik işimizlə məşğuluq. İnanırıq ki, bütün torpaqlarımız azad olacaq, bütün köçkünlər öz yurdlarına dönəcəklər".

# Baş Prokurorluq: "Düşmənin atəşi nəticəsində Füzuli rayonunun Qarabağ kəndində üç mülki şəxs xəsarət alıb"

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğalçı ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələri və silahsızlaşdırılmış zonalar, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən obyektlər, o cümlədən mülki əhalini hədəfə almaqla oktyabrın 9-da səhər saat 08 radələrindən başlayaraq Füzuli rayonunu müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutub.

Oktyabrın 9-da saat 09 radələrində Füzuli rayonunun Qarabağ kənd sakinləri 1982-ci il təvəllüdlü Əsədov Samir Hidayət oğlu, 1958-ci il təvəllüdlü İbrahimov Nizami Cəfər oğlu və 1968-ci il təvəllüdlü Abbasov Alman Ənvər oğlu yaşadıqları evlərə mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər. Onların yaşadıqları evlərə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

# Ermənilərin müqəddəs yerlərimizi hədəfə almaları bir daha onların barbarlığından xəbər verir

## Gəncədə "İmamzadə" ziyarətgahına atılan mərmi həm də dünya mədəni irsinə tuşlanmışdır

Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin ağır artilleriyadan atəşə tutulması sübut edir ki, düşmən artıq barbarlığa keçmişdir.




Son atəş zamanı bir mülki şəxsin həlak olması, 32 nəfərin yaralanması ilə bərabər, şəhərdəki obyektlərə, yaşayış binalarına, o cümlədən dövlət tərəfindən mühafizə edilən tarixi abidələrə xeyli ziyanın dəyməsi bunu bir daha təsdiqləyir.

Gəncədə hazırda 195 tarix-mədəniyyət abidəsi var. Həmin abidələrin biri dünya, 15-i ölkə, 169-u isə yerli əhəmiyyətlidir. Belə abidələrdən biri də "İmamzadə" ziyarətgah-kompleksidir. Kompleks son illər dövlət başçısı İlham Əliyevin, eləcə də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə tamamilə yenidən qurulmuşdur. Təəssüflər olsun ki, oktyabrın 4-də Ermənistan silahlı qüvvələri tərəfindən atılan mərmilərdən biri ziyarətgaha ziyan vurmuşdur.



Azərbaycan tərəfindən müvafiq beynəlxalq təşkilatlar vasitəsilə edilən çoxsaylı xəbərdarlıqlara baxmayaraq, Ermənistan mülki əhalini və obyektləri, həmçinin tarixi abidələri hədəfə almaqda davam edir. Bununla düşmən beynəlxalq humanitar hüququn, o cümlədən "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" UNESKO-nun 1954-cü il Haaqa Konvensiyasını, "Dünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESKO-nun 1972-ci il Konvensiyasını, hərbi münaqişələr zamanı mülki şəxslərin qorunması ilə bağlı 1949-cu il Cenevrə Konvensiyasını pozur.

Ermənistanın qədim Gəncəyə raket zərbələri endirməsi nəinki Azərbaycanı, eləcə də dünya mədəni irsini hədəfə aldığını və uzun illərdən bəri davam etdirdiyi vandalizm siyasətini bir daha nümayiş etdirir. Söz yox ki, erməni rəhbərliyinin Gəncənin atəşə tutulması ilə bağlı verdiyi göstərişlər onların barbar siyasətini açıb göstərməklə yanaşı, Ermənistanın təhlükəli bir terror ölkəsi olduğunu açıb göstərir.

Məlum olduğu kimi, Azərbaycan müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni mühitin formalaşdığı, ayrı-ayrı millətlərin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşadığı bir ölkədir. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub və bu gün milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycanın hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. İndi respublikamızda yaşayan bütün xalqlar özlərini bu ölkənin bərabərhüquqlu vətəndaşı hesab edirlər. Belə olmasaydı, bu gün Azərbaycanda yaşayan müxtəlif millətlərin nümayəndələri Dağlıq Qarabağ torpaqlarının işğaldan azad edilməsində fədakarlıq göstərməzdilər.

Azərbaycan tolerant ölkə kimi dünya mədəni irsinin qorunmasında da nümunə göstərir. Dövlətimiz bir çox ölkələrdə olan məscid və kilsələrin yenidən qurulmasında və bərpa edilməsində öz köməyini əsirgəmir. Xüsusilə Heydər Əliyev Fondunun bu sahədəki uğurları dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Bütün bunlar bir daha xalqımızın bəşəri irsə, dünya əhəmiyyətli abidələrin qorunmasına göstərdiyi diqqət və qayğının göstəricisidir.

Ermənistan Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal edərkən əsl vandalizm aktı həyata keçirmişlər. Azərbaycan xalqının guya dini-mədəni irsə qəddarcasına yanaşdığını iddia edən düşmən özü işğal olunmuş ərazilərimizdə dini abidələrimizi, eləcə də məscidlərimizi və kilsələri dağıtmışdır. Onların Azərbaycan Ordusunun guya Şuşadakı kilsəni raket zərbəsi ilə vurması barədə yaydıqları məlumat da öz təsdiqini tapmadı. Kilsədəki dağıntılar haqda erməni KİV-in yaydığı görüntüləri təhlil edən hərbi ekspertlər sübut etdilər ki, kilsənin içərisindən yayılmış təsvirlərdə heç bir yanğın əlaməti yoxdur. Divardan asılmış bütün şəkillərin yerində olması, ibadət yerinin dağılmaması, hətta şüşə çərçivələrin salamat olması onu deməyə əsas verir ki, kilsənin daxilində partlayış baş verməmişdir.

Göründüyü kimi, ermənilərin yalanı bu dəfə də üzə çıxdı. Ancaq Ermənistan silahlı qüvvələrinin Azərbaycanda dağıtdıqları dini-mədəni obyektlərin sayı onlarcadır. Elə Gəncədəki "İmamzadə" türbəsinin top mərmisi ilə vurulması buna sübutdur. Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin katibi, akademik Fuad Əliyev deyir ki, tarix boyu müqəddəs ziyarətgah kimi müsəlman dünyasında əhəmiyyətli mövqeyə malik olan "İmamzadə" türbəsi həm də Gəncədə yüksək şəhər mədəniyyətinin göstəricisi hesab olunur. Xalq arasında "Göy imam" adlandırılan bu müqəddəs ziyarətgahın VIII əsrdə ucaldılmış türbəsinin əsrlərlə əhali tərəfindən mühafizə olunması Gəncənin yüzilliklərə istinad edən şəhər mədəniyyəti mərkəzi kimi formalaşmasını təsdiqləyir. Abidə təkcə dini ziyarətgah kimi tanınmır. Bu möhtəşəm tarixi, dini abidə kompleksə çevrilib. Dövlətin diqqət və qayğısı ilə yenidən qurulan kompleks tariximizin dəyərli səhifəsidir.

Gəncədə ziyarətgah çoxdur. Bu ocaqlar yüz illərdir ki, insanların müqəddəs bildiyi məkanlardır. Lakin onların içərisində "İmamzadə" ziyarətgahı insanlara daha yaxındır. Yəqin ona görə də ermənilər şəhər əhalisini sındırmaq üçün buranı hədəfə almışdır. Xoşbəxtlikdən ziyarətgaha o qədər də ziyan dəyməyib. Azərbaycan Silahlı Qüvvələri ermənilərin atdıqları bombanı elə havadaca zərərsizləşdirə bilib.

Biz vəziyyətlə tanış olmaq üçün kompleksdə olduq. Qafqaz Müsəlmanları İdarəsinin Qərb bölgəsi üzrə nümayəndəsi Hacı Tahir dedi ki, şükürlər olsun, ziyarətgaha az ziyan dəyib. Əsasən insanların ziyarət etdikləri yerdə olan çılçıraq düşərək yararsız hala düşüb. Hacı Tahir onu da vurğuladı ki, "İmamzadə" ziyarətgahı müqəddəs yerdir, inşallah onu top atəşinə tutan ermənilər gec-tez öz cəzalarına çatacaqlar: "Bunu cəbhədən aldığımız xoş xəbərlər də sübut edir. Əminəm ki, dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin cəsarətli fəaliyyəti, ordumuzun dönməzliyi bu sevinci bizə yaşadacaq. İndi bütün Azərbaycan, eləcə də gəncəlilər o tarixi qələbə gününü səbirsizliklə gözləyirlər".

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




ABŞ-ın nüfuzlu "Washington Times" qəzetində səfir Elin Süleymanovun "ABŞ və digər böyük dövlətlər Ermənistanı təcavüzdən çəkindirməlidir" sərlövhəli müsahibəsi dərc edilib.

Jurnalistin Ermənistan-Azərbaycan münaqişəsində gərginliyin artmasının səbəbi ilə bağlı sualını cavablandıran səfir bildirib ki, son aylarda Ermənistan davamlı olaraq hərbi təxribatlara əl atıb və son gərginlik 12-14 iyulda Azərbaycanla beynəlxalq sərhəddə, Tovuz rayonu istiqamətindən ölkəmizə qarşı hücuma keçməsinin davamı kimi qiymətləndirilə bilər. O bildirib ki, Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən neft-qaz kəmərləri, Avropa ilə Asiyanı birləşdirən nəqliyyat infrastrukturu və hava dəhlizi məhz bu regionun yaxınlığından keçir. NATO Əfqanıstandakı kontingentini də bu tranzit bölgə vasitəsilə təchiz edir.

Səfir son hücumlar zamanı Ermənistanın mülki əhalinin yaşadığı yerləri artilleriya atəşinə tutması, dinc əhalini hədəf almasının təsadüfi olmadığını bildirərək, Ermənistan silahlı qüvvələrinin 1990-cı ilin əvvəllərində də total etnik təmizləmə həyata keçirmək məqsədilə məhz bu üsuldan istifadə etdiyini xatırladıb.

E.Süleymanov hazırda hərbi əməliyyatların Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində həyata keçirildiyini, Ermənistanın bu əraziləri işğal edərək regionda etnik təmizləmə apardığını qeyd edib. Onun sözlərinə görə, beynəlxalq hüquqa əsaslanan həll yolu dayanıqlı sülhün bərqərar olması ilə nəticələnəcək. Bu, Dağlıq Qarabağ regionunun azərbaycanlı və erməni icmalarının sülh və təhlükəsiz şəraitdə birgə yaşamasına imkan verəcək. Bundan başqa, dayanıqlı sülh regionun bütün potensialından istifadə olunmasına kömək edəcək, Ermənistanın xarici asılılıqdan qurtularaq, region ölkələri ilə inteqrasiya etməsinə şərait yaradacaq.

Səfir bildirib ki, tərəflər arasında dayanıqlı atəşkəsin əldə edilməsi üçün Ermənistan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələblərinə əməl edərək, öz silahlı qüvvələrinin işğal altındakı Azərbaycan ərazilərindən çıxarılmasını təmin etməlidir.

Rusiya və Ermənistan müttəfiqliyi barədə sualı cavablandıran səfir qeyd edib ki, Ermənistan ərazisində Rusiyanın hərbi bazaları mövcuddur. Həmçinin Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində Rusiyanın münaqişəyə birbaşa cəlb olunmasına ümid edərək, ölkəmizi təxribatlara təhrik etməyə çalışır. Səfir Türkiyənin bu münaqişəyə tərəf olmadığını, ölkəmizə yalnız diplomatik dəstək verdiyini də diqqətə çatdırıb.

ABŞ-ın proseslərdə iştirakı məsələsinə toxunan səfir bildirib ki, ABŞ Rusiya ilə birgə ATƏT-in Minsk qrupunun həmsədri və BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Bu səbəbdən Vaşinqton hər iki beynəlxalq təşkilatın qərarlarının icra edilməsində, sülh planının həyata keçirilməsində maraqlı olmalıdır.

Bu gün ABŞ atəşkəs üçün və mülki əhalinin qorunmasına israrlı çağırışlar edir. Eyni zamanda sülhün bərqərar olması üçün onun daha fəal addımlarına ehtiyac duyulur. ABŞ, ilk növbədə, Ermənistanı Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərində hərbi əməliyyatların dayandırılmasının, silahlı qüvvələrini işğal altındakı ərazilərdən çıxarmasının vacibliyinə inandırmalıdır.

Müsahibənin tam versiyası ilə https://www.washingtontimes.com/news/2020/oct/7/elin-suleymanov-azerbaiyan-envoy-says-big-powers-m/ internet səhifəsində tanış olmaq mümkündür.

❖ ❖ ❖




Özbəkistanın "interpress.uz" portalı rus dilində Azərbaycan Prezidenti İlham Əliyevin CNN-Türk televiziyasına müsahibəsinin əsas tezislərini və müsahibədən hissələr çap edib.

AZƏRTAC portala istinadla xəbər verir ki, tezislər belə sistemləşdirilib - Azərbaycan Ordusu ərazi bütövlüyünü bərpa edir; mülki əhaliyə qarşı zorakılıq Ermənistanın faşist mahiyyətini bir daha nümayiş etdirir; Fransa prezidenti Makronun bəyanatı ATƏT-in Minsk qrupunun mandatına ziddir; bu gün Ermənistana müxtəlif dünya ölkələrindən terrorçular gətirilir; bu gün Dağlıq Qarabağda bir azərbaycanlı belə yaşamır, onları qovublar; Türkiyə bizim üçün təkcə müttəfiq yox, həm də dost dövlətdir; Mingəçevir elektrik stansiyasının atəşə tutulması cinayətdir; uzun illər ərzində bizə qarşı qara təbliğat aparılır...

"Fikr.uz" portalı isə yazır ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini pozaraq dinc əhaliyə qarşı terrorçuluq fəaliyyətini davam etdirir. Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin, Bərdə, Ağcabədi, Goranboy, Tərtər, Ağdam rayonlarının müxtəlif silahlardan atəşə tutulması davam edir. Ölənlər və yaralananlar var.

Materialda Dağlıq Qarabağın tarixi haqqında da məlumat verilir.

❖ ❖ ❖




Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Euronews", CNN Türk" telekanalına verdiyi müsahibələrdəki fikirləri Gürcüstan mətbuatında geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Gürcüstanın nüfuzlu report.ge, sputnik-georgia.ru, pia.ge, interpressnews.ge və digər informasiya portallarında və 1tv.ge, televiziya kanalında yayımlanan materiallarda Azərbaycan Prezidentinin Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və həlli yolları ilə bağlı fikirləri yer alıb.

Materiallarda Azərbaycan Prezidentinin Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağdan çıxarılması ilə bağlı tələbi, müharibənin Azərbaycan ərazisində getməsi və Ordumuzun əks-hücum əməliyyatlarının məqsədi, Ermənistan Xarici İşlər Nazirliyinin ATƏT-in Minsk qrupu çərçivəsində görüşdən imtina etməsi, eləcə də Azərbaycan hökumətinin Ermənistanın törətdiyi hərbi cinayətlərin sübuta yetirilməsi ilə bağlı dəlillərə malik olması barədə sitatlar gətirilib.

❖ ❖ ❖




Türkiyənin nüfuzlu kütləvi informasiya vasitələri Ermənistanın təxribatları nəticəsində bölgədə yaranmış hərbi gərginliklə bağlı Azərbaycana qardaşlıq dəstəyini davam etdirir.

AZƏRTAC xəbər verir ki, qardaş ölkə KİV-i cəbhədəki vəziyyətlə bağlı həqiqətləri ən yeni xəbərlərlə dünya ictimaiyyətinə çatdırır. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı informasiyalar operativ qaydada təqdim olunur. O cümlədən düşmən ordusunun biabırçı məğlubiyyəti, Paşinyan hökumətinin rəzil vəziyyətinə geniş yer verilir. Oktyabrın 8-də qardaş ölkə mediası Prezident İlham Əliyevin mesajları əsasında təhlillər aparıb, Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyənin ali rəhbər şəxslərinin Qarabağ münaqişəsi ilə bağlı qətiyyətli mövqelərini bir daha geniş formatda yayıblar. Məlumatlarda, o cümlədən Türkiyə ictimaiyyətinin Azərbaycana göstərdiyi həmrəyliyə, xalqımızın namərd düşmən hücumlarına qarşı qətiyyətli dayanışına da diqqətlə yanaşılır.

Məlumatlarla Anadolu, İHA, DHA agentlikləri, TRT Haber, Haber Türk, TGRT, A Haber, Büngü TV, CNN türk telekanallarının, habelə "Akşam", "Təqvim", "Sözçü", "Yeni çağ" və s. nüfuzlu qəzetlərin saytlarında tanış olmaq mümkündür.

❖ ❖ ❖




Ermənistanın Azərbaycana qarşı son təxribatları nəticəsində Dağlıq Qarabağda yaranan qarşıdurma Yaponiya KİV-nin də diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, Yaponiyanın nüfuzlu telekanalları, tanınmış informasiya agentlikləri, geniş oxucu auditoriyasına malik olan qəzetləri hər gün cəbhədə mövcud vəziyyət barədə məlumatlar, qarşıdurma ilə əlaqədar maraqlı tərəflərin açıqlamalarını və müxtəlif analitik yazılar yayırlar.

Oktyabrın 8-də nüfuzlu MHK telekanalı qarşıdurma ilə əlaqədar yaydığı məlumatlarda Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibəsində atəşkəsdən sonra vasitəçilik missiyasında Türkiyənin xüsusi yer almasını arzuladığını qeyd etdiyini bildirib. Həmin məsələ ilə əlaqədar jurnalistin sualını cavablandıran Azərbaycan Prezidenti deyib: "Eskalasiyanın azalması, möhkəm sülhün bərqərar olması, əməkdaşlığın inkişafı üçün regionda baş verən hadisələrə kimin real müsbət təsir göstərə biləcəyini nəzərə almaqla, şübhəsiz, fəal döyüş əməliyyatları başa çatandan sonra həyata keçiriləcək vasitəçilik missiyasında Türkiyənin böyük ölkə kimi, bizim qonşumuz, Cənubi Qafqazda qonşumuz kimi iştirak etməyə tamamilə haqqı var. Əlbəttə, hesab edirəm ki, bunlar, ilk növbədə, Türkiyə və Rusiyadır".

Yazıda son hadisələrə qədər tərəflər arasında münaqişənin həlli üçün ABŞ, Fransa və Rusiyanın həmsədrliyi ilə ATƏT-in Minsk qrupu çərçivəsində müzakirələrin artıq uzun müddətdir ki aparıldığı, lakin buna baxmayaraq, heç bir nəticənin əldə edilmədiyi vurğulanır.

Məlumatlarda tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağda ağır döyüşlərin getdiyi, bu günədək hər iki tərəfdən ölənlərin olduğu da qeyd edilir.

❖ ❖ ❖




Rumıniyanın AGERPRES milli xəbər agentliyi Azərbaycanın bu ölkədəki səfiri Hüseyn Nəcəfovun "Azərbaycan Ordusu öz ərazisində ölkəmizin ərazi bütövlüyünü qoruyur" sərlövhəli məqaləsini yayımlayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə cari il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozduğu, təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutaraq, ölkəmizə qarşı növbəti təcavüzə əl atdığı, mülki əhali və hərbçilərimizin həlak olduğu, evlərə və mülki infrastruktura güclü ziyan dəydiyi vurğulanıb. Qeyd edilib ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərini həyata keçirir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini intensiv atəşə tutmaqda davam etdiyini bildirən diplomat mülki şəxslərin bilərəkdən hədəfə alındığını, 500 mindən çox əhalisi olan Azərbaycanın ikinci böyük şəhəri Gəncə, strateji əhəmiyyət daşıyan sənaye şəhəri Mingəçevir, habelə Beyləqan, Bərdə, Ağcabədi, Goranboy, Yevlax və digər rayonların istifadəsi qadağan edilən raket və qurğulardan atəşə tutulduğunu, döyüş bölgəsindən xeyli məsafədə yerləşən Xızı və Abşeron rayonlarına ortamənzilli iki raketin atıldığını diqqətə çatdırıb. Həmçinin Ermənistan dövlətinin Azərbaycanın enerji və mühüm strateji infrastrukturlarına qarşı hücumları barədə məlumat verən Hüseyn Nəcəfov beynəlxalq layihə olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin kaset bombaları ilə atəşə tutulduğunu, Ermənistan hökumətinin həm region, həm də enerji sektorunun mühüm iştirakçısı olan dövlətlərin fəaliyyəti üçün təhdid yaratdığını, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan, Gürcüstan, Türkiyə və bütövlükdə bölgə, Avropa və ümumən dünya üçün iqtisadi, siyasi və enerji təhlükəsizliyi baxımdan çox böyük əhəmiyyətə malik olduğunu bildirib.

Məqalədə Ermənistanın Azərbaycana qarşı növbəti təcavüzü nəticəsində beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarının kobud şəkildə pozulduğu qeyd edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətində ölkəmizə qarşı hərbi təxribata görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyü, Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" bəyanatının danışıqlar prosesini mənasız etdiyi və danışıqlar formatını dəyişdirmək cəhdi kimi qiymətləndirildiyi diqqətə çatdırılıb.

Prezident İlham Əliyevin hərbi əməliyyatların dayandırılması üçün yeganə şərtin Ermənistan qoşunlarının Dağlıq Qarabağdan çıxarılması olduğunu dəfələrlə bəyan etməsi məqalədə xüsusi vurğulanıb.

Qeyd edilib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrində qeyri-qanuni mövcudluğunun regionda sülhə və sabitliyə ciddi təhlükə olduğuna yaxşı bələd olan beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini və təxribatçı əməllərini kəskin şəkildə qınamalı və işğalçı ölkəni beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüququn öhdəliklərini yerinə yetirməyə məcbur etməlidir.

Həmçinin bildirilib ki, Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya birgə bəyanat imzalayaraq Ali Baş Komandan, Prezident İlham Əliyevin Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi və hərbi tədbirləri yekdilliklə dəstəkləyir və onun yanındadır.

Səfir Hüseyn Nəcəfov məqalədə Azərbaycanın mövqeyinin beynəlxalq hüquqa və ədalətə əsaslandığını, bu gün Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünü öz ərazilərimizdə qoruduğunu və ədaləti bərpa etdiyini vurğulayıb.

❖ ❖ ❖




Ukraynanın nüfuzlu "Qordon" nəşri Ermənistanın müharibə cinayətlərinə dair məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə rayonunun yaşayış məntəqələrini raket və artilleriya mərmilərindən intensiv atəşə tutduğu qeyd olunur.

"Oktyabrın 8-də saat 11 radələrində Bərdə şəhərinin mərkəzində yerləşən "Qədim Bərdə" restoranına raketin düşməsi nəticəsində həmin vaxt orada olan 2 nəfər şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib. Eyni zamanda Bərdə şəhər 5 nömrəli tam orta məktəbin yaxınlığına düşmüş raketlər 5 nəfərin yaralanmasına səbəb olub, o cümlədən məktəbin binasına, çoxsaylı nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib", - məlumatda bildirilir.

❖ ❖ ❖




Misirin "Almasryalyoum" qəzetində və "Aldiplomasy" internet nəşrində Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların Dağlıq Qarabağ məsələsində Fransanın mövqeyinə dair bəyanatı yerləşdirilib.

AZƏRTAC-a istinadla yerləşdirilən bəyanatda Misir ictimaiyyətinə məlumat verilib ki, siyasi partiyalar Fransa prezidenti Emmanuel Makronun sentyabrın 30-u Latviyanın paytaxtı Riqada Ermənistan-Azərbaycan münaqişəsi və cəbhədə baş verənlərlə bağlı həqiqətə uyğun olmayan qeyri-ciddi açıqlamaları, onun qərəzli şəkildə işğalçı Ermənistanı müdafiə etməsini qətiyyətlə pisləyir. Qeyd olunub ki, onun Fransa kimi dövlətin prezidenti olaraq saxta məlumatlar və şayiələr əsasında, heç bir dəlil-sübut olmadan ölkəmizə böhtan atması Azərbaycan ictimaiyyətinin kəskin etirazına səbəb olub və biz qəti əminik ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi tərəfsizliyini qoruya bilmir.

Misir KİV-nin yerləşdirdiyi bəyanatda vurğulanıb ki, Fransa işğalçı Ermənistanı dəstəkləyir, obyektiv deyil, işğalçının yanındadır və vasitəçilik missiyasını yerinə yetirmir. Ona görə də Fransanın Minsk qrupunun həmsədrliyindən çıxarılması müzakirə edilməlidir.

❖ ❖ ❖




"Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ uğrunda yeni müharibə ilə əlaqədar Rusiya və İranın eyni gündə verdiyi bəyanatlardan sonra aşkar görünür ki, Yerevan Türkiyənin qəti dəstəyinə arxalanan Bakı ilə indiki hərbi qarşıdurmada siyasi və hərbi baxımdan tamamilə təcrid olunub".

AZƏRTAC xəbər verir ki, bunu Rusiyanın "Rosbalt" federal analitik informasiya agentliyi yazır.

Agentlik xatırladır ki, Ermənistan və Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvləridir. Bu təşkilatın Nizamnaməsinə əsasən həmin blokun üzvü olan ölkələrdən birinə hərbi hücum blokun digər üzvlərinə də hücum edilməsi və beləliklə, onların tərəfindən hərbi kömək deməkdir. Üstəlik, yeni müharibənin ilk günlərində kütləvi informasiya vasitələrində belə bir məlumat (yeri gəlmişkən, Tehran həmin məlumatı təkzib etdi) yayıldı ki, Rusiya İranın hava səması vasitəsilə Ermənistana MiQ-29 markalı 3 qırıcı təyyarə göndərib.

Hər şeydən görünür ki, Kreml Qarabağ məsələsində öz mövqeyini qəti müəyyən edib. RF Prezidenti Vladimir Putin oktyabrın 7-də "Rossiya" telekanalına müsahibəsində xüsusi olaraq vurğulayıb ki, döyüş əməliyyatları Ermənistan ərazisində aparılmır. Beləliklə, Ermənistana kömək göstərməkdən imtina edilib.

Materialda qeyd edilir ki, Nikol Paşinyanın qondarma "DQR"in müstəqilliyini təsdiqləmək barədə təhdidi qaraqorxu ola bilər, lakin bu təhdid gerçəkləşərsə, NATO-nun ruhuna məlhəm olacaq və Rusiyaya güclü ziyan vuracaq.

Müəllif daha sonra yazır ki, yaxın vaxtlara qədər Ermənistanın baş naziri Nikol Paşinyan İranın da dəstəyinə müəyyən dərəcədə ümid bəsləyirdi. Son illərdə İranla Yerevan arasında kifayət qədər sıx ticari-iqtisadi əlaqələr və mehriban qonşuluq münasibətləri yaranıb. Lakin Putin Qarabağ məsələsində Kremlin mövqeyini bəyan etməsi ilə demək olar ki, eyni vaxtda İran da İslam Respublikasının xarici siyasət məsələləri üzrə ruhani liderinin köməkçisi Əli Vilayətinin vasitəsilə eyni hərəkəti edib. Vilayəti bəyan edib ki, Ermənistan "Dağlıq Qarabağın ərazisini Azərbaycana qaytarmalıdır".

Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, İran problemləri üzrə ekspert Vladimir Sajinin sözlərinə görə, Ermənistan-Azərbaycan münaqişəsində rəsmi Tehranın mövqeyinin bu cür kəskin dəyişməsi onunla bağlıdır ki, əvvələn İranda 18 milyondan 25 milyona qədər etnik azərbaycanlı yaşayır. Bu, 82 milyon əhalisi olan ölkənin sakinlərinin təqribən dörddəbir hissəsi deməkdir. İkincisi, İslam Respublikasının Ali Rəhbəri Əli Xamenei də milliyyətcə azərbaycanlıdır.

Bu mənzərəni tamamlayan daha bir mühüm məqam var. Ermənistana dost ölkə olan Gürcüstan bu günlərdə bəyan edib ki, hər iki döyüşən dövlətdən ötrü hərbi təyinatlı yüklərin daşınması üçün öz ərazisini və hava səmasını bağlayır. Rusiya ilə ortaq sərhədi və dənizə çıxışı olmayan Ermənistan üçün bütün bunlar praktiki olaraq tam blokada deməkdir. Azərbaycan isə əksinə, məsələn, Türkiyədən, İsraildən və başqa ölkələrdən silah və sursatı necə alırdısa, yenə eləcə alacaq.

Dağlıq Qarabağ uğrunda Azərbaycanla yeni müharibədə Ermənistanın vəziyyətini gərginləşdirən bir amil də ondan ibarətdir ki, bu məsələdə beynəlxalq hüquq Ermənistanın tərəfində deyil. BMT Qarabağı birmənalı olaraq Azərbaycanın tərkib hissəsi hesab edir. Faktiki olaraq, bu şəraitdə Yerevan yalnız Qərb ölkələrinin nümayəndələrinin bir hissəsinin ermənilərə rəğbətinə, bir də öz ordusuna ümid bəsləyə bilər. Lakin əldə olan məlumata görə, döyüş meydanında da Ermənistanın vəziyyəti yaxşı deyil. Görünür, cəbhədə işlər erməni silahlı qüvvələrinin zərərinə gedir.

Lakin hələlik Ermənistanın baş nazirinin gözlədiyi "Qarabağ ordusunun qəti qələbəsi" əlamətləri görünmür. Məsələ təkcə onda deyil ki, daha yoxsul olan Ermənistan uzun illər ərzində ən yeni silah növləri üçün ondan qat-qat varlı Azərbaycanın eyni məqsədlər üçün sərf etdiyi qədər vəsait sərf edə bilməyib. Hərbi ekspert Pavel Felgenhauer "Rosbalt" müxbiri ilə söhbətində qeyd edib ki, "Ermənistan əvvəlki müharibəyə hazırlaşıb", müasir texnikadan daha çox öz əsgərlərinin döyüş ruhuna güvənib.

Bu cür müharibəqabağı strategiyanın nəticələri bu gün döyüş meydanında özünü göstərir. Ekspert deyib: "Azərbaycan müharibədən əvvəl Ermənistan üzərində texniki üstünlüyə malik idi, indi isə sadəcə qalib gəlir. Artıq 10 gündür ki, Azərbaycan qoşunları təşəbbüsü əldə saxlayırlar, bu isə ciddi məsələdir. Ermənilər təşəbbüsü öz əllərinə ala bilmirlər. Erməni silahlı qüvvələrinin əks-zərbələr endirmək cəhdləri uğursuz olur. Onlar hətta bu əks-zərbələri cəmləşdirə bilmirlər, çünki onların dəstələri Azərbaycanın yaylım atəşli artilleriya vasitələrinin, pilotsuz uçuş aparatlarından informasiya alan aviasiyanın daimi zərbələri altındadır".

Hazırda döyüş meydanında vəziyyətin Ermənistanın xeyrinə olmamasını göstərən bir fakt da ondan ibarətdir ki, Nikol Paşinyan baş nazir olduğu bütün müddətdə bəlkə də ilk dəfə Dağlıq Qarabağ məsələsində Azərbaycanla kompromisin mümkünlüyü barədə danışıb. Xatırlayırıq ki, əvvəl onun sözünün mahiyyəti belə idi: "Qarabağ Ermənistandır və nöqtə".

Felgenhauer əmindir ki, baş nazir Paşinyan bu müharibədə məğlub olacağı halda öz vəzifəsini itirməyə risk edir. Ekspert daha sonra deyib ki, Ermənistanın bu müharibəyə hazır olmamasında təkcə Paşinyan təqsirkar olmasa da, "buna görə o cavab verməli olacaq".

Ekspertin fikrincə, indiki vəziyyətdə istisna olunmur ki, "şəhərlərin müharibəsi, yəni Yerevanın və Bakının atəşə tutulması başlana bilər, bu isə həmin müharibəyə qoşulmaq istəməyən Rusiyanı ona cəlb edə bilər". Ekspertin fikrincə, əgər Azərbaycan Qarabağ problemini silah gücünə həll edərsə, Ermənistanda isə bunun nəticəsində Paşinyan hökuməti süqut edərsə, bu, Moskvanı tamamilə qane edəcək.

Belə şəraitdə ermənilər həqiqətən yalnız özlərinə ümid edə bilərlər. Lakin indi onların hərbi-siyasi imkanları çox məhduddur.

Aviasiya üzrə ekspert Vadim Lukaşeviçin fikrincə, Azərbaycan tərəfindən Türkiyədən və İsraildən alınmış müasir pilotsuz uçuş aparatlarının tətbiq edilməsi Ermənistanla indiki müharibədə Azərbaycan Ordusunun üstünlüyünü təmin edib.

V.Lukaşeviç "Rosbalt"a müsahibəsində deyib: "Suriya, Liviya, indi isə həm də Dağlıq Qarabağ göstərir ki, pilotsuz uçuş aparatları hərbi əməliyyatların, xüsusən lokal hərbi əməliyyatların aparılması texnikasını ümumiyyətlə dəyişir. Qarabağ müharibəsi Dağlıq yerdə aparılır və burada dronlar, ən azı hava hücumundan müdafiə vasitələrinin, zirehli tank texnikasının və başqa silahların dəf edilməsi baxımından özlərini yaxşı göstərir".

Ekspertin sözlərinə görə, "indi Ermənistan geri çəkilir, Azərbaycan havada üstünlüyə malikdir, müasir müharibədə hər hansı hərbi əməliyyatlar üçün bu, çox vacibdir". Bundan əlavə, pilotsuz uçuş aparatları təyyarə və ya helikopterlə müqayisədə daha ucuzdur, onların itirilməsi o qədər də təhlükəli deyil, pilotlu aviasiya vasitələri ilə müqayisədə pilotsuz uçuş aparatlarını daha çox sayda tətbiq etmək olar, onlar əlaqələndirilmiş şəkildə uça bilərlər. Bu gün dronlar ordu həmlə təyyarələrinin funksiyasını öz üzərinə götürürlər. Onlar müharibənin, xüsusən regional müharibənin simasını dəyişir".

❖ ❖ ❖



Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı ilə başlayan və Azərbaycan Ordusunun zəfər yürüşü ilə davam edən xalqımızın Vətən müharibəsi ilk gündən ərəb KİV-də geniş işıqlandırılıb.

Azərbaycanın Misirdəki səfirliyi mütəmadi olaraq bu ölkənin KİV-ni məsələ ilə bağlı məlumatlandırıb, Prezident İlham Əliyevin xalqa müraciətini, nüfuzlu televiziya kanallarına müsahibələrini, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin açıqlamalarını, Xarici İşlər və Müdafiə nazirliklərinin məlumatlarını gündəlik olaraq yerli qəzet, informasiya portalları və televiziya kanallarında yayıb. Səfir Tural Rzayev də Misir jurnalistlərinə müsahibələr verib. Diplomatik nümayəndəliyimiz tərəfindən ümumilikdə AZƏRTAC-ın ərəb dilində yayılmış 100-dən çox xəbəri Misir KİV-də yer alıb.

Azərbaycanın ədalətli mövqeyi ilə bağlı misirli jurnalist və politoloqlar Məhəmməd Səlamə, Əhməd Əbdo Tərabik, Əbubəkir Əl Məcd, Əmirə Əbdülhəkim, Məhəmməd Rəfətin, iordaniyalı politoloq Ömər əl-Armutinin məqalələri yerli KİV-də dərc edilib.

Müharibənin ilk günlərində Misir, İordaniya və Birləşmiş Ərəb Əmirliklərindəki diaspor təşkilatlarımız da həmin ölkələrin mətbuatında bəyanatlarla çıxış ediblər.

Bundan başqa, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İordaniyanın KİV-də diplomatlarımızın müsahibələri yer alıb. Nüfuzlu "Əl-Ərəbiyə", "Aljazeera", "İ24 News Arabic" telekanalları Azərbaycanın haqlı mövqeyini işıqlandıran reportajlar, ölkəmizin BƏƏ-dəki səfiri Mahir Əliyevin müsahibəsini yayıblar.

AZƏRTAC-ın ərəb dilində informasiya bölməsi və Qahirədəki müxbir məntəqəsi də agentliyin materiallarını yayıb, müxtəlif KİV-də videoformatda təşkil edilən 20-dən çox müzakirələrdə iştirak ediblər. Agentliyin ərəb dilində informasiya bölməsinin müdiri Misirin "Masr al-arabi" xəbər portalına Ermənistanın Tovuz rayonunda və Qarabağda cəbhə xəttindəki son təxribatları barədə müsahibə verib. Həmin müsahibə bir sıra ərəbdilli KİV-də, o cümlədən "khabarmasr" , "mjmez" jurnalı, "alestadnews", "lomazoma", "Sada al-arab", "npa-ar.com", "elfagrsport" xəbər portallarında yayılıb. Həmçinin cəbhədə baş verən son hadisələrlə bağlı "TRT Arabic", "Əl-Ərəbiyə", "Rusiya əl-Yaum", "əl-Ərəbi", "Vatan", "BBC Arabic" radiosu, "BBC Arabic", "əl-Hurra", "əl-Məyadin" telekanallarının və Əlcəzair Milli Radiosunun birbaşa efirində dəfələrlə çıxışlar edilib.

❖ ❖ ❖

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun İsrailin "The times of İsrail" portalında Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqda oynadığı əhəmiyyətli rol haqqında məqaləsi fransız dilində, Almaniyanın "Next24" xəbər portalında isə Dağlıq Qarabağ münaqişəsinin dini və milli zəmində olmaması barədə məqaləsi alman dilində dərc edilib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məqalədə Dağlıq Qarabağ ətrafında, xüsusilə bir sıra beynəlxalq KİV-də Ermənistanla Azərbaycan arasında münaqişəyə iki yanaşma olduğu qeyd edilir. Müəllif




bildirir ki, opponentlər ya münaqişəni dini səviyyəyə çıxarmağa çalışır, ya da gərginliyin "etnik səbəblər" üzündən artdığını iddia edirlər. Məqsəd münaqişəyə daha çox tərəfləri cəlb etmək və ictimai fikirləri manipulyasiya etməklə dini fərqlilikləri üzə çıxarmaqdır. Digər məqsəd isə "xristian ermənilər yenidən müsəlmanlar tərəfindən qətlə yetirilir" mifini beynəlxalq aləmə, xüsusilə də Qərb dünyasına çatdırmaqdır. Böhtan kampaniyası əvvəlcədən proqnozlaşdırılırdı. Münaqişənin dini səbəblərdən meydana çıxması ilə bağlı ittihamlar xəstə təxəyyülün nəticəsidir. Çünki Azərbaycanda dinlər və ya konfessiyalar arasında heç vaxt insident olmadığı üçün narahatlığa heç bir səbəb yoxdur və bundan sonra da olmayacaq. Azərbaycanda müxtəlif dinlərin nümayəndələri sərbəst ibadət edir və dini ayinləri heç bir maneə olmadan yerinə yetirirlər. Hər bir ibadət yeri dövlətin birbaşa dəstəyi ilə tikilir, təmir edilir və qorunur.

Digər ekstremal təbliğatçılar qrupunun fikrincə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi etnik xarakter daşıyır. Erməni məmurları bu təxribatçı iddianı möhkəmləndirmək üçün Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrini əks-mövqe sərgiləməyə çağırsalar da, onların çağırışına səs verən olmadı. Etnik və dini kimliyindən asılı olmayaraq, bu gün bütün azərbaycanlılar qatı düşmənə qarşı çiyin-çiyinə mübarizə aparırlar, heç vaxt ölkədənkənar siyasi çağırışların və təbliğatın qurbanı olmurlar".

Qarabağda yaşayan etnik ermənilərin Ermənistan tərəfindən münaqişə qurbanları kimi istifadə edilməsinin vurğulandığı məqalədə, həmçinin deyilir: "Bu gün Ermənistandan fərqli olaraq Azərbaycan monoetnik dövlət deyil, ölkəmizdə multikulturalizm siyasəti uğurla həyata keçirilir. Azərbaycanın ədalətli mübarizəsi nə dini, nə də etnik mübarizə deyil. Bunu, sadəcə olaraq, Azərbaycanın tarixinə, dövlətimizin dini və ya etnik müxtəlifliyinə nəzər salmaqla sübuta yetirmək olar. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin səbəbi Ermənistanın ərazi iddiaları və işğalçı siyasətidir. Azərbaycan ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması və bir milyondan artıq vətəndaşımızın öz dədə-baba torpaqlarından didərgin düşməsi beynəlxalq cinayətdir. Bunu təsdiq edən yüzlərlə sənəd və fakt var. Lakin elə edirlər ki, təxminən 30 ildir problem ədalətli həllinə mail olunmur. Ona görə də biz işğal altındakı torpaqları geri qaytarmaq üçün güclü olmağa və öz hüquqlarımızı özümüz həll etməyə davam etməliyik. Bu hibrid və çoxvektorlu müharibədə qələbə Azərbaycanın olacaqdır. Hər bir azərbaycanlı münaqişəyə şərəf uğrunda birgə mübarizə kimi baxır. Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Malayziyanın dövlət informasiya agentliyi BERNAMA Azərbaycan Prezidenti İlham Əliyevin rusiyalı həmkarı Vladimir Putinlə telefon danışığını AZƏRTAC-a istinadla yayıb.

Məlumatda Azərbaycanın dövlət başçısının Rusiya Prezidentini doğum günü münasibətilə təbrik etdiyi bildirilir. Qeyd olunur ki, Azərbaycan Prezidenti Vladimir Putinə cansağlığı və Rusiyanın inkişafı naminə dövlətçilik fəaliyyətində uğurlar arzulayıb.

Rusiya Prezidenti azərbaycanlı həmkarına göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı iki ölkə liderlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı davam edən gərginlik barədə müzakirələr apardıqları da bildirilir.

Qeyd edilir ki, Prezident İlham Əliyev və Prezident Vladimir Putin iki ölkə arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi də aparıblar.

❖ ❖ ❖

Özbəkistanın "human.uz" və "interpress" xəbər portallarında cəbhə zonasında son vəziyyətlə əlaqədar materiallar çap olunub.

AZƏRTAC xəbər verir ki, yazılarda Ermənistanın Yevlax rayonunun ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinə kaset bombalarından hücum olunub və raket kəmərin 10 metrliyinə düşüb.

Yazıda qədim Gəncə şəhərinə də kasetli raketin atıldığı bildirilir.

"Interpress.uz" portalı Ermənistanın münaqişəyə PKK terrorçularını, həmçinin Suriya və İraqdan olan muzdluları cəlb etdiyini yazır. Bildirilir ki, Azərbaycanın xüsusi xidmət orqanları PKK terrorçularının danışıqlarının səs yazısını əldə edib. Onların danışıqlarında Azərbaycanın güclü ordusu olduğu, Azərbaycan Silahlı Qüvvələrinin pilotsuz uçuş aparatlardan səmərəli istifadə etdiyi, erməni tərəfdən çox sayda ölənin olduğu bildirilir.

Məqalələrdə Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinin tarixi, Dağlıq Qarabağ və ətraf 7 rayonun işğalı, Azərbaycan Ordusunun Cəbrayıl şəhərini və rayonun bir sıra kəndlərini azad etməsi barədə məlumatlar da verilir.

Elm xadimləri

# Dünya şöhrətli ərəbşünas alim

**Oktyabrın 10-u adı Azərbaycanda, eləcə də keçmiş sovet ərəbşünaslıq mərkəzlərində böyük ehtiram və hörmətlə çəkilən görkəmli alim, professor Aida İmanquliyevanın anadan olduğu gündür. Əfsuslar olsun ki, filologiya elmləri doktoru, Azərbaycanda ərəbşünaslar arasında ilk professor qadın olan Aida xanımın mənalı ömrü uzun sürmədi. O, yaradıcılığının çiçəkləndiyi vaxtda - 1992-ci il sentyabr ayının 19-da əbədiyyətə qovuşdu.**



Aida xanım Bakıda tələbəlik və Moskvada aspirantlıq illərindən sonra həyatının qalan hissəsini AMEA-nın Şərqşünaslıq İnstitutunda keçirmişdir. Kiçik elmi işçi kimi fəaliyyətə başlayan alim baş elmi işçi, şöbə müdiri, institut direktorunun müavini və nəhayət, institutun direktoru vəzifələrində çalışmışdır.

Görkəmli ərəbşünas Şərqşünaslıq İnstitutunda çalışdığı 20 il ərzində zəngin elmi irs qoyub getmişdir. Bu müddətdə onun üç monoqrafiyası, 70-ə qədər məqaləsi, ərəb yazıçılarından etdiyi 10-dan çox oxunaqlı hekayənin tərcümələri çapdan çıxmışdır. Bundan başqa, alim neçə-neçə məqalələr məcmuəsinin redaktoru olmuşdur. Eyni zamanda Aida xanım keçmiş SSRİ-də, eləcə də xaricdə keçirilmiş beynəlxalq elmi konfranslarda Azərbaycan şərqşünaslığını ləyaqətlə təmsil etmişdir. Onun 1983-cü ildə Moskvada akademik İ.Y.Kraçkovskinin anadan olmasının 100 illiyi, 1989-cu ildə Ukraynanın Poltava şəhərində Livan yazıçısı Mixail Nüaymənin 100 illiyi ilə əlaqədar təşkil edilmiş eimi məclislərdə, həmçinin Almaniyanın Halle şəhərində Dünya Şərqşünaslarının II konfransında və başqa beynəlxalq səviyyəli tədbirlərdə məruzə və çıxışları rəğbətlə qarşılanmışdır. Aida xanım həmçinin bir sıra nüfuzlu elmi təşkilatların üzvü seçilmişdir.

Aida İmanquliyeva ötən əsrin 70-80-ci illərində istər Azərbaycanda, istərsə də ümumittifaq miqyasında məşhur ərəbşünas kimi tanınırdı. Alimi məşhurlaşdıran ərəb məhcər (mühacirət) ədəbiyyatı ilə bağlı apardığı tədqiqatlar idi. O, ərəb ədəbiyyatının bu qoluna hələ aspiranturada oxuduğu illərdə müraciət etmişdi. Ərəblərin özləri belə, professor İ.Filştinski demişkən, ərəb ədəbiyyatının həmin qolu barədə təsəvvürsüz idilər, hətta onun ABŞ-da yazıb-yaratmış nümayəndələrinin adlarını bilmirdilər. Məhcər ədəbiyyatını təmsil edən ədibləri isə Rusiyada İ.Y.Kraçkovskidən başqa heç kim tanımırdı.

Aida xanım əvvəlcə ərəb məhcər ədəbiyyatının araşdırıcısı kimi tanınmışdır. Sonralar o, ümumi ərəb ədəbiyyatını araşdırmağa başlamışdır. Daha sonra alim İraq, Misir, Fələstin, Suriya ədəbiyyatlarının ümumi mənzərəsini tədqiq edərək həm elmi məqalələr yazmış, həm də aspirantlarına bu mövzularla tövsiyə və göstərişlər vermişdir. Bundan əlavə, Aida xanım Şərq xalqlarının müştərək bayramı olan Novruz bayramına toxunmuş və bu mövzuda elmi məqalə yazmışdır.

Aida xanım məhcər ədəbiyyatı ilə yanaşı, ərəb ədəbiyyatının müəyyən dövrləri, Əndəlus ədəbiyyatı, İslam dini ilə də tədqiqatlar aparmışdır. Alimin ərəb ədəbiyyatının qədim, istərsə də müasir dövrləri, eləcə də ərəb-Azərbaycan, ərəb-rus ədəbi əlaqələri barədə bir sıra məqalələri vardır ki, bu əsərlər elmiliyi, məna və məzmununa görə heç də onun digər araşdırmalarından geri qalmır. Oxucu alimin məqalələrini oxuyanda görür ki, Aida xanımın yaradıcılıq laboratoriyasının üfüqləri Qərbdə Əndəlus (ərəblərin VII-XII əsrdə İspaniyada yaratdıqları zəngin ədəbiyyat nəzərdə tutulur) torpaqlarına, Şərqdə isə Şətt əl-ərəb (İraqda Dəclə və Fərat çaylarının qovuşduğu məkan) sahillərinə qədər uzanır.

Bu məqalələr ötən əsrin 70-ci illərindən başlayaraq müxtəlif vaxtlarda "Azərbaycan", "Literaturnı Azerbaydjan" jurnallarında, Elmlər Akademiyasının "Xəbərlər"ində, "Ədəbiyyat və incəsənət" qəzetində, həmçinin müxtəlif toplularda çap olunurdu. Belə məqalələrdən biri professorun "Novruz Şərq ölkələrində" adlanır. Aida xanım məqalədə bu bayramın qədimliyi, onun İslamdan qabaq mövcud olması barədə belə yazır: "Yaxın və Orta Şərqin bir çox ölkələrində bu bayram əziz və səbirsizliklə gözlənilən bir mərasim kimi qeyd olunur. Təbiətə sitayiş, təbiətin qış yuxusundan ayılması ilə bağlı olan Novruzun mərasimləri qədim tarixə malikdir". Deməli, bu bayram yeni ilin gəlməsi, torpağın oyanması, həyatın yeniləşməsi ilə əlaqədar keçirilən bayramdır. Aida xanım bayramın müddətini də açıqlayır: fevralın 20-dən martın 21-dək. O, belə bir qənaətə gəlmişdir ki, Novruzu ilk növbədə Mərkəzi Asiyadan Balkanlaradək ərazidə yaşayan türk xalqları qeyd edirdilər. Bayram İran və Misirdə də təntənəli şəkildə keçirilirdi. Alim qeyd edirdi ki, Novruzun keçirilməsini isə ərəb xəlifəsi Məmunun hakimiyyəti dövründə (813-832) ilk dəfə bayram kimi rəsmiləşdirilmişdir.

Professor Aida İmanquliyevanın yaradıcılıq laboratoriyasında tərcüməçilik fəaliyyəti də özünü qabarıq şəkildə büruzə verir. O, həm ərəb yazıçılarının dərin məzmunlu hekayələrini, həm də rus dilindən xeyli elmi-publisistik məqalələr tərcümə etmişdir. Aida xanım ərəb yazıçıları Mixail Nüaymə, Sahib Camal, Süheyl İdris, Məhəmməd Dib, Mahmud Zahir və başqalarından tərcümə etdiyi hekayələr "İnsan və quş" (Malik Qarayevlə birlikdə) və "Ağ günlərin sorağında" kitablarında yer almışdır. Onun tərcüməçilik fəaliyyətinin ikinci istiqamətini ruscadan çevirdiyi elmi məqalələr təşkil edir. Bu məqalələr rus alimlərinin İslam dini ilə bağlı apardıqları yüksək səviyyəli elmi araşdırmalardır.

Aida xanımın elmi yaradıcılığı barədə rus tədqiqatçılarından Rusiya Elmlər Akademiyasının M.Qorki adına Ədəbiyyat İnstitutunun direktoru, akademik Aleksandr Kudelin, Sankt-Peterburq Universitetinin professorları Anna Dolinina, Olqa Frolova, keçmiş SSRİ EA-nın Şərqşünaslıq İnstitutunun professorları İsaak Filştinski, Valeriya Kirpiçenko, İrina Bilık və başqaları, həmçinin ərəb alimləri - İslam Konfransı Təşkilatının elm, təhsil və mədəniyyət məsələləri üzrə baş katibi, doktor Əbdüləziz bin Osman Tuveyciri, Eyn əş-Şəms Universitetinin Ərəb dili və ədəbiyyatı kafedrasının müdiri, professor Fariq Çələbi və başqaları dəyərli fikirlər söyləmişlər.

1979-cu ildə Moskvada "Nauka i religi-ya" jurnalında İslam dini ilə bağlı silsilə elmi məqalələr çıxmışdır. Həmin yazıları çap etməyi jurnaldan rus oxucuları xahiş etmişdilər. Məqalələrdən xəbər tutan Azərbaycan oxucuları da yazıların Azərbaycan dilində çap olunmasını Bakıda çıxan "Elm və həyat" jurnalından xahiş etmişdilər. "Elm və həyat"ın redaksiyası məqalələrin tərcüməsini Aida İmanquliyevaya həvalə etmişdi. Jurnal bu barədə belə yazırdı: "Oxucuların bir qrupu - tədqiqatçılar, müəllimlər, tələbələr, ümumiyyətlə, Şərqin tarixi, mədəniyyəti, qədim ənənələri ilə maraqlananlar İslamın əsas müqəddəs kitabı Qurani-kərim barədə məlumat verməyi xahiş edirlər. Xahişləri nəzərə alaraq bu nömrədən Quran haqqında yazı veririk. Material "Nauka i religiya" jurnalında dərc edilmiş məqalələr əsasında tərtib olunmuşdur. Materialın tərcüməsi və orijinal mənbələrlə tutuşdurulub işlənib çapa hazırlanması ilə Azərbaycan SSR EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunun Ərəb filologiyası şöbəsinin müdiri, filologiya elmləri namizədi Aida İmanquliyeva məşğul olmuşdur".

Sözügedən məqalələr 1981-ci ilin fevral ayından etibarən jurnalın nömrələrində çap olunmuşdur. Yadımdadır, jurnalın nömrələrini ərəb və rus dillərini bilməyən, ərəb yazı-pozusundan məlumatı olmayan, amma özünü müsəlman sayan yaşlı nəsil də, tarixçi də, filosof da, ateist də, dindar müsəlman da, ziyalı da əl-əl axtarırdılar. Çünki o vaxta qədər dilimizdə Quran barəsində belə məzmunlu, maraqlı yazılar çap olunmamışdı, çünki müqəddəs kitabımız barəsində müsəlman Azərbaycanında danışmaq, fikir mübadiləsi aparmaq qadağan idi.

Məqalələrin birində, daha doğrusu, fəlsəfə elmləri doktoru M.Usmanovun "Quran necə yaranmışdır" adlı yazısında xəlifə Osman ibn Əffanın peyğəmbərin iki qızı - əvvəlcə böyük qızı Ruqiyyə, o, öləndən sonra isə digər qızı Umm Gülsüm ilə evləndiyi göstərilir. Ona görə də o vaxt xəlifəyə "Osman zu-n-nureyn" ("iki nurlu Osman") ləqəbini vermişdilər. Daşkəndli islamşünas bu barədə də əhatəli məlumat verirdi.

M.Usmanovun "Nauka i religiya" jurnalının səhifələrində dərc olunmuş məqalələrində Ramazan (Orucluq), şiə və sünnilərin fərqli namaz qılmaları, qiblənin Məhəmməd peyğəmbərin göstərişi ilə niyə dəyişdirilməsi, İslamın əsas vacibatları barədə verilən məlumatlar Azərbaycanlı oxucuların böyük marağına səbəb olmuşdu.

1980-ci illərin əvvəllərində Aida xanımın Quranla bağlı tərcümə etdiyi, özünün qayə və məzmunu ilə M.Usmanovun məqalələrindən xeyli fərqlənən bir əsər də var idi. Bu, moskvalı ərəbşünas, professor İsaak Filştinskinin "Nauka i religiya" jurnalında dərc olunmuş "Ərəb ədəbiyyatının abidəsi" məqaləsi idi. Öncədən deməliyik ki, Quranı ədəbi abidə kimi öyrənməyi qarşısına məqsəd qoyan İ.Filştinski bu sahədə novatorluq etmiş, həm Şərqdə, həm də Qərbdə Quranı ədəbi əsər kimi tədqiq etmək istəyənləri xeyli qabaqlamışdır. Rusiyalı ərəbşünasın məqaləsində Quran ədəbi abidə kimi araşdırılır və göstərilir ki, o, ərəblərin ilk nəsr əsəridir. Müəllif yazırdı ki, ərəblər bu müqəddəs kitabı abidə kimi öyrənməklə ərəb dilinin formalaşmasına kömək etmiş və Quran vasitəsilə ərəb dilinin qrammatik və stilistik qaydalarını təsbit etmişlər.

Aida İmanquliyevanın elmi fəaliyyətindən danışarkən onun Azərbaycanda yetişdirdiyi milli ərəbşünas kadrlar barədə də fikir söyləmək lazımdır. Aida xanım 1988-ci ildə Tbilisidə doktorluq dissertasiyası müdafiə etdikdən sonra Bakıda beş elmlər namizədi yetişdirmişdir. Bu elmlər namizədlərinin dördü Azərbaycan, biri isə Almaniya vətəndaşı Anna Mariya Aux idi. Aux sonralar Almaniya universitetlərinin birində uzun müddət Azərbaycan tarixindən dərs demişdir.

Biz Aida xanımın elmi irsini yaşatmaq üçün aspirantlara məhcər ədəbiyyatı ilə bağlı dissertasiya mövzuları vermişdik. Bunlar "Əmin ər-Reyhani və ərəb Şərqi", "Məhcər ədəbiyyatının Cənubi Amerika qolu" və s. mövzulardır. Sevindirici haldır ki, hər iki mövzunun sahibləri artıq beş ildən çoxdur elmlər namizədidirlər. Aida xanımın ərəb ədəbiyyatı ilə bağlı apardığı araşdırmalar arasında onun 45 il əvvəl yazdığı bir əsər də var. Bu, "İraq ədəbiyyatı haqqında" oçerkdir. Həmin oçerkdə alim XX əsrin birinci yarısında İraq poeziyası və nəsrini ətraflı təhlil etmişdir. Müəllif əsərdə elə yaradıcı fikirlər söyləmişdir ki, oxucu ərəbşünas xanımın İraq ədəbiyyatını bu dərəcədə dərindən bilməsinə heyran qalmaya bilmir.

Sonda professor Aida İmanquliyevanın rus ərəbşünasları ilə həmkarlıq, dostluq əlaqələrinə də toxunmaq lazımdır. Aida xanım Moskvada aspiranturada oxuduğu illərdən rus ərəbşünasları ilə sıx münasibətlər qurmuşdu. İ.Filştinski, A.Dolinina, O.Frolova, İ.Bilık, A.Kudeli və başqaları Aida xanımın elminə, savadına, insanlığına heyran qalmışdılar. Sankt-Peterburqlu professor O.Frolova onu özünə yaxın bacı hesab edirdi. Moskvalı ərəbşünas İ.Bilık Aida xanımın xarakterində mülayimliyin və sərtliyin cəm olduğunu hiss edibmiş. O, belə bir kiçik hekayət nəql edir. Yazır ki, 1989-cu ildə Mixail Nüaymənin anadan olmasının 100 illiyi münasibətilə Poltavada elmi konfrans keçirilirmiş. Həmin konfransda İ.Bilık və Aida xanım da iştirak edirmişlər. Konfransı bir moskvalı ərəbşünası açıb deyir ki, Mixail Nüaymə o qədər də güclü şair olmamışdır: " O, sizin Korolenko kimi üçüncü dərəcəli şair idi". İ.Bilık yazır ki, bu söz yerli Poltava camaatının xoşuna gəlmədi, onlar narazılıqlarını bildirdilər. Sonra söz əsas məruzəçi Aida xanıma verildi. Aida xanım məruzəsində həmin ərəbşünasa elə tutarlı dəlillərlə cavab verdi ki, poltavalılar bundan razı qalırlar.

Yazıma professor İ.Filştinskinin sözləri ilə yekun vurmaq istərdim: "Aida xanımın vaxtsız vəfatı həm Azərbaycan, həm də rus şərqşünaslıq elmi üçün ağır itki idi".

***Vilayət CƏFƏROV,***
***AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor***

# Başını uca tut, Azərbaycan!

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən cəbhə xətti boyu yaşayış məntəqələrimizin və hərbi birləşmələrimizin mövqelərinin ağır artilleriya qurğularından atəşə tutulması nəticəsində hərbi qulluqçularımız, mülki şəxslərimiz, o cümlədən iki uşaq həlak olmuş, çoxlu mülki şəxs yaralanmışdır. Bu hərbi təcavüzün qarşısının alınması məqsədilə Azərbaycan Ordusu zəruri əks-hücum tədbirlərini həyata keçirməyə başlamışdır.

Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərlə bağlı müvafiq rayon prokurorluğunda 20-dən çox cinayət işi açılmışdır. İşğalçı dövlət bu hərbi təxribatları həyata keçirməklə dinc əhalini terrora məruz qoymaq, hədələmək və çaxnaşma yaratmaq məqsədi güdür. Beynəlxalq hüququ kobud şəkildə pozan ölkə Azərbaycanın işğal olunmuş ərazilərində xarici vətəndaşların qeyri-qanuni məskunlaşmasını həyata keçirmiş, torpaqlarımızda vuruşmaq üçün xarici dövlətlərdən on minlərlə erməni əsilli könüllü hərbi birləşmələr gətirmişdir.

Azərbaycan Ordusu tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətraf rayonları işğaldan azad etmək üçün savaşır. Artıq demək olar ki, bütün əsas beynəlxalq təşkilatlar mövqeyimizi dəstəkləyir. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, ATƏT bəyanatlar veriblər. İşğal etdiyi Azərbaycanın Qarabağ torpaqlarının danışıqsız boşaldılması haqqında BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 Qətnaməsinə məhəl qoymayan Ermənistan Cənubi Qafqazda, eləcə də bütün dünyada sülhə və təhlükəsizliyə qarşı ən böyük təhlükə mənbəyinə çevrilmişdir. Əgər bu ilin iyul ayında Azərbaycanın Tovuz rayonuna işğalçı Ermənistanın hərbi təcavüzünə, qanunsuz əməllərinə beynəlxalq təşkilatlar, xüsusən də BMT Təhlükəsizlik Şurası, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri və dünyanın digər aparıcı dövlətləri tərəfindən təcili qiymət verilsəydi və təcavüzkar cəzalandırılsaydı, Azərbaycan indi Ermənistanın növbəti hücumlarına məruz qalmazdı. BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən, düşməni işğal olunmuş torpaqlarımızdan ya təkbaşına, ya da BMT dövlətlərinin iştirakı ilə çıxarmağa ixtiyarımız var. Ordumuz həm də BMT -nin 27 il bundan əvvəl yerinə yetirmədiyi qərarları icra edir.

Biz beynəlxalq təşkilatları, xarici ölkələrin dövlət başçılarını Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüzü qəti şəkildə pisləməyə, yeni işğal niyyətini durdurmağa, onun 30 ildən artiq işğal altinda saxladıgı 20 min kvadrat km ərazimizi təcili boşaltmaları üçün təsirli addımlar atmağa və təcavüzkarı cəzalandırmağa çağırırıq.

Azərbaycan hər zaman qan tökülməsinin əlehinə olmuş, əbədi torpaqlarımızın dinc yolla düşmən işğalından azad olunmasına calışmışdır. Ermənistanın baş naziri Paşinyanın həyasızcasına dediyi "Qarabağ Ermənistandır" ifadəsi tamamilə ağ yalan, absurddur. Tarixi mənbələr təsdiq edir ki, hətta indiki Ermənistan Respublikasının ərazisi ən qədim zamanlardan həmişə Azərbaycanın tərkibində olmuşdur. Bu ərazilər sonrakı tarixi dövrlərdə də akademik Yaqub Mahmudovun yazdığı kimi Sacilər, Salarilər, Şəddadilər, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarilər və Qacarların idarə etdikləri Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Yalnız 1805-ci il mayın 14-də Gəncə şəhərinin yaxınlığında yerləşən Kürəkçay qəsəbəsində Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi haqqında Qarabağ xanı İbrahimxəlil xan və Rusiya imperiyasının generalı Pavel Sisianov tərəfindən Kürəkçay müqaviləsi imzalanmışdır...

Sonralar 1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələri əsasında Azərbaycanın digər əraziləri də Rusiya imperiyasının tərkibinə keçmişdir. 1920-ci ildə isə Azərbaycanda sovet hakimiyyəti qurulandan bir il sonra, 1921-ci ildə bolşevik partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması haqqında, bəzi saxtakar erməni mənbələrinin əsassız olaraq iddia etdiyi kimi "təhvil verilməsi" deyil, "saxlanılması" haqqında qərar qəbul etmişdir. Erməni millətçiləri Azərbaycanlılara qarşı 1905-1906, 1918-1920, 1948-1953 və 1988, 1994-cü illərdə çoxsaylı soyqırımlar, kütləvi qırğınlar həyata kecirmişlər.

Bu gun dünyada 7 min 104 millətin yaşadıgı 220-yə qədər dövlət vardır. Xoşbəxt o xalqdır ki, onun qətiyyətli iradəli lideri var. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev dünya şöhrətli siyasi xadimin övladı olmaqla yanaşı, həm də Ümummilli Liderin hərtərəfli məktəbində yetişmişdir. Ulu Öndər Heydər Əliyev hədər yerə deməmişdir ki, "Mən Ona özüm qədər inanıram..."

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 30-da Müdafiə Nazirliyinin Mərkəzi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşdə Ali Baş Komandan demişdir: "Erməni xalqı əgər sülh şəraitində yaşamaq istəyirsə, öz hakimiyyətini məsuliyyətə cəlb etsin. Çünki erməni xalqının bədbəxtliyi ondan ibarətdir ki, uzun illər ərzində ona quldur kriminal rejim rəhbərlik edib. O rejim ki, ancaq öz şəxsi maraqlarını güdmək üçün azərbaycanlılara qarşı soyqırımı törədib və bizim torpaqlarımızı işğal altında saxlayır. Mən əminəm ki, erməni xalqı mənim bu sözlərimi düzgün başa düşəcək, düzgün anlayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı. Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır. Ona görə bizim davamız haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq".

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev işğalçı Ermənistanı siyasi-diplomatik sferada da məğlubiyyətə uğradır. Hər ötən gün düşmənin istər canlı qüvvə, istər hərbi texnika baxımından imkanları tükənməkdədir. Onun təbliğat maşını nə qədər yalan informasiyalar yaysa da, cəbhənin bütün istiqamətlərində Azərbaycan Ordusu düşməni darmadağın edərək irəliləyir.

Dövlət başçımızın qətiyyətli addımları, xalqa müraciətləri cəmiyyətimizdə, dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq, qəlbi Azərbaycanla döyünən hər kəsdə ruh yüksəkliyi yaradıb. Nəhayət, düşmən tapdağında olan torpaqlarımızı azad edə biləcəyik fikirləri, ölkə Prezidentinin qətiyyətlə söylədiyi hər söz, hər kəlmə hər birimizi daxilən səfərbər edib.

"Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar". Oktyabrın 4-də Prezident İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu fikirlər hər zaman olduğu kimi, dövlət başçısının diplomatik bacarığının, qətiyyətli mövqeyinin, prinsipiallığının daha bir nümayişi oldu.

Ermənistan silahlı qüvvələrinin ölkəmizə işğalı ilə açılan 27 sentyabr səhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin atdığı ilk addım - hərbi vəziyyət elan edilməsi haqqında fərman, Azərbaycan televiziyası ilə xalqa müraciəti, Təhlükəsizlik Şurasının iclasını keçirməsi və oradakı çıxışları olmuşdur. Daha sonra "Əl-Cəzirə", "Əl-Ərəbiyyə", Türkiyənin TRT Haber-1, Rusiya-1 televiziya xəbərləri kanallarına verdiyi musahibələr, 4 oktyabr 2020-ci ildə Cəbrayılın azad olunması ilə bağlı xalqa təbriki Azərbaycan vətəndaşlarını dəqiqələr ərzində bir yumruğa çevirdi. Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır" sözləri bu gün də ölkəmizin həyatında xüsusi yer tutur və xalq-iqtidar birliyinin bariz ifadəsidir. Bütün xalq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşmişdir və bu çətin gündə Prezidentinə, Şanlı Ordusuna əminliklə inanaraq bilirlər ki, Qələbə bizimlədir.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev sülhə tərəfdardır, müharibənin tez bir zamanda dayandırılmasını istəyir. Amma bir şərtlə: işğal olunmuş ərazilərimiz təcili boşaldılmalıdır. Bu gün Azərbaycan xalqı sevinc içindədir.

"Ancaq irəli!" Bütün ölkəni hazırda bu əzm, bu yekdillik, bu böyük ideal qovuşdurur. Ön cəbhədə əsgərlərimizin, arxa cəbhədə xalqın bir məqsədi var - zəfər bayrağını azad olunmuş torpaqlarımızda sancmaq.

***İsmayıl ƏLİYEV,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, professor***

# Yalanın əlindən tutub yeridənlər

**Sentyabrın 27-də Azərbaycan Ordusunun əks-hücuma keçərək düşmənə ağır zərbələr endirib onu geri çəkilməyə məcbur etməsi dünya siyasətində bomba effekti yaratdı. İllərdir bizə "Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur" deyib moizə oxuyanlar gördülər ki, başqa yol da varmış. Daha doğrusu, məlum oldu ki, Ermənistanın destruktiv mövqeyi üzündən bu münaqişənin sülh yolu ilə həlli dalana dirənib.**

İndi Azərbaycan erməni işğalçılarına sarsıdıcı zərbələr endirməklə həmin dalandan çıxmaq istəyir. Buna baxmayaraq, məlum "sülh göyərçinləri" yenə tərəflərə atəşkəs çağırışları edirlər. Özü də, adət etdikləri kimi, təcavüzkarla təcavüzə məruz qalan arasında fərq qoymadan. Bununla onlar 30 ildir işğalda qalan torpaqlarımızın azad edilməsində bizə mane olmaq istəyirlər.

Hamıya aydındır ki, beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsinin 51-ci maddəsinə əsasən, hər bir ölkə işğal altındakı əraziləri güc yolu ilə qaytarmaq hüququna malikdir. Belə olan halda Azərbaycanı bu Vətən savaşında az qala işğalçı kimi günahlandırmaq, yumşaq desək, haqsızlıqdan, ədalətsizlikdən xəbər verir.

Nikol Paşinyanın dəlilsiz, sübutsuz Azərbaycanın Türkiyə vasitəsilə döyüş bölgəsinə terrorçuları cəlb etməsi barədə verdiyi sərsəm bəyanatlardan ölkəmizə qarşı istifadə olunmağa cəhdlər edilir. İndi Qərb mətbuatı bu yalanı tirajlayıb yeni-yeni "dəlil"lər tapır. Hətta inandırıcı olsun deyə hansı "marşrutlar"dan istifadə edildiyindən də yazırlar. Bununla bizimlə yanaşı, qardaş Türkiyəni şərləyərək Qarabağ münaqişəsinin həlli prosesindən uzaqlaşdırmaq istəyirlər

Ümumiyyətlə, Ermənistanı birbaşa və dolayısı müdafiə edənlər hadisələrin indiki inkişafından çox narahatdırlar. Halbuki onlar bilməmiş deyillər ki, 90-cı illərdə torpaqlarımızın işğalının əsas səbəblərinfdən biri də tək qalmağımız və Ermənistana hər cür hərbi dəstəyin verilməsi olub. İndi isə vəziyyət başqadır. Ölkəmizin haqq işini müdafiə edən Türkiyə kimi güclü dövlət var. Üstəlik, Azərbaycan 90-cı illərdə olduğu kimi, düşmənlə əliyalın vuruşmur, indi Azərbaycanın müasir ordusu və İlham Əliyev kimi qətiyyətli Ali Baş Komandanı var.

Digər bir məsələ: bu gün Ermənistan döyüş bölgəsində onlar tərəfdə terrorçuların vuruşduğunu danmır. Deyirlər ki, Yaxın Şərqdən gələn ermənilər terrorçu yox, könüllülərdir və onların bu müharibədə iştirak etmələri təbiidir. Lakin beynəlxalq hüquqda terrorçu milli mənsubiyyətinə görə deyil, məhz terrorçu olduğu ilə müəyyənləşdirilir. Ermənistan rəhbərliyinin sözündən belə çıxır ki, ASALA terror təşkilatının üzvü erməni olduğu üçün terrorçu sayıla bilməz və onun Ermənistan tərəfindən döyüşməsi beynəlxalq qanunlara zidd deyil. Halbuki beynəlxalq praktikaya görə, bir dövlətin vətəndaşının digər ölkənin ərazisində döyüşməsi cinayət sayılır. Belə çıxır ki, bu beynəlxalq təcrübənin Ermənistana aidiyyəti yoxdur. Əgər ermənisənsə, Ermənistan vətəndaşı olmasan da, onun tərəfindən başqa dövlətə qarşı döyüşə bilərsən. Bu, həyasızlığın ifrat dərəcəsi deyil, bəs nədir?!

Göründüyü kimi, düşmənlərimiz Azərbaycan Ordusu tərəfindən aparılan uğurlu əməliyyatların qarşısını almaq üçün bütün məkrli vasitələrə əl atırlar. Ona görə də hər bir Azərbaycan vətəndaşı ayıq-sayıq olmalıdır. Unutmamalıyıq ki, bizim kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə istifadə olunan bir səhv fikirdən düşmən bizə qarşı istifadə edə bilər. Özlərinin terrorçulardan istifadə etdiyi halda bizi günahlandırmaları onların son yalanı deyil. Amma haqq-ədalət Azərbaycan tərəfindədir. Biz bütün təzyiqlərə, şantajlara, təhdidlərə boyun əyməyərək dövlətimizin və Ordumuzun arxasında olmalıyıq. Qələbə bizimlədir!

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Hərbi vəziyyət dövründə mülki PUA-ların istifadəsi qadağandır

**Cəbhə xəttində intensiv döyüş əməliyyatlarının aparıldığı indiki vaxtda respublika ərazisində mülki pilotsuz uçan aparatların (PUA) müxtəlif məqsədlərlə havaya qaldırılması əhali arasında narahatlıq yaratmaqla aidiyyəti dövlət strukturlarının fəaliyyətinə maneə törədir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr şöbəsinin yaydığı məlumatda bildirilib.

"Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa və "Hərbi vəziyyətin elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq bütün mülki pilotsuz uçan aparatların hərbi vəziyyət dövründə istifadəsinin qadağan edildiyi bir daha diqqətə çatdırılır.

Bununla əlaqədar ölkə səmasında bu növ pilotsuz uçan aparatları müşahidə edən şəxslərdən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinə (012) 405-99-99 və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinə (012) 497-16-73 nömrəli telefonlar vasitəsilə məlumat vermələri xahiş olunur.

# Koronavirusdan daha 117 nəfər sağalıb, 215 nəfər isə yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 215 yeni yoluxma faktı qeydə alınıb, daha 117 nəfər sağalıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 41 min 519 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 39 min 129 nəfər müalicə olunaraq sağalıb, 605 nəfər vəfat edib. Aktiv xəstə sayı 1785 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 162 min 62 test aparılıb. Dünənki test sayı isə 5124-dür.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən standart tipli fizika, kimya və biologiya laboratoriyası dəstlərinin satın alınması məqsədilə 24.08.2020-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən, "TİKİNTİ-TƏMİR-TƏCHİZAT-BƏRPA" QSC qalib elan edilmişdir.

Həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Göyçay Rayon İcra Hakimiyyəti

## Göyçay şəhərində daxili yolların əsaslı təmiri işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

LOT - 1. Göyçay şəhərində daxili yolların əsaslı təmiri işlərinin satın alınması.

İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı 300 manatdır.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: baş mühasib - Kərimov Kamran, əlaqə telefonu: 050-209-09-46, 02027 4 43-45.

Ünvan: Göyçay şəhəri, M.Ə.Rəsulzadə küçəsi, 118.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı gündən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

*Təkliflərin qiymətləndirilməsində işlərin qısa müddətdə təhvil verilməsinə üstünlük veriləcəkdir.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə tələb olunan sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 oktyabr 2020-ci il saat 16:06-a** qədər, tender təklifi və bank təminatını isə **06 noyabr 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **11 noyabr 2020-ci il saat 16:06-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri barədə Portal vasitəsilə tanış ola bilərlər.

Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

Açıq tenderin Azərbaycan dilində tərtib olunmuş elektron şərtlər toplusunu **09 oktyabr 2020-ci il saat 11:00-dan** sonra əldə etmək olar.

***Tender komissiyası***

# Göyçay Rayon İcra Hakimiyyəti

## Göyçay şəhərində abadlıq işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

LOT - 1. Göyçay şəhərində abadlıq işlərinin satın alınması.

İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı 300 manatdır.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: baş mühasib - Kərimov Kamran, əlaqə telefonu: 050-209-09-46, 02027 4 43-45.

Ünvan: Göyçay şəhəri, M.Ə.Rəsulzadə küçəsi, 118.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı gündən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Təkliflərin qiymətləndirilməsində işlərin qısa müddətdə təhvil verilməsinə üstünlük veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə tələb olunan sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 oktyabr 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə **06 noyabr 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **11 noyabr 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri barədə Portal vasitəsilə tanış ola bilərlər.

Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

Açıq tenderin Azərbaycan dilində tərtib olunmuş elektron şərtlər toplusunu **09 oktyabr 2020-ci il saat 15:00-dan** sonra əldə etmək olar.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Təhsil müəssisələrinin təmir-tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması ilə bağlı

## *açıq tender elan edir*

Tender 10 (on) LOT üzrə keçirilir:

**LOT-1** Xaçmaz rayonu, Qusarçay kənd 480 şagird yerlik tam orta məktəbin bərpa-gücləndirməsi və 20 əlavə sinif otağının tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

**LOT -2** Zaqatala rayonu, Mosul kənd 528 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

**LOT -3** Oğuz rayonu, Xaçmaz kənd 1 nömrəli 624 şagird yerlik tam orta məktəbin əsaslı təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması

**LOT -4** Qax rayonu, Qum kənd 264 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

**LOT -5** Qəbələ rayonu, Bum kənd 624 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

**LOT -6** Cəlilabad rayonu, Maşlıq kənd 720 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

**LOT -7** Tərtər şəhər 5 nömrəli 360 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

**LOT -8** Göyçay rayonu, Bığır kənd 3 nömrəli 264 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

**LOT -9** Yevlax rayonu, Xaldan kənd 960 şagird yerlik kompleks tam orta məktəbin əsaslı təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması

**LOT -10** Bərdə rayonu, Xanərəb kənd 624 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər LOT üzrə 150 (bir yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30 oktyabr 2020-ci il saat 11:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **10 noyabr 2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **11 noyabr 2020-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən Fondun nəzdində olan sosial xidmət müəssisələri üçün "Çap və mətbəə mallarının" satın alınması üzrə 11.03.2020-ci il tarixdə elan edilmiş açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 30.2-ci maddəsinə əsasən, baş tutmamış hesab edilir və onun davamından imtina edilir. "İDEALPRİNT" MMC ilə imzalanmış 30.06.2020-ci il tarixli müqavilə qüvvədən düşmüş hesab edilir.

***Tender komissiyası***

# "Bakı Metropoliteni" QSC Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposunun motovoz sexində və vestibüldə istilik sisteminin quraşdırılması işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposunun motovoz sexində və vestibüldə istilik sisteminin quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adıçəkilən tender bölməsində əldə edə bilərlər.

Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-01-01.

**İştirak haqqı - 200 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30 oktyabr 2020-ci il saat 14:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **10 noyabr 2020-ci il saat 14:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **11 noyabr 2020-ci il saat 14:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Beynəlxalq standartlara uyğun rəsmi internet səhifəsinin "sosial.gov.az" yeni dizaynda yaradılması işlərinin satın alınması ilə əlaqədar elan edilmiş açıq tenderin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq tender təkliflərinin verilməsinin son müddəti 22 oktyabr 2020-ci il saat 18:00-a və tender təklifi zərflərinin açılışı vaxtı 23 oktyabr 2020-ci il saat 15:00-a müəyyən edilmişdir.

***Tender komissiyası***

# "Bakı Metropoliteni" QSC Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposunun motovoz sexində, vestibüldə yanğın su xəttinin çəkilməsi və santexnika işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposunun motovoz sexində, vestibüldə yanğın su xəttinin çəkilməsi və santexnika işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adıçəkilən tender bölməsində əldə edə bilərlər.

Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-01-01.

**İştirak haqqı - 200 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30 oktyabr 2020-ci il saat 15:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **10 noyabr 2020-ci il saat 15:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **11 noyabr 2020-ci il saat 15:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən 31 avqust 2020-ci il tarixdə Fondun Aparatının və struktur bölmələrinin istifadəsi üçün avtomobillərin satın alınması üzrə elan edilmiş açıq tenderdə iştirak edən iddiaçıların sayı üçdən az olduğu üçün tender baş tutmamış hesab olunur və onun davamından imtina edilir.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən 03 sentyabr 2020-ci il tarixdə avtomobillərin satın alınması üzrə elan edilmiş açıq tenderdə iştirak edən iddiaçıların sayı üçdən az olduğu üçün tender baş tutmamış hesab olunur və onun davamından imtina edilir.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə əzizi

**RAMİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akif Rəsulov, Səyyaf Qubadov, Abbas Atakişiyev, İsa Namazov, Muxtar Mustafayev, Rakif Rəsulov, İlham Hüseynov, Xaləddin Allahquliyev, Kamil Surxayev və İsmayıl Rəsulzadə polkovnik

**FİRUDİN ŞƏRİF OĞLU ŞABANOVUN**

uzunsürən xəstəlikdən sonra vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7479
Sifariş 2345
Qiyməti 40 qəpik